PAŞA YAQUB

# GİZLİ ELMLƏR

Elmi-lədun

PAŞA YAQUB

# GİZLİ ELMLƏR

Elmi-lədun

Bakı–2020

**Redaktoru:** **Nazim Tapdıqoğlu**
*tarixçi, tədqiqatçı,*
*"Qızıl Qələm" mükafatı laureatı*

**Paşa Yaqub: "Gizli elmlər"**
Bakı, "Zərdabi Nəşr" MMC, 2020, 216 səh.

*Əziz oxucu! Qarşınızdakı "Gizli elmlər" kitabı doktor Paşa Yaqubun sayca 34-cü kitabıdır. Burada müəllif kimya, fizika, anatomiya, biologiya, tibb, astronomiya, daktiloskopiya, kibernetika və informatika elmlərinin bugünədək gizli qalan məqamlarını araşdır, onların həyatımıza təsirindən söhbət açır. Kitabda həmçinin, son dövrlər baş verən müəmmalı təyyarə, qatar və enerji qəzalarının Günəş və Ay tutulmaları ilə əlaqəsini sübut edən hesablamalar və cədvəllər təqdim olunur.*

*Kitab geniş oxucu kütləsi üçün nəzərdə tutulub.*

$Y\ \frac{4605120494-11}{0103-2020}$ Qrifli nəşr

© "Zərdabi Nəşr" MMC, 2020

## UĞURUN SİRRİ

Son illərdə maraqlı kitabları ilə oxucularının böyük hörmətini qazanan **Paşa Yaqub** təzəcə yazıb tamamladığı "Gizli elmlər" kitabı ilə yenidən onların görüşünə gəlir. Kitabda müəllifin fizika, kimya, biologiya, kibernetika və informatika, daktiloskopiya elmlərinin bəzi sirləri və onların insan ömrü ilə əlaqələri, eləcə də bu elm sahələrinin insan həyatında rolu ilə bağlı maraqlı fikirləri, araşdırmaları, izahları öz əksini tapmışdır. Son dövrlər baş verən bəzi müəmmalı nəqliyyat (təyyarə, qatar və s) qəzaları və onların səbəbləri, eləcə də bu qəzaların Günəş və Ay tutulmaları ilə bağlılığı, bütün bunların müqəddəs "Quran"la izahlı təfsiri oxucuda böyük maraq doğurur.

Geniş oxucu auditoriyasına ünvanlanan bu maraqlı kitabda Kainatın (Kainat fizikanın qanunları ilə idarə olunur) gizli qalan bəzi sirləri araşdırılır, riyazi yolla astronomik hadisələrə (Günəş və Ay tululmalarına) bağlanan bir sıra təyyarə və enerji qəzalarının səbəbləri (pərdəarxası məqamları) açıqlanır və həm də bütün bunlar müəyyən cədvəllərə, "Quran"a söykənən düsturlara əsaslanaraq, məktəblərdə tədris olunmayan batini ("daxili", "iç" - ərəbcə) elm hesab edilən **Elmi-lədunun** işığı ilə izahlandırılır. Bu izahlarda yüksək elmə, biliyə, qabiliyyətə sahib olan bəzi peyğəmbərlərdən, müxtəlif kəramət sahiblərindən sitatlar gətirilir. Kitabda əxlaq, düzlük, məhəbbət və s. haqqında da maraqlı, müdrik, tərbiyəvi fikirlər vardır.





Bildiyimiz kimi, Paşa Yaqub həm də tibb elmində uğur qazanmış həkimdir. O, elmi-lədun yolu ilə kəşf etdiyi sirləri tibb elminə tətbiq edərək, özünəməxsus müalicə metodu yaratmışdır. Bu müalicə metodu ilə hətta, tibb elminin sağalmaz hesab etdiyi bir çox xəstəlikləri də sağaldaraq, illərlə Azərbaycanda və xaricdəki klinikalarda dərdinə çarə axtaran insanlara şəfa verərək, onları sevindirməkdədir. Kitabın "Təbabətin sirləri" bölümündə müəllif bir çox xəstəliklərin sirlərindən və onların müalicə yollarından bəhs edir. Bu fəsli oxuduqca, Mendeleyevin ölümündən sonra Elementlərin Dövrü Sisteminin saxtalaşdırılması, cədvəldən çıxarılan elementdə hansı sirlərin gizlənməsi oxucuya məlum olur. Bu saxtalaşdırmanın kimya, biologiya elminə vurduğu zərbənin nəticəsidir ki, bu gün tibb elmində bir çox xəstəliklər müalicəsiz hesab edilir. Kitabı oxuduqca məlum olur ki, Paşa həkimin yaratdığı müalicə metodu həmin cədvəldən çıxarılan elementin sirlərinə əsaslanır. Hansı ki, bir zamanlar böyük Alim və ixtiraçı Nikola Tesla bu sirləri bilməklə daimi işləyən mühərriki yaratmış və enerjinin naqilsiz ötürülməsini kəşf etmişdi.

Müəllifə məxsus olan maraqlı araşdırmalar, izahlar oxunaqlı bir dillə oxucuya çatdırılır və əlbəttə, müəlli-

fin özünün də qeyd etdiyi kimi, aqillərin "kəşf", cahillərin isə, "fantaziya" adlandıracağı bu tipli maraqlı yazıları, fikirləri kitabları gələcəkdə də davam etdirməyə dəyər. Mən hörmətli qələm dostum Paşa Yaquba həyatda möhkəm can sağlığı, elmi-ədəbi yaradıcılığında və həkimlik fəaliyyətində uğurlar arzulayıram. Arzu edirəm ki, maraqlı araşdırmaları ilə böyük rəğbət qazanmış Paşa Yaqub bundan sonra da bu tipli kitabları ilə sevimli oxucularını tez-tez sevindirsin.

Hörmətlə: **Nazim Tapdıqoğlu,**
*tarixçi, tədqiqatçı, publisist, şair,*
*"Qızıl Qələm" mükafatı laureatı*





## ELMİ-LƏDUN NƏDİR?

Elm *zahiri* və *batini* olmaqla, iki qurupa bölünür. Zahiri elmlər məktəbdə müəllimdən və kitabdan öyrənildiyi halda, batini elm əksinə, müəllimdən öyrənilməz. Buna ***elmi-lədun*** deyilir.

***Lədun*** sözü ərəbcə "***dərin qat"*** mənasını verməklə, elmin dərin qatlarına işarə anlamını verir. Bu, tək zəhmətlə (oxumaqla) əldə edilə bilməyən, həm də qəlbə gələn duyumla (hissiyyatla) qazanılan bilgidir. Vaxtilə peyğəmbərlər və digər kəramət sahibləri bu cür elmə malik olublar və sirlər üzərindən pərdələri məhz bu elmlə qaldırıblar.

Deyleminin rəvayət etdiyi bir hədisi-şərifdə: *"Elmi-lədun Allah-taalanın sirlərindən olan bir sirdir. Onun hökmlərindən olan bir hökmdür. Dilədiyi qulunun qəlbinə salar"* – deyə buyurulmuşdur.

"Sülük-ül-Uləma" adlı əsərdə keçən bir hədisi-şərifdə: *"Elmlərdən elələri vardır ki, onları ancaq mərifətullaha sahib olanlar bilirlər. Onlar bu elmlərdən xəbər verdikləri zaman mərifətullaha sahib olmayanlardan başqası onları inkar etməz"* – buyrulmuşdur.

Hadimi həzrətləri: *"Mərifətullah bilgiləri kəşflə və ilhamla hasil olur. Müəllimdən öyrənilməz"* – demişdir. *Elmi-ladun* barəsində "Quran"uın bir ayəsində belə buyrulur:

***"Şübhəsiz ki, Yəqub onu*** *(vəhylə)* ***öyrətdiyimiz üçün bir elm sahibi idi. Lakin insanların əksəriyyəti*** *(Allahın sevib-seçdiyi zatlara vəhy, ilham yolu ilə elm öyrətməsini)* ***bilməz!"*** Quran, 12:68

Əziz oxucu! Əlinizdəki bu kitabda Kainatın bir çox sirləri araşdırılır və elmi-lədun yolu ilə izah edilir. Bir vacib məqamı da diqqətinizə çatdırım ki, kitabdakı bütün araşdırmalar müəllifə məxsusdur.



# FİZİKANIN SİRLƏRİ

***Elmi-lədun işığında***

## İNSANDA PARALEL ALƏMƏ ÇIXIŞ NÖQTƏLƏRİ VAR

### *Onları birləşdirəndə barmaqlar «www» formasını alır*

Bu gün insanların əksəriyyəti xarici informasiya məkanına (*mənbəyinə*) çıxmaq üçün internet xidmətindən istifadə edir. Sual yaranır: insanın surəti olaraq yaradılan kompyuterdə xarici informasiya aləminə (*internetə*) çıxış varsa, bəs əslində (*insanda*) niyə olmasın? Və bir sual da yaranır: Əslində olmayan bir şey surətə düşə bilərmi? Xeyr! Elə isə kompyuterdə sıxdığımız **"*www*"** nöqtəsini insanda axtarmaq lazım deyilmi?

Fikrimizi aydınlaşdırmaq üçün, diqqətinizi çoxlarımızın bildiyi, amma, dərinliyinə varmadığımız bir fakta yönəltmək istəyirəm. Kamil insan olan Həzrət Məhəmməd əleyhissalamın həyatı ilə tanış olanlar belə bir epizodu xatırlayırlar ki, ilk vəhyi gətirən Həzrət Cəbrayıl üç dəfə "Oxu" dedi və hər dəfə eyni cavabı aldı: "Oxuya bilmirəm". Sonra isə Mələk Peyğəmbəri sıxdı və Peyğəmbər oxumağa başladı. Maraqlı deyilmi? Anatomik və bioloji cəhətdən bizdən heç nə ilə fərqlənməyən əcdadımızı sıxdıqdan sonra indiyədək tanımadığı bir əlifbanı oxuyur. Bəs bu hal indi niyə mümkün olmasın? Bəlkə mümkündür, biz bilmirik?





İnsan orqanizmində təbabətə məlum olan minlərlə nöqtə vardır ki, onlardan "mesaj göndərməklə" istənilən daxili orqanın tonusunu (enerjisini) artırmaq və onun pozulmuş fəaliyyətini tənzimləmək, komanda vermək mümkündür.

Bəs ruhumuza necə? Ona hansı nöqtədən "mesaj göndərmək", komanda vermək, onu hansı Ali Enerji və İnformasiya Mənbəyinə "qoşmaq" mümkündür? Uzun müddət elmi-ladun axtarışlarından sonra nəhayət, Allahın bəxş etdiyi elmlə bu nöqtələri üzərimdə tapa bildim. Məlum oldu ki, sayı üç olan bu nöqtələri hər əlimizin üç barmağı ilə basarkən (sıxarkən) barmaqlarımız fəzada **"www"** formasını alır. Verilən "komanda" nəticəsində ruhumuz paralel aləmə – informasiya və enerji məkanına "çıxıb", öz Mənbəyi ilə təmas yarada bilir. İctimailəşməsi Allah-taala tərəfindən qəti (!) qadağan olunan bu nöqtələri basan (sıxan) şəxsin bəsirət gözü açılır və o, paralel aləmdə gedən prosesləri müşahidə edə, dünyanı idarə edən mələklərin ("Quran"da onlara işləri düzüb-qoşan mələklər deyə and içilir) nurunu ziyarət edə bilir...

Bu hikməti dərk etdikdən sonra, artıq Məhəmməd əleyhissalamla Həzrət Cəbrayıl əleyhissalam arasında baş verən əhvalatın da sirrini anlamaq olur. Yəni, məlum olur ki, mələk onun əslində lazımi nöqtələrini (kompyuterdə olduğu kimi) sıxmaqla, beyinə komanda vermiş və gərəkən şöbəni (oxu: proqramı, faylı) aktivləşdirmişdir.

Elm sübut etmişdir ki, müasir insan beynin imkanlarının (proqramlarının) çox cüzi bir hissəsindən istifadə edə bilir. Bizə məlumdur ki, ruh (ana bətnində) insan bədəninə gələrkən, onda hədsiz sayda proqramlar yüklənmiş halda gəlir. Bu proqramlardan biri də "Quran"dır. Hətta araşdırmalarımız zamanı o da məlum oldu ki, konkret şəxsin gərəkən nöqtələrini sıxıb, beynin "Quran" olan şöbəsini aktivləşdirmək mümkündür.

### *İnsan "@" işarəsi ilə öz enerjisini ünvanlaya bilər*

Bildiyimiz kimi, insan həyəcanlı (qorxulu) informasiya qəbul etdikdə, bu həyəcana ilk reaksiyanı mədə və bağırsaq verir. Yəni, mədədə spazma (sıxılma) yaranır və bağırsağa sancı ötürür. Bu hal insanın alt kopiyası olan kompyuterdə də özünü aydın göstərir. Belə ki, insan anatomiyasına diqqətlə fikir versək, xəbəri ilk qəbul edən orqanın – mədə və bağırsağın quruluşunun "**@**" formasında olduğunu aydın görmək olar. Maraqlıdır ki, kompüter də internetdən (informasiya mənbəyindən) qəbul etdiyi informasiyanı **"@"** (!) işarəsi altında qəbul edir və ötürür.

Araşdırmalarımız göstərir ki, insandakı üç nöqtəni hər əlin üç barmağı ilə birləşdirməklə (www) istənilən vaxt bəsirət gözünü açıb, paralel aləmdə olan nuru ziyarət etmək mümkündür. O ki, qaldı mədənin üstündə olan **"@"** nöqtəsini sıxıb, ətrafa «komanda» verməyə,





bundan yalnız Allahın icazəsi ilə, həm də yalnız bir dəfə 1999-cu ilin dekabrında istifadə edilib (həqqi yəqinlik hasil olması üçün). Komandanın ünvanı isə Yerin cazibəsindən kənarda olan sputnik ötürücü stansiyası olub. Verilən komanda nəticəsində sputnikin fəaliyyəti bir dəqiqəlik dayandığından, Yerdə bütün rabitə, informasiya və translyasiyalar bir dəqiqəlik dayandı. O vaxt bu qeyri-adi hadisə barədə yayılan informasiyalar çox müəmmalı oldu. Yəni, xəbərlərdə deyildi ki, sputnik yerdən dayandırıldı. Amma, necə dayandırıldı, həmin vaxt ona necə komanda verildi, bu barədə hələ də izah verilməyib (hadisənin elmi izahı artıq qarşınızdadır).

Və nəhayət, aqillərin "kəşf", cahillərin isə "fantaziya" adlandıracağı bu yazını, ikincilərin üstünlük təşkil etdikləri bir dövrdə davam etdirməyə dəyərmi? Elə isə burada mən **nöqtəni sıxıram** (hər mənada).

***"İçərisindən bir adama: "İnsanları*** *(Allahın əzabı ilə)* ***qorxut, iman gətirənləri müjdələ!" deməyimiz xalqa təəccüblü gəldimi ki, kafirlər: "Bu, həqiqətən, aşkar bir sehrbazdır!"- dedilər.*** *"Quran, 10:2.*

## KAİNAT FİZİKANIN QANUNLARI İLƏ İDARƏ OLUNUR

***"Allah Kainatı riyazi dillə yaratmışdır".***
*Qalileo Qaliley*

Bildiyimiz kimi, kainat fizikanın qanunları (fiziki qanunlar) ilə idarə olunur. Yəni, İlahi sistemdə enerjinin paylanması ilə, fizikada enerjinin paylanması qanunları üst-üstə düşür.

Məsələn, "Quran"da **36**-cı surə *YA SİN* adlanır. İlyas Peyğəmbərə müraciətlə müqəddəs kitabda *"İlyasin"* deyilməsi, bu sözün *"kamil insan", "Peyğəmbər"* sözünün sinonimi olduğunu deməyə əsas verir.

Bildiyimiz kimi, peyğəmbərlər və kəramət sahibləri Allah-taala ilə bəndələri arasında enerji ötürücüsü funksiyasını yerinə yetirirlər. Fizikada isə bu funksiyanı transformatorlar yerinə yetirir. İndi onlar arasında olan riyazi oxşarlıqlara nəzər salaq.

Kamil insanın anatomik quruluşunda **5** duyğu üzvü, **5** oma, **5** bel fəqərəsi; həmçinin baş-beyində **5** şöbə vardır və gündə **5** dəfə ibadət edir. Sadaladığım **5** amili özündə cəmləşdirən kamil insanın – kəramət sahbinin "Quran"dakı rəmzi **36**-dır (*YASİN*).

Maraqlıdır ki, transformatorda da **5** vəziyyət olmaqla, hər vəziyyətdə **36** (!) sargı olur.





Bildiyimiz kimi, Peyğəmbərin qəbul etdiyi enerji (vəhy) gizli səs, siqnal formasında olur. O, bu siqnalı sözə ÇEVİRMƏKLƏ insanlara çatdırır. Həm də, hamısını deyil, onların şüuru səviyyəsində (həzm edə biləcəyi qədər) ötürür.

Maraqlıdır ki, transformatorun da iş prinsipi eynən bu cürdür. *"Transformasiya"* - ÇEVİRMƏ deməkdir və funksiyası mənbədən qəbul etdiyi yüksək gərginlikli enerjini alçaqgərginlikli enerjiyə (220) çevirib, mənsəbə *(cihazlara)* ötürməkdən ibarətdir.

Bildiyimiz kimi, transformatorlar - *yüksəldici* və *alçaldıcı* olmaqla - iki qrupa bölünür.

**Yüksəldici** transformatorların vəzifəsi qəbul etdikləri enerjini artıraraq ötürməkdən ibarətdir. Onlara nəinki cihaz birləşdirmək, heç yaxınlaşmaq da mümkün deyildir. İnsanı məsafədən vurur. Onun üçün də belə transformatorlar məhəllələrdən kənarda qoyulur və onlarla əlaqə alçaldıcı transformatorun vasitəsi ilə qurulur.

İlahiyyat sistemində bunun misalı vəhy gətirən mələklərdir ki, adi insanların onlarla əlaqəsi nəinki mümkün deyildir, hətta uzaqdan belə onu görməsi ilə mələyin enerji və informasiya yükünə tab gətirə bilməzlər (xatırladım ki, Həzrət Cəbrayıl tərəfindən vəhy Peyğəmbərimizə çox vaxt məhəllədən kənarda – Hira dağında nazil olardı).

**Alçaldıcı** transformatorlar isə, məhəllə (oxu: *cəmiyyət*) daxilində yerləşdirilməklə, yuxarıda qeyd etdiyim kimi, qəbul olunan yüksəkgərginlikli enerjini azal-

daraq, cihazların (oxu: *insanların*) tutumuna uyğun – **220**-yə çevirərək, ötürürlər.

İlahi sistemdə bunun misalı peyğəmbər və kəramət sahibləridir ki, qəbul etdikləri vəhyin bir hissəsini özlərində saxlamaqla (informasiya yükünü azaltmaqla) insanların beyin tutumuna (şüur səviyyəsinə) uyğun olaraq cəmiyyətə ötürürlər.

İlahi sistemdə və fizikada enerjinin saxlanması və paylanmasındakı bənzərlik tək bunlardan ibarət deyildir. Belə ki, məişətimizdə istifadə etdiyimiz bütün cihazların üzərində bir qayda olaraq **220** ədədi həkk olunmuşdur.

Maraqlıdır ki, həmin **220** ədədi enerji (ruh) daşıyıcısı olan insanın da üzərinə həkk olunmuşdur. Belə ki, hər bir insanın anatomik quruluşu **220** (!) sümüyün birləşməsindən yaranıb!

Diqqətinizi başqa bir maraqlı məqama da cəlb etmək istəyirəm. Fiziklərdə belə bir haqlı sual yaranacaq ki, peyğəmbərlər və kəramət sahibləri də bioloji cəhətdən bizim kimi insanlar olduğu halda, niyə onlar mələyin informasiya və enerji yükünə tab gətirə bilir, başqa insanlar tab gətirə bilmir?

Bu maraqlı sualın da cavabını yenə fizikanın qanunları ilə vermək mümkündür. Belə ki, adətən transformatorların tutumunu artırmaq üçün onu açıb, içindəki sarğıları artırmaqla *(genişləndirməklə)* buna nail olurlar.

Kamil insanlarda da eynən bu cürdür – vəhy qəbul





etməzdən öncə onların qəlbində genişlənmə prosesi gedir. Yəni, onların enerji və informasiya götürmə qabiliyyəti artırılır. Bu barədə “Quran”ın ***“Açılıb genişlənmə”*** (94) surəsində belə deyilir:

***“Məgər biz sənin köksünü açıb genişləndirmədikmi?!”*** *Quran, 94:1.*

***Söz ardı:*** qəlbində açılıb - genişlənmə getməyən bir şəxsin bu mövzunu şərh etməsi mümkünsüz olardı.

## TESTER CİHAZINDAKI FUNKSİYALAR İNSANDA DA VAR

Yuxarıda qeyd etdik ki, Ulu Yaradan Kainatı fizikanın qanunları ilə idarə edir. Odur ki, əvvəlki yazılarımızda peyğəmbərlərin (o cümlədən, kəramət sahiblərinin) cəmiyyətin transormatoru funksiyasını yerinə yetirdiyi barədə hesablamalar vermişdik. Bu yazımızın mövzusu isə, **tester**dir.

Fiziklər bu aparatı yaxşı tanıyırlar. Fizik olmayanlar isə, bu aparatın adını bilməsələr də, özünü çox görüblər. Belə ki, televizor, kompyuter və s. cihazları təmir edən ustaların demək olar ki, hamısının stolunun üstündə tester aparatı olur.

Aparatın çoxsaylı funksiyaları vardır. Belə ki, o həm cihazın daxilində problemi (qırılmış detalı) müəyyən edir, həm də dəyişən (ürəyin kardioqramında olduğu kimi qalxıb-enən) cərəyanı sabit (düzxətli) cərəyana çevirir.

Qeyd edim ki, cihazda olan bu problem enerji (ruh) daşıyıcısı olan insanda da bir çox hallarda özünü biruzə verir. Yəni, insanın halı və yaxud bir məsələyə, bir şəxsə münasibəti gah yaxşı, gah da pis (dəyişkən) olur.

Hələ ta qədimdən - son 50-60 ilə (tibb elmi inkişaf edənə) qədər bu cür problemlərlə qarşılaşan insanlar yaşadıqları ərazidə olan kəramət sahiblərinə (ilkin





dövrlərdə peyğəmbərlərə, sonralar Allah dostlarına) üz tutar, dərdlərini onlara danışar və onların xeyir-duası, nəfəs vasitəsi ilə ötürdükləri enerjinin təsirindən özlərində sağlam, xoş əhval (oxu: sabit cərəyan) hiss edərdilər və xəstəlikdən sağalardılar.

Araşdırmalarımız göstərir ki, peyğəmbərlərin və digər kəramət sahiblərinin bu funksiyası fizikada tester cihazının funksiyası ilə üst-üstə düşür…

Mövlanə Cəlaləddin Rumi bu cür enerji ötürən insanları mənəvi həkimlər adlandırır və onları maddi həkimlərlə (tibb işçiləri ilə) belə müqayisə edir:

*“O zahir həkimlər başqadır, onlar ürəyə nəbzi tutaraq baxırlar və insanın cismini, əczalarla müalicə edirlər.*

*Mənəvi həkimlər isə, nəbzi tutmadan ürəyə baxırlar və Allahın bəxş etdiyi elmlə (elmi-lədunla) insanın ruhunu müalicə edirlər. Onların dəlilləri kəşf, ilham və sirri-İlahidir”.*

Qeyd edim ki, insan ruhunda baş verən qeyri-sabit hallar və xəstəiklər neqativ enerjinin təsirindən yaranır və qorxu, həyəcan, qarabasma, baş, çiyin, oynaq, sinir ağrıları, depressiya və s. xəstəliklərlə özünü biruzə verir.

Bu kimi əlamətləri olan adamların adətən həyatda işləri düz getmir, sağlamlıqlarında, məişətlərində və xoşbəxtliklərində onları daim izləyən problemləri həll etməkdə aciz (çarəsiz) qalırlar (xalq arasında buna qara zolağa düşmə də deyirlər). Belə adamların səhhətində

yaranan problemləri maddi həkimlər (tibb işçiləri) əczalarla aradan qaldırmaqda çətinlik çəkirlər; dərmanlarla müalicələr effekt vermir. Çünkü birinci səbəb (neqativ enerji), sonra nəticə (xəstəlik) aradan qaldırılmalıdır.

Təəssüf ki, müasir tibb elmi (bütün digər elmlər kimi) yarımçıq olduğundan və insanda olan ruhu nəzərə almadıqlarından (ruhun sirlərini bilmədiklərindən), səbəbə qarşı deyil, nəticəyə qarşı mübarizə aparırlar. Ona görə də insanlarımızın çoxu uzun illər, hətta bəzən ömrü boyu xəstəxana yollarında qalırlar…

Son vaxtlar bir psixoloq və elmi-lədun bilicisi olaraq bu cür hallarla çox qarşılaşıram və xəstəliyi aradan qaldırmaq üçün ilk növbədə xəstədəki neqativin növünü, səbəbini, daxilolma vaxtını və yolunu təsbit edirəm. Daha sonra pasiyentin neqativ enerjidən xilas olması üçün müsbət enerji ötürürəm ki, bu vaxt ondakı dəyişən cərəyan sabit cərəyana çevrilir - tester cihazında olduğu kimi. Daxili enerjisi sabitləşmiş insan elə ilk seansdaca bütün ağrılarının yox olduğunu və rahatlandığını etiraf edir. Beləliklə, pasiyentdə nə qədər ağır xəstəlik olmuş olsa belə, bir neçə seansa (əsasən 21 günə) bu xəstəlikləri yaradan səbəbdən – neqativ enerjidən azad olur.

O ki, qaldı niyə məhz 21 günə, qeyd edim ki, insanda hər gün milyonlarla hüceyrə doğulur və bu hüceyrələrin hər birinin ömrü 21 gün olur. Orqanizmdə neqativ enerji olduqda, yaranan hər hüceyrə həmin neqativə yoluxur. 21 gün ərzində xəstəni vaxtaşırı bir neçə dəfə (4-5 dəfə) seans etdikdə, doğulmuş bütün hüceyrələr neqativdən təmizlənir. Beləliklə, yeni doğulan hüceyrələr artıq neqativlə yüklənmir və insanın enerjisi sabitləşir. Bu cür sabit enerji olan insanda heç bir xəstəlik baş vermir.





Hamınıza sağlam can, xoşbəxt ömür və daim sabit **ruhiyyə** (enerji) arzulayıram.

## SİRAT KÖRPÜSÜ "PRAQLATKA" FUNKSİYASINI YERİNƏ YETİRİR

Yaradılışdan və fizikanın qanunlarından söz düşmüşkən, diqqətinizi Sirat körpüsünə cəlb etmək istəyirəm. Bu məqamda gördüyüm hikmətli bir yuxunu diqqətinizə çatdırım: yuxuda gördüm camaatla birlikdə Sirat körpüsünü keçmək üçün növbəyə düzülmüşük. Sirat körpüsü tük kimi nazik olduğundan, heç kəs keçə bilmirdi. Gedənlər ortada dərəyə yıxılır, yıxılanları görüb, növbədə olanlar körpüyə çıxmağa ehtiyat edirdilər ki, onlar da yanar odun içinə yıxılacaqlar...

Mən yaxınlaşıb körpüyə çıxdım və rahat irəliləməyə başladım. Hiss etdim ki, körpü bayaqkı kimi nazik deyil və getdikcə enlənir. Həm də sağ tərəfimdən bir işıq (nur) seli körpüyə düşürdü ki, (bax: 66-cı surənin 8-ci ayəsinə) bu da körpünün işıqlanmasına və genişlənməsinə səbəb olurdu...

Körpünün ortasına çatanda gördüm artıq körpü "praqlatka" (ara qat) formasındadır. Praqlatka haqqında onu deyim ki, bu detal mühərrikin içərisinə qoyulur. Mühərriki sökərkən onun iki hissədən ibarət olduğunu görmək olur. Və bu iki hissəni bir-biri ilə bitişdirərkən arasına həmin bu "praqlatka" (ara qat) deyilən detal qoyulur.





Məndə sual yarandı ki, nəyə görə Sirat körpüsü "praqlatka" formasındadır? Həmin anda beynimə informasiya sızdı ki, Allah-taala Kainatı mühərrik formasında, iki hissədən ibarət yaradıb. Bu iki hissənin biri bu dünya, digəri o dünyadır. **Kainatın iki hissəsini birləşdirən *SİRAT* körpüsü əslində "*praqlatka*" funksiyasını yerinə yetirir…**

### Günlər niyə tez keçir?

Bir dostum da söhbət edir ki, yuxuda məni göyə qaldırıb, Kəhkəşanı, Kainatın idarə olunmasını göstərdilər. Böyük bir çarxı göstərib: *"Fələyin çərxidir"* - dedilər. Onu mələklər fırladırdılar. Şüuraltı söhbət gedirdi. Dedilər son illər bizə bu çərxi sürətlə fırlatmaq əmri verilib. Biz də əvvəlki illərdən daha sürətlə fırladırıq. Sual verdim ki, niyə sürətlə fırladırsınız? Dedilər: "Yerdə şeytani dövrdür, zalımlar hökumət edirlər. Bu dövrdən mömünlər, saleh insanlar çox əziyyət çəkirlər. Onların zülmü tez başa çatsın deyə bu çərxı sürətlə fırladırıq. Ona görə də son dövrlər günlər daha tez gəlib keçir. Hadisələr də sürətlə baş verir...".

***"Bu insanlar üçün elə bir moizədir ki, onunla həm qorxsunlar, həm Allahın tək bir Tanrı olduğunu bilsinlər, həm də ağıl sahibləri düşünüb ibrət alsınlar!"*** *"Quran", 14:52.*

# AZƏRBAYCAN – SİRLİ MƏKAN



## QIZ QALASININ SİRLƏRİ

***"Biz hər şeyi sayıb yazmışıq".*** *Quran*

Bakının simvoluna çevrilən və yaşı yüz illərlə ölçülən Qız qalasında (əksər tədqiqatçılar qalanın XII əsrdə müdafiə məqsədi ilə tikildiyini qəbul etmişdir; qalanın daş kitabəsində kufi xətti ilə "Qübbə Məsud bin Davud" adı həkk olunmuşdur) bir çox sirlər gizlənməkdədir. Astronomik məqsədlə tikilən bu obyektdən bizdən qabaqkı sivilizasiyalar rəsədxana kimi istifadə etmişlər. Memarlıq formasına görə Şərqdə yeganə abidə olan Qız qalasının bəzi riyazi kodlarını diqqətinizə çatdırmaq istəyirik.

Hesablamalarımız göstərir ki, "9" formasında tikilən qalanın kodları 9 rəqəminə (eləcə də "Quran"ın 9-cu surəsinə) bağlanır.

Qalada diqqət çəkən digər məqam gövdə hissəsində 32 diş; çıxıntı (qol) hissəsində isə, 23 diş olmasıdır. Bunların da fərqi 9-a bərabərdir.

32 - 23 = 9 (!)

Onu da qeyd edim ki, dünyadakı 11 iqlim qurşağından 9-u Azərbaycandadır.

Burada haşiyə çıxaraq, oxucuların diqqətini "Qu-




ran"da 9 rəqəmi ilə gələn surələrə cəlb etmək istəyirik. Qeyd edək ki, 9 "Tövbə" surəsinin sıra nömrəsidir. "Quran"da cəzadan bəhs edən surələr 9 rəqəmi ilə gəlir və sayı 11 olan bu (9, 19, 29, 39, ......109) surələrdəki ayələri cəmləsək, **555** ədədi alınır:

129 + 98 + 69 + 75 + 18 + 24 + 52 + 46 + 30 + 8 + 6 = **555**

Yenə də qayıdaq Qız qalasındakı rəqəmlərə. Maraqlıdır ki, qalanı tədqiq edən bütün tədqiqatçılar orada keçən ölçülərin hamısının **555** ədədinə bağlandığını təsdiq edirlər. Məsələn:

159 + 951 = 1110 : 2 = 555
258 + 852 = 1110 : 2 = 555
357 + 753 = 1110 : 2 = 555
456 + 654 = 1110 : 2 = 555

Ona görə də tədqiqatçılar **555** ədədini Qız qalasının kodu hesab edirlər.

Bildiyimiz kimi, "Quran"ın 9-cu surəsi yeganə surədir ki, "Bismillah"sız başlayır. Sual yaranır: Niyə bəs "Tövbə" (9) surəsi "Bismillah"sız başlayır?

Elmi-lədun araşdırmalarımızla bu suala cavab tapmağa çalışaq. Hesablamalarımız göstərir ki, 9-cu surə 22-ci (Həcc) surənin davamıdır.

Xatırladım ki, elm və peyğəmbərlik rəmzi olan XXI





əsrin **2**-ci (!) Qurban bayramı günü (**22**. 0**2**. **2002**) mənə məlum oldu ki, "Tövbə" surəsinin ilk üç ayəsindəki hökm bugünkü Qurban bayramına da şamil olunur.

Belə ki, bu ayələrdə bu gün Qurban bayramı (!) olduğu vurğulanaraq, doğru yolda olmadıqları insanların diqqətinə çatdırılır və düz yola qayıtmaq üçün onlara dörd ay möhlət verilir:

*"Allahdan və Onun Peyğəmbərindən saziş bağladığımız müşriklərə bir xəbərdarlıq: "Yer üzündə dörd ay sərbəst gəzib dolaşın və bilin ki, siz Allahı aciz qoya bilməzsiniz... Əgər tövbə etsəniz, bu sizin üçün xeyirli olar. Əgər üz dön-dərsəniz, bilin ki, Allahın əzabından qaçıb ca-nınızı qurtara bilməzsiniz. Kafir (günahkar) olanları şiddətli bir əzabla müjdələ!"* Bax: "Tövbə" (9) surəsinin ilk üç ayəsinə.

Allahın verdiyi elmlə dörd aylıq möhlətin 22-24 iyunda (bayram 3 gündür) bitəcəyini bildiyimizdən, bu barədə o vaxtkı dövlət başçısına və xalqa açıq məktub yazıb, mətbuat orqanlarına göndərdik və gözlənilən bəladan xalqı xəbərdar etdik (5 iyun 2002-ci il tarixdə həmin müraciət "Hürriyyət" qəzetində çap olundu).

Nəhayət, **22** iyunda Cənubi Azərbaycanda baş verən **9** (!) bal zəlzələ ilə bəşəriyyətin cəzalanma prosesinin başlanğıcı qoyuldu.

Ondan sonra Yerdə baş verən bütün təbii fəlakətlər və təyyarə qəzalarının bu prosesin da-vamı olduğunu

zaman-zaman məqalələrimizdə və kitablarımızda riyazi hesablamalarla sübut etmişik.

Beləliklə, riyazi dildə desək, “Quran”da "iyirmi iki" "doqquza" çevrilir.

Yeri gəlmişkən, diqqətinizi başqa bir məqama da cəlb etmək istəyirəm. Bu hikmət insanın anatomik quruluşunda da özünü büruzə verir. Belə ki, insan anatomiyası **22**0 sümüyün birləşməsindən yaranmışdır ki, (sıfır məna bildirmədiyindən mötərizəyə alaq) bunlardan **22**-si başdadır.

Maraqlıdır ki, “Quran”ın **22**-ci surəsi “Həcc” surəsidir və burada Allahın evi, başqa sözlə desək, enerjinin **BAŞ**langıcı, **mərkəzi** olan Kəbə evinin ətrafına fırlanmaqdan söhbət açılır. Bütün bunlar təsadüfi deyildir.

Yeri gəlmişkən, 2-ci Qurban bayramı günü qəbul etdiyim və cəmiyyətə ötürdüyüm informasiyanın (**22** iyunla bağlı) doğruluğunu sübut etmək üçün daha bir dəlil gətirim: elm əsrinin birinci, ikinci və üçüncü Qurban bayramlarının **286**-cı günləri – müvafiq olaraq:

- 14 dekabr 2001-ci il;
- 4 dekabr 2002-ci il;
- 24 noyabr 2003-cü il tarixlərində Günəş tutulub.

Həmçinin, **22** iyun **2**00**2-**ci il tarixinin **286**-cı günü – 3 aprel 2003-cü il tarixlərdə Günəş tutulub.

(“Quran”ın səhifələrinin sayı olan 286 ədədinin hikmətləri barədə “Astronomiya elminin sirləri” bölümündə geniş bəhs edəcəyik).





Bu faktlar **22** iyun tarixinin də Qurban bayramları ilə eyni statusa malik olmasını sübut edir. Onu da əlavə edim ki, **2**-ci Qurban bayramı günü verilmiş dörd aylıq möhlət başa çatan gün – 24 iyunda (bayram üç gün olduğundan, möhlət də üç günə bitir) Ay tutulması baş verdi.

### *Vicdan – insanın daxili transformatorudur*

**22**-nin **9-**a çevrilməsi tək “Quran” və anatomiya elmlərində deyil, fizika elmində də özünü büruzə verir. Belə ki, diqqətinizi cihazların daxilində qoyulmuş transformatorun funksiyasına cəlb etmək istəyirəm. Bu transformatorlar **22**(0) voltluq enerjini bir qayda olaraq **9**-a çevirərək istifadə edirlər.

Buradan belə qənaət hasil olur ki, insan öz enerjisini əməli işə çevirərkən, onu vicdanının (daxili transformatorunun) süzgəcindən keçirməlidir. Yəni, *“Tövbə”* surəsinin sərhədləri daxilində əməllər etməlidir: Öz enerjisini günah işlərə sərf etməməlidir.

Əgər insan fizikanın qanunlarına tabe olmayıb, öz enerjisini günah işə sərf edərsə, onda mütləq gec-tez bəlaya məruz qalacaqdır. Son dövrlərdə cəmiyyətdə həyəcanlı hadisələrin (qəzaların, zəlzələlərin, ...) artması da məhz bu amillə əlaqədardır.

İyirmi iki ilə doqquzun fərqi isə, 13-ə bərabərdir:

$$\mathbf{22 - 9 = 13}$$

Bildiyimiz kimi, **13** ədədi "Quran"da ildırım, cəza rəmzidir. Buradan aydın olur ki, biz tövbə etmədikcə və öz enerjimizi əmələ çevirərkən, onu vicdan süzgəcindən keçirmədikcə, cəmiyyətimizdə qəzalar və həyəcanlı hadisələr getdikcə intensivləşməkdədir. Bütün bunlardan sığortalanmağın yolu TÖVBƏDƏN (9) keçir. Artıq neçə illərdir ki, mən bu qanunauyğunluğa riayət edirəm və mənə inananlara da bunu tövsiyə edirəm. Allah sizləri qorusun!

***"Sənin Rəbbin mərkəzlərinə*** *(böyük şəhərlərinə)* ***ayələrimizi oxuyan bir peyğəmbər göndərməmiş məmləkətləri məhv etmədi. Biz yalnız əhalisi zalım olan məmləkətləri yox etdik!"*** *Quran, 28:5.*

*(Qeyd: 13 ədədi barədə "Kimyanın sirləri" bölümündə geniş bəhs edəcəyik).*



# ASTRONOMİYANIN SİRLƏRİ

***Elmi-lədun işığında***

## DÖVRÜMÜZÜN VARAQA BİN NOFƏLİ KİMDİR?

Tarixə nəzər saldıqda hər bir peyğəmbərin özündən əvvəl xəbər verəninin olduğunu görürük. Məsələn, İslam Peyğəmbərinin xəbər verəni (səmavi kitablarla yanaşı) Varaqa bin Nofəl idi.

Həzrət Peyğəmbərimizin sevimli həyat yoldaşı Xədicə xanımın əmizadəsi olan Varaqa bin Nofəl dövrünün ən savadlı və açıq fikirli, yeniliyə meyl edən adamı idi. O, "Tövrat"ı, "Zəbur"u və "İncil"i dərindən bilməklə yanaşı, bunları ərəbcəyə tərcümə etmişdi. Həmçinin, bu səmavi kitabların əsasında, onların doğruluğunu təsdiq edən "Kitabi-müqəddəs" əsərini yazmışdı.

Bir çox dilləri bilən Varaqa bin Nofəl, dinlər tarixi, dinlərlə əlaqəli insanların həyat və fəaliyyəti, hekayələri barədə zəngin məlumatlar toplamış, bu mövzuda kitablar yazmışdı.

... Bir gün Xədicə xanım yuxuda gördü ki, Günəş yerə enib, onun evinə girdi və çıxaraq, bütün Məkkə əhalisinin evlərini işıqlandırdı. Yuxusunu əmisi oğlu Varaqaya danışdıqda, *"Gördüyün bu röya yaxında bir peyğəmbərin zühur edəcəyinə və sənin də həmin peyğəmbərin zövcəsi olacağına işarədir"* - dedi.

Ərəbistan əhalisi o zamanlar yəhudilər, xristianlar





və bütpərəstlərdən ibarət olmaqla, çoxluq bütə sitayiş edirdi. Varaqanın axtardığı təkallahlılıq inancı Məkkədə mövcud deyildi. Bu səbəbdən Varaqa Zeyid bin Amir ilə birlikdə səyahətə çıxıb, Şamda, Bursada xristian alimlərlə tanış olub, söhbətləşdilər. Ancaq İsanın təbliğ etdiyi dindən əsər-əlamət qalmadığına əmin oldular. Etibarlı bir qaynaq axtararkən, əfsanələrlə, xurafatla qarşılaşdılar. Həqiqi "İncil"i tapa bilməyən Varaqa və Zeyd, qüreyşin bütlərindən qaçdıqları halda, xristianların üçtanrılıq, heykəllər, təsvirlər aləminə düşdülər. Bu mənasız, cansıxıcı diyardan çıxıb, şimala doğru üz tutdular. Nəhayət, Mosulda sadəcə, Allahın rizasını qazanmağa çalışan bir nasturi rahibi ilə tanış olan Varaqa və Zeyd, ondan çox faydalanırlar və axtardıqlarına yaxın olan inancını bəyənirlər.

Həmin vaxtlar Məhəmməd də bütə tapınmağa nifrət edirdi. O da Həzrət Musa və Həzrət İsa kimi, cahiliyyat dövrünü yıxmağa çalışırdı. Və heykəllərə tapınmağı doğru hesab etmirdi. Onun həmfikirləri Varaqa, Kıyıs bin Saidə, Abdullah bin Çehişt, Osman bin Halis idi. Bu dörd hənif bir gün Məkkədə böyük məbudlardan (Lat, Uzza, Manat) birinin dini mərasiminə qatıldılar. Onlar sakit bir guşəyə çəkilərək, cahil insanların ibadətlərini seyr edirdilər. Qurbanlar kəsilib, məbut təvaf edilirdi. Şüursuz bir daş parçasına ibadət edən insanların halına acıyan bu dörd nəfər, özlərinə haq bir din arayacaqlarına söz verdilər. Dördü də bu fikirdə birləşdilər. Onların başçıları Varaqa bin Nofəl

idi. Bu dörd hənif, dövrün Peyğəmbəri olaraq Məhəmmədi görürdülər (hansı ki, o ərəfədə Məhəmmədə hələ vəhy gəlməmişdi və özünü peyğəmbər elan etməmişdi). Onu bu məqama yetişdirməyə çalışırdılar.

Buradan anlaşılır ki, bu böyük şəxsiyyətlər İslamiyyətin qurulması üçün gizli bir cəmiyyət olaraq çalışıblar. Məhəmmədin Varaqanın əmisi qızı, zəngin Xədicə ilə evlənməsi də bu səbəbdən ola bilər. Öncəsi bilinməsə də, rəsmi nikahdan (25 yaş) Peyğəmbərlik yaşına (40 yaşa) qədər keçən 15 il ərzində Məhəmməd Varaqa və digər həniflərdən davamlı olaraq bilgi alır və qarşıdakı təbliğlərdə istifadə edəcəyi, günün şərtlərindən olan tarixi, etnoqrafiyanı, coğrafiyanı, dinləri və hekayələri öyrənərək, öz elmi biliklərini zənginləşdirirdi. Beləliklə, Məhəmmədin öz dövrünün ən savadlı və zəngin biliyə malik bir şəxsiyyəti olaraq yetişməsində Varaqanın və onun ətrafında olan həniflərin böyük rolu olduğu danılmaz faktlardandır.

Əkilən və daimi qulluq edilən bu elm ağacı artıq öz bəhrəsini verməkdə idi. Hira dağındakı mağarada uzun müddət - gündüzlər və gecələr fikir mübadiləsi, İlahidən alınan ilham, yavaş-yavaş daşları yerinə otuzdurmaqda idi. İdeoloji devrim çox yaxındaydı.

Bu arada Ukkaz meydanında qızılı bir dəvə üzərində Kıyıs bin Saidə Ərəb xalqına mənalı və xəbərverici məşhur xitabını etdi. O zaman Həzrət Məhəmməd 38 yaşında olmaqla, bu alovlu və oyandırıcı hənifi diqqətlə dinləmişdi. Bilavasitə, bu sözlər onun ruhunda yeni bir cığır açdı:

*"Sizi əmin edirəm ki, Allah dərgahında bir din var ki, indi tapındığımız dindən daha sevimli və Allahın gələcək Peyğəmbəri vardır ki, gəlməsi lap yaxındadır; kölgəsi başımızın üzərinə gəldi. Nə mutlu o kimsəyə ki, ona iman edib də, o da ona hidayət edə. Vay o bədbəxtə ki, ona qarşı üsyan edə və müxalifət ola. Yazıqlar olsun ömrünü qəflətdə keçirən ümmətlərə!".*

O, bu sözlərlə ərəb xalqına Məhəmmədin gələcəyini xəbər verirdi. Və bundan sonra Məhəmməd İslamiyyəti qurmaq əzmində bulundu; Cənabi Haqdan nübüvvət və risaləti qəbul etdi.

Hira dağında Həzrət Cəbrayıl ilk dəfə nazil olaraq, vəhy gətirəndə Məhəmməd əleyhissalam qorxmuş, həyəcanlı halda evə gəldi və olanları həyat yoldaşına danışdı. Möminlərin anası Xədicə xanım, Varaqa bin Nofələ üz tutub, baş vermiş hadisəni izah etməsini istədi. O, əmisi qızını diqqətlə dinlədikdən sonra: *"Get həyat yoldaşına söylə ki, qorxmasın, bu əlamətlər onun peyğəmbərliyinə işarədir. Ona görünən Həzrət Cəbrayıldır; gətirdiyi isə, Allahın vəhyidir".*

Bəzi mənbələrdə qeyd edilir ki, Həzrət Məhəmməd Hira dağında baş verənləri Varaqaya anlatdıqda: *"Ya Məhəmməd, səni təbrik edirəm, Həzrət İsanın özündən sonra gələcəyini xəbər verdiyi Peyğəmbər sənsən. Sənə çox əziyyət verəcəklər. Çünki, peyğəmbərliyə yetişən kimsələrə qövmü arasından bir çox düşmənlər çıxmış-*

*dır. Kaşki, gənc olsa idim, Məkkədən çıxarıldığın zaman sənə xidmət və yardım edə bilsəydim"* - deyərək, Məhəmməd əleyhissalamı qucaqlayıb öpdü...

Tarix təkrar olunur. Yaşadığımız dövrə açıq gözlə baxsaq, görərik ki, o vaxt xristianlıqdan əsər-əlamət qalmadığı kimi, indi də İslamdan demək olar ki, əsər-əlamət qalmayıb. Mənəviyyatı saflaşdırmaq, şəxsiyyəti formalaşdırmaq üçün göndərilən İslam dini, bu gün açıq-aşkar mafiyalara xidmət etməkdə və dünyada müharibələrin, qətliamların, qarətlərin pərdələnməsi üçün bir alət rolunu oynamaqdadır. Nə qədər acınacaqlı da olsa, biz bunu (ürək ağrısı ilə) etiraf etməliyik. Dinin mafiyalaşmasından dolayı artıq elə bir mənzərə yaranıb ki, İslam deyəndə bəşəriyyətdə bir qorxu, xof yaranır. Danılmaz faktdır ki, bu gün valideynlərin böyük əksəriyyəti övladlarını məscidlərdən uzaq tutmağa çalışırlar.

Cəmiyyətə açıq gözlə baxdıqda, istər Şərqdə, istər Qərbdə, istərsə də Cənub və Şimalda yaşayan insan övladının bu və ya digər formada cahiliyyat içində yaşadığını görmək olur. Şərq insanı bu gün heykəllərə tapınırsa, Qərb insanı təsvirlərə, bütlərə, üçallahlılığa tapınır...

Yerin dörd bir tərəfində insan oğlu fani dünya malı üçün günahsız insanların qanını su kimi axıtmaqdadır. Bəşər tarixinə nəzər salsaq, görərik ki, insanlığın indiki qədər vəhşiləşdiyi bir dövrü olmamışdır. Bu da onu göstərir ki, bəşəriyyətin çox hissəsi artıq Ulu Yaradanın göndərdiyi heç bir dinə inanmır və onun qanunlarına tabe olmur.





Onu da qeyd etməliyəm ki, bəşər tarixində indiki vəhşilik və zülm heç bir zaman olmasa da, bu və ya digər formada dinsizlik, pozğunluq, Yaradanın qanunlarına sayğısızlıq dövrləri olmuşdur. Belə dövrlərin hamısında cəmiyyətin içərisindən bir nəfər Xilaskar (qurtarıcı) meydana çıxaraq, insanları doğru yola dəvət etmiş və sülhü, əmin-amanlığı bərqərar edərək, cəmiyyətdə nizam yaratmışdır.

Bu gün bəşəriyyət yenə də həmin dövrü yaşadığından, artıq yeni bir Xilaskarın (nizamlayıcının) meydana çıxmasına zərurət yaranmışdır.

Tarixdən məlumdur ki, hər bir Xilaskar (Peyğəmbər) öz dövrünün ən savadlı, bəsirətli adamı olub və insanları tamamilə yeni (dövrə, zamana uyğun) bir ideologiya ətrafında birləşdirərək, sülhə, barışa nail olub.

Elə isə, sual yaranır: Yeni Xilaskar bəşəriyyəti hansı ideologiya ətrafında birləşdirəcək ki, Yer üzündə axan qanlar dayansın? (Bugünə qədərki ideologiyaların - Musəvilik, İsavilik və İslam - iflasa uğradığı göz önündədir və bəşəriyyəti onların ətrafında birləşdirmək utopiyadır). Növbəti yazımızda bu suala cavab tapmağa çalışacağıq.

## BƏŞƏRİYYƏTİ KİM XİLAS EDƏCƏK?

Yuxarıda qeyd etdiyimiz kimi, bəşəriyyət elə bir mərhələyə gəlib çatıb ki, artıq bir millət digər millətə, bir dinin nümayəndəsi digər dinə inanana, bir təriqətə tapınan, başqa təriqətə qulluq edənə düşmən kimi baxır və onu məhv etmək, talamaq üçün qanlı qırğınlar törədirlər. Bu səbəbdən dünyada qan su yerinə axmaqdadır...

Qeyd etdik ki, tarixin bu kimi dönəmlərində həmişə xalqın içərisindən bir Xilaskar (Peyğəmbər) meydana çıxmış və bəşəriyyəti düşdüyü böhranlı vəziyyətdən xilas etmişdir.

Sual yaranır: Bəs indiki dövrdə dünyada axan qanları, məzlumların göz yaşlarını kim durduracaq?

Tarixə nəzər saldıqda görürük ki, hələ neçə əsr bizdən qabaq yaşamış bir çox kahinlər və münəccimlər bu dönəmdə meydana çıxacaq Xilaskar barədə xəbər vermiş, öz əsərlərində onun əlamətlərini göstərmişlər. Məsələn, məşhur kahin Nostradamus Yaxın Şərq mənşəli bir Mehdinin (Xilaskarın) Asiyada meydana çıxacağını və onun gəlişi ilə, Dünyanın 2016-2020 illər arasında Qızıl Çağa girəcəyini söyləmişdir. Məşhur kahin Xilaskardan kitabın onuncu dərsinin 75-ci dördlüyündə bəhs edərək söyləyir:





*“Uzun müddətdir gözlənilən adam heç dönməyəcək Avropaya;*
*Asiyada ortaya çıxacaq;*
*Hermesin birliyindən gələn biri;*
*Şərqin bütün krallarının üstündə səslənəcək”.*

Şifrə şərhçiləri bunu belə şərh edirlər: "Kahin “gözlənilən adam” dedikdə Mehdini (xristianlara görə İsanı) nəzərdə tutur, və Mehdi (Xilaskar) Asiyada ortaya çıxacaq".

Bəs xəbər verilən Xilaskar nə vaxt gələcək?

Şifrə təhlilçiləri bu tarixi "Qızıl Çağ" olaraq şərh edirlər. Təhlilçi Peter Pendiriyə döyüşlərin ardından insan oğlunun gözəllik və barışla tanış olacağı bu dövrün başlanğıc tarixini belə verir: 2016-2020-ci illər arası.

*"Pisliyin yaxşılıqla döyüşü" ilə əlaqədar Nostradamusun kral II Henriyə yazdığı məktubu araşdıran Pendiriyə məktubun son sətirlərinə diqqət çəkir: “Bu gün, bu gün və bir az zaman sonrası yox olacaq. Bu uzun sürən dövrdən sonra, Saturnun səltənəti, Qızıl Çağ yenidən başlayacaq. Qullarının ağrısını hiss edən Yaradan, Şeytanı dibsiz quyunun dərinliklərinə atacaq. Daha sonra Allah ilə insan arasında universal bir sülh başlanacaq. Və Şeytan illər boyunca orada bağlı qalacaq. Və daha sonra bağlarından qurtulacaq”.*

Burada diqqət çəkən məqamlardan biri üçüncü sətirdə Xilaskarın “Hermesin birliyindən gələn biri” kimi xəbər verilməsidir.

Bildiyimiz kimi, Hermes Misir mifologiyasında

“Tanrının mesajçısı”dır. Yəni, Nostradamus Asiyada ortaya çıxacaq bu liderin əslində Orta Şərq - Misir tarixinə bağlı olacağını bildirmiş olur.

Araşdırmalarımız göstərir ki, “Hermes” Misir dilində İdris Peyğəmbərin adıdır.

Məlum olduğu kimi, İdrisin əsl-nəsəbi dörd nəsillə Şis Peyğəmbərə yetişir. İbn Əsir yazır ki, Adəm dünyadan gedəndə İdrisin 368 yaşı vardı. Onun ibri dilində adı Xunux, ərəbcədə isə, Uxnux kimi tələffüz olunur. Bəzi tədqiqatlara görə, Yunan hikmət alimləri onun adını Hirmisül, yaxud, **Həkim Hirmis** qoymuşlar. Hirmis ərəbcə olub, yunanca “İrmis”, "Merkuri ulduzu" mənasındadır. Onun anadan olduğu şəhəri bəziləri Babil, bəziləri isə, qədim Misirin paytaxtı Mənəf şəhəri adlandırırlar.

Nübüvvət mənsəbi Əbul-bəşər Adəm və onun övladı Şisdən sonra bütün xüsusiyyətlər, İsmi-əzəm və vəsiyyətnamə ilə ona yetişdi. Əbdül Vəhhab Nəccarın "Qisəsül-ənbiya" kitabında İdrisin Misirə gəlməsi, orada məskunlaşması və camaatı haqqa dəvət etməsi yazılır. Əlavə edilir ki, o dövrün camaatı yetmiş iki dildə danışırdılar və Allah-taala bütün bunları ona öyrətdi. İdris də siyasət, şəhər idarəetmə və ölkə qayda-qanunlarını camaata öyrətdi. Həmçinin şəhərsalma yollarını da onlara öyrətdi. Bunun nəticəsində yer kürəsində 188 şəhər salındı və onların ən kiçiyi Rəha şəhəri idi.

İdris camaatı Allahın dininə, yeganəliyinə və Ona ibadət etməyə dəvət edərək deyirdi: *"Bu dünyada yaxşı, saleh əməl axirətdə Onun əzabından qurtuluşa səbəbdir".*





O, camaatı dünyada zöhdlə yaşamağa və ədaləti bərqərar etməyə çağırırdı. Həmçinin, onları müəyyən vaxtlarda namaz qılmağa, müəyyən günlərdə oruc tutmağa, düşmənlərə qarşı cihad etməyə, zəkat verməyə, zəiflərə kömək etməyə, cənabətdən paklığa, it və donuz kimi heyvanlardan çəkinməyə, məstedici içkilərdən uzaq olmağa və s. kimi haram şeylərdən çəkinməyi əmr edirdi. Onlar üçün bəzi bayramlar da təyin etmişdi ki, onlarda qurban kəssinlər. O, özündən sonra gələn peyğəmbəri müjdə verib onun nişanələrini camaata çatdırdı və camaatı üç təbəqəyə - kahinlər, əmirlər və rəiyyətə böldü.

Tarixdə İdris peyğəmbərin ən böyük peyğəmbərlərdən olması və Allah-taalanın bütün mənəvi, zahiri və batini nemətləri onda toplaması qeyd olunur. Nübüvvət mənsəbindən əlavə, zahirdə də qüdrət və əzəmətə çatması, camaatın ona hökmran kimi itaət etməsi və böyük hörmətlə yanaşması yazılır.

Belə rəvayət olunur ki, İdrisin dövründə zalım bir padşah yaşayırdı. O zorla camaatın əkin sahələrini və mal-dövlətlərini əlindən almışdı. Onun gözəl bir qadını var idi və işlərini onunla məsləhət edir, onun dediyi ilə rəftar edirdi. Bir gün zülmləri səbəbindən İdrisin nifrətinə giriftar oldular. Padşah özü, o gözəl qadını və bütün tabeçiləri naümid oldular. İllər boyu camaata qıtlıq üz verdi...

Tarixi mənbələrdə xəbər verilir ki, "İdrisin boyu hündür, sinəsi geniş, səsi alçaq, danışığı sakit və yeriyəndə addımlarını qısa atırdı... O, paltar tikən ilk şəxs idi və hər vaxt iynə vuranda Allaha təsbih edir, onun böyüklüyünü və birliyini xatırladırdı. Hər gün camaatın yaxşı əməl etməklərinə baxmayaraq onun əməlləri asimana qalxırdı".

O dövrdə mələklər yerə enib camaatla əl verib salamlaşır və söhbət edirdilər. Bu, onların saleh, pak və layiqli bəndə olmalarından irəli gəlirdi. Bu vəziyyət Həzrət Nuha qədər davam etdi. Ondan sonra artıq camaat mələkləri görmədilər.

İmam Sadiq (ə) Səhlə məscidinin fəziləti barəsində buyurur: "Hər vaxt Kufəyə getdiniz, hökmən Səhlə məscidinə gedib namaz qılın və Allahdan öz istəklərinizi diləyin, çünki, Səhlə məscidi İdris Peyğəmbərin evi idi və orada dərzilik edib namaz qılardı".

Sual yaranır: Bütün dinlərin, kahinlərin, öngörücülərin xəbər verdikləri Xilaskarı (Mehdini, Pangeyisti) Nostradamus niyə İdris Peyğəmbərə bağlı olacağını xəbər verir?

Tarixi mənbələrdə onun İdris adlandırılması həddən artıq dərs və kitabla məşğul olması ilə əlaqədardır. Tarix və rəvayətlərə görə ilk yazı yazan, paltar tikən və dərzilik öyrədən şəxs İdris idi. Ondan qabaq insanlar özlərini heyvan diriləri ilə örtürdülər. O, bir çox elmlərin - nücum (münəccimlik), hesab (cəbr), həndəsə, heyət (astronomiya) və s. elmlərin mənşəyi və ilk müəllimi hesab edilir. İdris bunları heç yerdən oxumurdu (çünki o dövrdə kitab yox idi), o, bunları elmi-lədun yolu ilə mənimsəyirdi. Yəni, Allahdan gələn vəhylərlə mənimsəyirdi və yazaraq insanlara öyrədirdi. Ona görə də bu elmlərin ilk mənbəyi İdris Peyğəmbər sayılırdı...





Müasir dövrdə meydana çıxacaq Xilaskarın da elm cəhətdən İdris əleyhissalama oxşaması onun elmi-lədun sahibi olacağına işarə verməklə, həm də İdris və ondan sonra gələn bütün peyğəmbərlərin missiyalarını davam etdirəcəyini bildirir...

### *Ruh kompyuter proqramı kimidir*

Elmi-lədun araşdırmalarımız ruhda sonsuz sayda funksiyalar olduğunu göstərir. Bunları açmaq qadağan olunduğundan, qısaca ruhun bir xüsusiyyətini izah etmək istərdik. Ruh bir missiyadır. Ruh, həm də, kompyuterə yüklənmiş proqrama bənzəyir ki, eyni proqramı iki kompyuterə yükləməklə o kompyuterləri eyniləşdirmək (eyni missiyanın daşıyıcısına çevirmək) mümkündür.

Bildiyimiz kimi, kompyuter insanın "alt kopyası" olaraq yaradılıb. "Alt kopiya"ları proqramlarla eyniləşdirmək mümkün olduğu kimi, "üst kopiya"ları (insanları) da ruhlarla (missiyalarla) eyniləşdirmək mümkündür (bu barədə bundan artıq yaza bilmərik).

Qısa olaraq onu bildirək ki, zühuru 2016 - 2020-ci illər arasında gözlənilən Xilaskar əslində İdris Peyğəm-

bərdən üzü bəri bütün peyğəmbərlərin (o cümlədən İsanın) və imamların (o cümlədən 12-ci İmam Mehdinin) missiyasının davamçısıdır. Eyni zamanda, onların elmilə (elmi-lədunla) yüklənmiş olacaq.

### *Mənə inanmayan axşam Aya baxsın*

Elmi-lədun bilgilərimiz göstərir ki, tarixi mənbələrdə xəbəri verilən Xilaskar Azərbaycanda meydana çıxacaqdır.

Sözlərimin doğruluğunu sübut etmək üçün Aydakı bir sirri sizə açmaq istəyirəm. Bu sirr, Ayın üzərində görünən “ləkə”lərlə bağlıdır. Bu “ləkə”lərin nəyə işarə olduğu indiyədək elmə məlum olmadığından, bu barədə dillərdə, ağızlarda daim əfsanələr, miflər dolaşmışdır. Elmi-lədun araşdırmalarımızla məlum oldu ki, bu “ləkə”lər əslində, bir vaxtlar mövcud olmuş **Pangeya**



adlı materikin xəritəsidir. Coğrafiya elmindən bilindiyi kimi, ilk yaranışda Yer kürəsi cəmi bir materikdən iba-





rət olub ki, onun da adı *Pangeya* olub. Həmin materiki əhatə edən okean isə *Pantalas* adlanıb...

Zaman keçdikcə, həmin Pangeya materiki əvvəlcə iki hissəyə, sonra isə, altı hissəyə bölünüb.

Göründüyü kimi, ilk yaranışda Yer kürəsi bütöv olmuş, əsrlər keçdikcə, parçalanaraq indiki halına gəlmişdir. Necə ki, insanlar əvvəlcə bir atadan, bir anadan doğulduqdan sonra, millətlərə, xalqlara parçalandılar; daha sonra irqlərə, dinlərə, təriqətlərə... bölündülər və indiki parçalanmış hallarına gəldilər.

Həmin eyni atanın və ananın övladları artıq biri-birlərinə düşmən kəsilərək, bir xalq digərinin, bir din o birinin, bir təriqət digər təriqətin qanını içməyə hazırdır və içirlər də!

Bütün bunların qarşısın almaq, insanları din və digər mafiyaların əsarətindən qurtarmaq üçün yaxın dövrdə **Pangeizm** ideyası yenidən doğularaq, dünyaya yayılacaq və insanlara elmlənməyi, Kainatı və yaradılışı dərk etməyi tövsiyə edəcək. 2020-ci il ərzində *pangeistlərin* təbliğatı bütün dünyaya yayılacaq və insanlar öz əvvəlki hallarına - birlik və sülh hallarına qayıdacaqlar.

***“Pangeoist”*** sözünün mənşəyi, ***“Pan os”*** - *“tam”, “bütöv”, “kök” (özül); “geo” - “Yer”* mənası verməklə, *“bütöv Yer”* mənasını bildirir. Bu ideyanın daşıyıcıları ***pangeistlər*** adlanır.

***“De: 'Ey insanlar! Artıq Rəbbinizdən sizə haqq*** *(Peyğəmbər)* ***gəlmişdir. Doğru yolu tutan özünə sa-***

***vab, doğru yoldan azan isə, özünə günah qazanar. Mən sizə zamin deyiləm!'*** *Quran, 10:108.*

Oxucuda sual yaranacaq ki, yeni Xilaskar və onun ardıyca gedənlər dinsizmi olacaqlar?

Əlbəttə ki, yox! Onlar Yaradanın birliyini qəbul edəcəklər. Öz fəaliyyətlərində elmə, əxlaqa, halallığa və dürüstlüyə - bir sözlə, bəşəri dəyərlərə üstünlük verəcəklər. Sadəcə, indi mövcud olan (mafiyaların nəzarətində olan) heç bir ibadətgaha getməyəcəklər və özləri də heç bir ibadətgah yaratmayacaqlar. Onlar yuxarıda qeyd etdiyimiz kimi, Allahın təkliyini, hər yerdə olduğunu qəbul edəcəklər. Bu səbəbdən onların inancı daha çox bütün kitab verilmiş peyğəmbərlərin babası olan İbrahim Peyğəmbərin təbliğ etdiyi Tovhidə (tək Allahlığa) uyğun gələcəkdir. Bildiyimiz kimi, Tovhid bütün dinlərin mənbəyi, başlanğıcıdır (həmin vaxt ibadətgah olmayıb).

Beləliklə, yeni Xilaskar həm millətləri, həm də dinləri ilkin mənbəyinə, başlanğıcdakı halına gətirəcəkdir ki, bu da insanlar arasında sülhün, əmin-amanlığın yaranmasına və pozulmuş nizamın bərpa olmasına səbəb olacaqdır...

Yeni Xilaskar insanlara təbliğ edəcək ki, insan öz taleyini əslində özü (öz əməllərilə) yazır. Yəni, bu il ərzində insanlara etdiyiniz yaxşılıq (yaxud pislik) alnınıza yazılır və növbəti ildə həmin şeylər bu və ya digər formada özünüzə qayıdır... Odur ki, ona inananlar daim yaxşılıq edib, yaxşılıq da görəcəklər.





Yeni Xilaskara inananlar gün ərzində beş dəfə Yaradanı zikr edib (yada salıb) beş dəfə də ətrafdakı insanlara yaxşılıq edəcəklər. Bununla da Yaradana olan ibadətləri (sözdə və əməldə) tamamlanmış olacaqlar. Bütün bunları təklikdə və yalnız Yaradan xatirinə edəcəklər.

*Şübhəsiz ki, oxucuda bir sual da yaranacaq: "Bəşəriyyət pangeizm ideyası ətrafında birləşib, vahid hala gəldikdən sonra ictimai quruluş necə olacaq? Kapitalizm, sosializm, yoxsa kommunizm olacaq?"*

Mənə məlum olan odur ki, gələcəkdə bəşəriyyət bu quruluşların heç birində yaşamayacaq. Gələcək quruluşun adı **İnformasionizm** olacaq. Bu quruluşda əsas məsələ məlumat olacaq. Düzgün məlumat hər şeydən qiymətli olacaq.

Hakimiyyət quruluşu isə, **Meritokratiya** olacaq. *"Meritokratiya"* - savadlıların və ağıllıların hakimiyyəti deməkdir. Yəni, pangeyizmdə insanlara mənsub olduqları partiyaya görə deyil, malik olduqları savada, ağıla görə yanaşılacaq.

Onu da bildirim ki, həmin vaxt insanlarda elm çox güclü inkşaf edəcək və digər planetlərdə yaşayan canlıların elminə yaxın, bəlkə də onlardan da çox olacaq.

Həmin dövrdə mədəniyyət və incəsənət də indikindən güclü inkişaf edəcəkdir. Belə ki, tikilən binalar insanlara, heyvanlara və ağaclara bənzəyəcəkdir.

Yəni, memarlıq o qədər güclü inkişaf edəcək ki, istənilən görkəmli adama bənzəyən, sevdiyiniz heyvana,

yaxud, xoşladığınız ağaca, gülə bənzər binalar sifariş edib, tikdirə biləcəksiniz.

### *Pangeizmdə kimlər müqəddəs sayılır?*

Pangeizmə görə insan daim yaxşılıq etməlidir – son nəfəsinə kimi! Pangeist öləndə də mütləq orqanını başqasına bağışlamalıdır! Pangeistin dirisi fayda verdiyi kimi, ölüsü də insanlar üçün faydalı olmalıdır!

Pangeizmə görə, yaxşılığa çalışan, xeyirxahlıq edən hər bir şəxs müqəddəs sayılır.

Dünyanı nə sevgi, nə gözəllik, nə də din xilas edəcək! Dünyanı ancaq və ancaq yaxşılıq xilas edəcək! **Yaxşılıq et, sən də müqəddəslərdən ol!**

Hər adama da yaxşılıq etmək olmaz. Yaxşılığın qədrini bilənlərə, dürüst insanlara yaxşılıq etmək ən məqbul olandır. Həm də, yaxşılığı yerinə görə edənlərdən olun. Biri var bulağın başında olan bir adama ehtiyacı olmadığı halda bir cam su verəsən, biri də var səhradakı adama bir qurtum su verəsən. Səhrada verilən bir qurtum su, bulağın başında verilən bir cam sudan sənə daha çox hörmət gətirər.

***"Ey kitab əhli! Peyğəmbərlərin ardı-arası kəsildiyi bir dövrdə: "Bizə nə bir müjdə verən, nə də bir** (Allahın əzabı ilə) **qorxudan kimsə gəldi", - deməməyiniz üçün sizə Peyğəmbərimiz gəldi. Artıq sizə müjdə verən və sizi qorxudan** (xəbərdarlıq edən) **şəxs gəlmişdir. Allah hər şeyə qadirdir!"*** "Süfrə" surəsi, 19-cu ayə.





## ASTRONOMİK HADİSƏLƏR NİYƏ 858 GÜNDƏN BİR TƏKRARLANIR?

Elmi-ladun yolu ilə astronomik hadisələrin monitorinqini apararkən maraqlı faktlarla qarşılaşdım. Məlum oldu ki, bütün Günəş və Ay tutulmaları **858** günün tamamında təkrarlanır. Sual yaranır: niyə məhz **858**? Suala cavab tapmaq üçün "Quran"ın səhifələrinin sayında olan hikmətə birlikdə nəzər salaq.

Əvvəlcə onu qeyd edim ki, "*Quran*"ın orijinalı **286** səhifədən ibarətdir. Yəni, XVIII əsrə qədər (ərəb ölkələrində İslama baxış dəyişənə qədər) çap olunan və Kəbədə, eləcə də dünyanın müxtəlif muzey və kitabxanalarında saxlanılan bütün "*Quran*" kitabları **286** səhifəyə yerləşdirilib.

Araşdırmalarımız göstərir ki, bu, təsadüf olmayıb, xüsusi bir qanunauyğunluğa tabedir. Bu qanunauyğunluq isə, özünü aşağıdakı hikmətlərdə büruzə verir:

1) "*Quran*"da təsbit olunmuş İslamın iki böyük bayramı – **Qurban** və **Ramazan** bayramları arasında qalan günlərin sayı bir qayda olaraq, (Qurban bayramından sayılmaqla) **286** gündür.

2) İnsan ana bətnində **286** günə yaranır. Belə ki, cütlüklər görüşəndən sonra, toxumun ana bətninə çatması **6** gün + bətndə normal inkşaf **280** gün = **286** gün.

Deməli, uşaq ana bətnində “*Quran*”ın hər səhifəsinə bir gün hesabı ilə qalır.

3) İnsanlar ən çox Günəş və Ay (Qəməri) təqvimindən istifadə etməklə, ildə iki dəfə təqvim dəyişməsini qeyd edirlər: 21 martda və 31 dekabrda. Bu iki bayram arasında qalan günlərin sayı da (Novruz bayramından sayılmaqla) bir qayda olaraq **286** gündür.

4) Quranın 2-ci surəsi olan ***“İnək”*** surəsinin də **286** ayədən ibarət olması təsadüfi deyildir. Belə ki, inəyin **286** sümüyün birləşməsindən yaranmasını artıq elm də təsdiq etmişdir.

“Quran”ın əsas mahiyyəti günahlara görə insanın TÖVBƏ etməsidir ki, bu da üç dəfə deyilir (həmçinin, insan “Quran”a and içərkən andı üç dəfə təkrarlayır). Bunu riyazi dilə çevirsək: 286; 286; 286. Bunları topladıqda isə, **858** ədədi alınır:

**286 + 286 + 286 = 858**

“Quran”da qiyamətin əlaməti kimi göstərilən (və insanları tövbəyə çağıran) Günəş və Ay tutulmalarının bir-biri ilə bu kitabın səhifələrinin üç misli olan **858** (!) ədədi ilə bağlanması da məhz bununla əlaqədardır. Yəni, Allah-taala astronomiya elmi ilə “Quran”da xəbər verdiyi axirət (qiyamət) gününü insanların yadına salır və tövbə etməyin vacibliyi mesajını kodlaşdırılmış formada cəmiyyətə ötürür. Bunu sübut edən və astronomiya elmində etdiyimiz ən böyük kəşflərdən olan iki cədvəli növbəti səhifədə diqqətinizə çatdırırıq (cədvəldən görəcəksiniz ki, bütün tutulmalar (Günəş və Ay tutulmaları) **858** gündən bir təkrarlanır):





**858 gün fərqlə baş verən Ay tutulmalarının cədvəli**

| Əsrin ilk tutulması | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|---|---|---|
| 09.01.2001 | 858 | 16.05.2003 | | | | |
| 05.07.2001 | 858 | 09.11.2003 | 858 | 14.03.2006 | | |
| 30.12.2001 | 858 | 05.05.2004 | 858 | 07.09.2006 | | |
| 24.06.2002 | 858 | 28.10.2004 | 858 | 03.03.2007 | 858 | 07.07.2009 |
| 24.04.2005 | 858 | 28.08.2007 | 858 | 31.12.2009 | | |
| 17.10.2005 | 858 | 21.02.2008 | 858 | 26.06.2010 | | |
| 16.08.2008 | 858 | 21.12.2010 | 858 | 25.04.2013 | | |
| 09.02.2009 | 858 | 16.06.2011 | 858 | 19.10.2013 | | |
| 06.08.2009 | 858 | 10.12.2011 | 858 | 15.04.2014 | | |
| 04.06.2012 | 858 | 08.10.2014 | 858 | 11.02.2017 | | |
| 28.11.2012 | 858 | 04.04.2015 | | | | |
| 25.05.2013 | 858 | 28.09.2015 | 858 | 31.01.2018 | 858 | 5.06.2020 |
| 23.03.2016 | 858 | 28.07.2018 | 858 | **30.11.2020** | | |
| 16.09.2016 | 858 | 21.01.2019 | | | | |

***858 gün fərqlə baş verən Günəş tutulmalarının cədvəli***

| Əsrin ilk tutulması | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma | Aradan keçən günlər | Növbəti tutulma |
|---|---|---|---|---|---|---|
| 21.07.2001 | 858 | 23.11.2003 | 858 | 29.03.2006 | 858 | 01.08.2008 |
| 14.12.2001 | 858 | 19.04.2004 | | | | |
| 10.06.2002 | 858 | 14.10.2004 | | | | |
| 04.12.2002 | 858 | 08.04.2005 | | | | |
| 31.05.2003 | 858 | 03.10.2005 | 858 | 07.02.2008 | 858+858 | 13.09.2015 |
| 22.09.2006 | 858 | 26.01.2009 | 858 | 02.06.2011 | | |
| 19.03.2007 | 858 | 22.07.2009 | 858 | 26.11.2011 | | |
| 11.09.2007 | 858 | 15.01.2010 | 858 | 21.05.2012 | | |
| 11.07.2010 | 858 | 14.11.2012 | 858 | 20.03.2015 | | |
| 04.01.2011 | 858 | 10.05.2013 | | | | |
| 01.07.2011 | 858 | 03.11.2013 | 858 | 09.03.2016 | | |
| 29.04.2014 | 858 | 01.09.2016 | 858 | 06.01.2019 | | |
| 24.10.2014 | 858 | 26.02.2017 | 858 | 02.07.2019 | | |
| 11.08.2018 | 858 | **14.12.2020** | | | | |





## 2020-ci İLİN GÜNƏŞ TUTULMALARI BƏŞƏRİYYƏTƏ HANSI MESAJLARI ÖTÜRÜR?

***"Məgər göylərdə və yerdə olanların Günəşin, Ayın və ulduzların, dağların, ağacların və heyvanların*** *(hamısının),* ***insanların isə, bəzilərinin Allaha səcdə etdiyini görmürsənmi?"*** *"Quran", "Həcc" surəsi, 18*

Günəş tutulmalarında diqqətçəkən məqamlardan biri, onların **29** ədədi altında baş verməsidir. Bu ədədin mənasını şərh etməzdən öncə, tərtib etdiyimiz cədvəli diqqətinizə çatdırırıq:

| SN | Günəş tutulmasının baş verdiyi tarixlər | |
|---|---|---|
| | **Günəş təqvimi ilə** | **Ay təqvimi ilə** |
| 1 | 21 iyul 2001 | 29 rəbiül axır |
| *2* | *14 dekabr 2001* | *29 ramazan* |
| 3 | 10 iyun 2002 | 29 rəbiül əvvəl |
| *4* | *4 dekabr 2002* | *29 ramazan* |
| 5 | 3 aprel 2003 | 29 məhərrəm |
| 6 | 31 may 2003 | 29 rəbiül əvvəl |
| *7* | *24 noyabr 2003* | *29 ramazan* |
| *8* | *19 aprel 2004* | *28 səfər* |
| *9* | *14 oktyabr 2004* | *29 şaban* |

| | | |
|---|---|---|
| *10* | *8 aprel 2005* | *28 səfər* |
| *11* | *3 oktyabr 2005* | *29 şaban* |
| *12* | *29 mart 2006* | *28 səfər* |
| *13* | *22 sentyabr 2006* | *29 şaban* |
| *14* | *19 mart 2007* | *28 səfər* |
| *15* | *11 sentyabr 2007* | *29 şaban* |
| 16 | 7 fevral 2008 | 29 məhərrəm |
| *17* | *1 avqust 2008* | *29 rəcəb* |
| 18 | 26 yanvar 2009 | 29 məhərrəm |
| *19* | *22 iyul 2009* | *29 rəcəb* |
| 20 | 15 yanvar 2010 | 29 məhərrəm |
| *21* | *11 iyul 2010* | *29 rəcəb* |
| 22 | 4 yanvar 2011 | 29 məhərrəm |
| *23* | *2 iyun 2011* | *29 cəmadiül axır* |
| *24* | *1 iyul 2011* | *29 rəcəb* |
| 25 | 25 noyabr 2011 | 29 zilhiccə |
| *26* | *21 may 2012* | *29 cəm axır* |
| 27 | 14 noyabr 2012 | 29 zilhiccə |
| *28* | *10 may 2013* | *29 cəm axır* |
| 29 | 3 noyabr 2013 | 29 zilhiccə |
| *30* | *29 aprel 2014* | *29 cəm axır* |
| 31 | 24 oktyabr 2014 | 29 zilhiccə |
| *32* | *20 mart 2015* | *29 cəm. əvvəl* |
| 33 | 13 sentyabr 2015 | 29 zilqədə |
| *34* | *9 mart 2016* | *29 cəm. əvvəl* |
| 35 | 1 sentyabr 2016 | 29 zilqədə |
| 36 | 26 fevral 2017 | 29 cəm.əvvəl |





| | | |
|---|---|---|
| 37 | 21 avqust 2017 | 29 zilqədə |
| 38 | 15 fevral 2018 | 29 cəm.əvvəl |
| 39 | 13 iyul 2018 | 29 şəvval |
| 40 | 6 yanvar 2019 | 29 rəb.axır |
| 41 | 2 iyul 2019 | 29 şəvval |
| 42 | 26 dekabr 2019 | 29 rəb.axır |
| 43 | 21 iyun 2020 | 29 şəvval |
| 44 | **14 dekabr 2020** | **29 rəb.axir** |
| | və s. | |

Cədvəldən göründüyü kimi, tutulmalar 355 günün (Ay təqvimi ilə bir ilin) tamamında təkrar baş verir (bu hal dörd dəfə təkrarlanır).

Gələn ilin Günəş tutulmalarının bizə ötürdüyü kodlaşdırılmış mesajları anlamaq üçün **29** ədədinin hikmətinə nəzər salaq.

Əvvəlcə qeyd edək ki, **29** ədədi Yer kürəsinə işarədir. Çünki, yerin insan yaşayan quru hissəsi **29** %-dir *(yeri gəlmişkən, bu hikmət insanın anatomik quruluşunda da özünü büruzə verir. Belə ki, insan anatomiyasında mövcud olan su ilə bərk cisim 29-un 71-ə nisbətindədir).*

Diqqətinizi daha bir məqama yönəldək ki, "Quran"ın **29**-cu surəsi "Hörümçək" adlanır və şər qüvvələrə, bugünkü mafiya və monopoliyalara işarədir. Bildiyimiz kimi, bu gün Yer kürəsinin 29 %-də yaşayan insanlar şər qüvvələrin, mafiyaların qurduqları hörümçək torunda çabalamaqdadırlar. "Qurani-Kə-

rim"də Günəş tutulması qiyamətin əlaməti olaraq qeyd edilir. XXI əsrdə bu əlamətin (tutulmanın) **29** ədədi altında baş verməsi artıq Yer əhlinə kodlaşdırılmış xəbərdarlıq kimi qəbul edilməlidir.

Sübut üçün bildirim ki, **29**-cu surə **69** ayədən ibarətdir. **69** ədədi isə "Haqq olan qiyamət" surəsinin sıra nömrəsi olduğundan, "Quran"da qiyamət rəmzi sayılır.

Son dövrlər diktatorların hakimiyyətə gəlməsini araşdıran tədqiqatçılar bir məqama xüsusilə diqqəti cəlb edirlər ki, onların bir çoxu hakimiyyətə **69** ədədi altında (69-cu ildə) gəlmişlər. Bu təsadüfdürmü?

"Quran" məntiqinə görə həyatda təsadüf yoxdur! Bəs onda **69** ədədi nəyə işarədir?

Yuxarıda qeyd etdiyimiz kimi, **69** ədədi "Haqq olan qiyamət" surəsinin sıra nömrəsi olduğundan, bu ədəd "Quran"da qiyamət rəmzi sayılır. Fironun prototipləri olan diktatorların da **69** ədədi altında hakimiyyətə gəlmələri və xalqları hörümçək kimi tora salaraq əsarətdə saxlamaları bizə qiyamətin yaxınlaşdığını xəbər verir.

Diktatorları təsadüfən hörümçəyə bənzətmədik. Burada da bir riyazi əlaqə vardır. Belə ki, "Hörümçək" surəsinin sıra nömrəsi 29 olmaqla, şər qüvvələrə, tor quranlara, müasir dildə desək mafiya və monopoliyalara işarədir. Maraqlıdır ki, **29**-cu surə məhz **69** (!) ayədən ibarətdir.

Bu fakt onu göstərir ki, **69**-cu və **29-**cu surələr həm mahiyyətcə, həm də riyazi yolla bir-birinə bağlanırlar.





Sübut üçün daha bir dəlil gətirim: **29** ədədi (29-cu ayə) müqəddəs kitabda məhz **69** dəfə keçir ("Quran" ın altmış doqquz surəsində 29-cu ayə var; qalan surələrdə ayələrin sayı 29-dan azdır).

Qeyd edək ki, **29** ədədi həm də, Yerin insan yaşayan (quru) hissəsinə işarədir. Fironun prototipləri olan diktatorların 69-cu ildə hakimiyyətə gəlməsi ilə 29 faizlik Yerdə zülmün əsası qoyuldu və mafiyalar bəşəriyyəti hörümçək kimi tora saldılar. Onların qurduqları dövlətlər də mafiya tipli dövlətlərdir (yaxud, dövlət tipli mafiyalardır).

Fərəhli haldır ki, elm və peyğəmbərlik əsri olan XXI əsr başlayandan bəri, bu hörümçək toru dağılmağa başlayıb və Yaradanın iradəsi ilə bu proses irəliləməkdədir. Bu da təsadüfi deyildir. Belə ki:

**29 x 69 = 2001**

Gördüyümüz kimi, bu hikmətli ədədlərin hasili XXI əsrin başlanğıcını göstərir. Xatırladaq ki, 21 ədədi "Peyğəmbərlər" surəsinin sıra nömrəsi olduğundan bu ədəd "Quran"da elm, kamillik və peyğəmbərlik rəmzi sayılır.

Diktatorların əsasən Şərq ölkələrində hakimiyyətə gəlməsini əsas götürən ateistlər bunu İslam dini ilə əlaqələndirmək kimi uğursuz cəhdlər edirlər.

Məsələyə açıq gözlə baxdıqda isə, bunun tam əksini görmək mümkündür. Yəni, 29 faiz Yerin hər tərəfin-

də zalımları hakimiyyətə gətirən, mafiya tipli dövlətləri yaradan və bu günədək onarın hakimiyyətini hər vəchlə qoruyub - saxlayan əslində qeyri müsəlmanlar - yəhudi və xaçpərəstlərdir. Bunu görmək üçün heç də yüksək savad tələb olunmur. Sadəcə, azacıq gözüaçıq olmaq yetərlidir.

2020-cu ilin Günəş tutulmalarının elmi-lədun təhlili göstərir ki, Ulu Yaradan yolun azmış, bəşəri dəyərlərdən uzaqlaşmış insanlara və onların rəhbərlərinə xəbərdarlıq edir ki, tövbə edib, doğru yola qayıtsınlar və bir-birlərinə zülm etməkdən çəkinsinlər. Əks halda xalqları və onların rəhbərlərini ağlasığmaz bəlalar gözləyir. Hesablamalarımız 2020-ci ildə mafiya tipli dövlətlərin dağılacağını və pangeizm dövrünün başlayacağını xəbər verir.

Dünyada baş verən və günü-gündən intensivləşən fəlakətlərə açıq gözlə baxsaq, yolunu azmış bəşəriyyətin necə cəzalandığını hər gün görə bilərik.

***"Elə isə onlardan ötrü tələsmə, çünki Biz onların günlərini bir-bir sayırıq".*** “Quran”, 19:84.

Söz ardı: 2020-ci ilin ən diqqət çəkən Günəş tutulması 14 dekabrda baş verəcək. Dünyanı büsbütün qaranlığa qərq edəcək bu tutulma öz miqyasına görə 1999-cu ilin avqustunda baş vermiş tutulmanın eyni olacaqdır. Həmin ildə bu cür tutulmadan sonra Dünyanı dağıdıcı zəlzələlər bürüdüyündən, **99**-cu il bəşər tarixinə *“Zəlzələ ili*” kimi düşdü. Maraqlıdır ki, “Quran”ın *“Zəlzələ”* surəsi də məhz **99** (!) ədədi ilə nömrələnib.





## 2020-ci İLİN AY TUTULMALARI BƏŞƏRİYYƏTƏ BU MESAJLARI VERİR

Elmi-ladun araşdırmalarımız göstərir ki, bütün Ay tutulmaları bir qayda olaraq Hicri-qəməri təqvimi ilə ayın **14**-də baş verir. Bununla Yerə hansı kodlaşdırılmış informasiyanın ötürüldüyünü bilmək üçün **14** ədədinin hikmətlərinə nəzər salmaq kifayətdir. Öncə, Ay tutulmalarının cədvəlini hər iki təqvimlə diqqətinizə çatdırırıq:

| **SN** | **Ay tutulmasının baş verdiyi tarixlər** | |
|---|---|---|
| | **Günəş təqvimi ilə** | **Ay təqvimi ilə** |
| 1 | 10 yanvar 2001 | 14 şəvval |
| 2 | 5 iyul 2001 | 14 rəbiül axır |
| 3 | 30 dekabr 2001 | 14 şəvval |
| 4 | 26 may 2002 | 14 rəbiül əvvəl |
| 5 | 24 iyun 2002 | 14 rəbiül axır |
| 6 | 9 noyabr 2002 | 4 ramazan |
| 7 | 16 may 2003 | 14 rəbiül əvvəl |
| 8 | 9 noyabr 2003 | 14 ramazan |
| 9 | 4 may 2004 | 14 rəbiül əvvəl |
| 10 | 28 oktyabr 2004 | 14 ramazan |
| 11 | 24 aprel 2005 | 14 rəbiül əvvəl |
| 12 | 17 oktyabr 2005 | 14 ramazan |

| | | |
|---|---|---|
| 13 | 14 mart 2006 | 14 səfər |
| 14 | 7 sentyabr 2006 | 14 şaban |
| 15 | 4 mart 2007 | 14 səfər |
| 16 | 28 avqust 2007 | 14 şaban |
| 17 | 22 feval 2008 | 14 səfər |
| 18 | 17 avqust 2008 | 14 şaban |
| 19 | 9 fevral 2009 | 14 səfər |
| 20 | 7 iyul 2009 | 14 rəcəb |
| 21 | 6 avqust 2009 | 14 şaban |
| 22 | 31 dekabr 2009 | 14 mühərrəm |
| 23 | 26 iyun 2010 | 14 rəcəb |
| 24 | 21 dekabr 2010 | 14 mühərrəm |
| 25 | 15 iyun 2011 | 14 rəcəb |
| 26 | 10 dekabr 2011 | 14 mühərrəm |
| 27 | 4 iyun 2012 | 14 rəcəb |
| 28 | 28 noyabr 2012 | 14 mühərrəm |
| 29 | 25 aprel 2013 | 14 cəm. Axır |
| 30 | 24 may 2013 | 14 rəcəb |
| 31 | 19 oktyabr 2013 | 14 zilhiccə |
| 32 | 15 aprel 2014 | 14 cəm. Axır |
| 33 | 8 oktyabr 2014 | 14 zilhiccə |
| 34 | 4 aprel 2015 | 14 cəm. Axır |
| 35 | 28 sentyabr 2015 | 14 zilhiccə |
| 36 | 23 mart 2016 | 14 cəm.l axır |
| 37 | 16 sentyabr 2016 | 14 zilhiccə |
| 38 | 11 fevral 2017 | 14 cəm.əvvəl |
| 39 | 7 avqust 2017 | 14 zilqədə |





| | | |
|---|---|---|
| 40 | 31 yanvar 2018 | 14 cəm. əvvəl |
| 41 | 28 iyul 2018 | 14 zilqədə |
| 42 | 21 yanvar 2019 | 14 cəm.əvvəl |
| 43 | 17 iyul 2019 | 14 zilqədə |
| 44 | **10 yanvar 2020** | **14 cəm.əvvəl** |
| 45 | **5 iyun 2020** | **14 şəvval** |
| 46 | **6 iyul 2020** | **14 zilqədə** |
| 47 | **30 noyabr 2020** | **14 rəb.axir** |

Cədvəldən göründüyü kimi, elm əsrinin bütün Ay tutulmaları **14** ədədi altında baş verir. Sual yaranır ki, hər ayda 30 (29) gün olmasına baxmayaraq, niyə məhz 14-cü günləri Ay tutulub?

Xatırladaq ki, **14** ədədi "Quran"da “İbrahim” surəsinin sıra nömrəsi olmaqla, tarazlıq, balans rəmzi sayılır. Allah-taala bu surədə İbrahim Peyğəmbərin mənalı həyat yolundan söhbət açır və onun zülmə qarşı apardığı mübarizəni önə çəkir. Onun mübarizəsi o vaxta təsadüf edirdi ki, Yerdə xeyirlə şər arasındakı balans birincinin ziyanına pozulmuşdu. Allah həmin dövrdə pozulmuş balansı İbrahim əleyhissəlamın vasitəsi ilə bərpa etdi.

Hesablamalarımız göstərir ki, **14** ədədi Allahın Öz adına olan “Rəhmli Allah” surəsinə bağlanır və “Quran” da tarazlıq (balans) rəmzi sayılır. Bunu sübut etmək üçün bir düsturu diqqətinizə çatdıraq:

"Rəhmli Allah" surəsinin sıra nömrəsi (kodu) olan **55** ədədi “Quran”da **41** dəfə keçir (yəni, kitabın cəmi

qırx bir surəsində 55-ci ayə var. Qalan surələrdə ayələrin sayı əlli beşdən azdır).

Eyni zamanda **41**-ci ayə də müqəddəs kitabda əlli beş dəfə keçir ("Quran"ın cəmi əlli beş surəsində 41-ci ayə var).

Beləliklə, "Quran"da **55-**ci ayə **41** dəfə, **41**-ci ayə isə, **55** dəfə keçir. Tarazlığa (balansa) dəlalət edən bu faktı nəzərə alıb, 55 ədədindən 41 çıxsaq, alınan **14** ədədi "İbrahim" surəsinin sıra nömrəsini (kodunu) göstərir:

**55 - 41 = 14**

Bu düstur bir daha "Quran"ın düzülüşünün insan beyninin məhsulu olmadığını, fövqəladə bir elmlə düzüldüyünü təsdiq edir.

Ay tutulmalarının da **14** ədədi altında baş verməsinin sirri bu düsturda açılır. Belə ki, xeyirlə şər arasında tarazlığı pozan və zülmə üstünlük verən iqtidarlara Allah tərəfindən mesaj ötürülür ki, hədlərini aşmasınlar və Yerdə tarazlığı pozmasınlar. Əvvəlki yazılarımızda ortaya qoyduğumuz faktlardan da görünürdü ki, Yerdə baş verən bütün böyük zəlzələ və təyyarə qəzaları bir qayda olaraq riyazi şəkildə Ay tutulmalarına bağlanır. Bu da sübut edir ki, Ay tutulmaları əslində tarazlığı pozanlara gələcək bəlaların siqnalıdır.

Zülm edənlərdən və **14** ədədindən söhbət düşmüşkən, maraqlı bir tarixi faktı diqqətinizə çatdırım





ki, Məhəmməd Əleyhissalam dünyaya təşrif gətirən gecəsi zalım şah olan fars hökmdarı Nuşirəvanın sarayından **14** sütun uçdu. Hadisəni şərh etmək üçün saraya çağırılan münəccimlər və bilicilər uzun müzakirələrdən sonra belə qərara gəldilər ki, səmavi kitablar vasitəsi ilə xəbəri qabaqcadan verilən Peyğəmbər artıq dünyadadır. Onu da bildirdilər ki, Nuşirəvanın hakimiyyəti süqut edəcək və **14** padşah dəyişdikdən sonra, Sasanilər dövləti dağılacaq. Çox keçmədi ki, verilən proqnoz özünü doğrultdu və Sasanilər dövləti dağıldı. Bu müddətdə **14** dəfə saray çevrilişi oldu ki, hər bir padşahın hakimiyyəti cəmi bir neçə ay çəkdi...

Məlumdur ki, bəşər yaranandan, xeyirlə şər arasında həmişə balans olmuşdur. Tarixin elə mərhələləri də olmuşdur ki, xeyirlə şər arasında mövcud balans (birincinin ziyanına) pozulmuşdur. Peyğəmbərlər tarixini araşdırdıqda, məlum olur ki, onların zühuru da məhz belə məqamlarda baş verir. Yəni, Allah-taala xeyirlə şər arasında pozulmuş tarazlığı peyğəmbərlər vasitəsi ilə bərpa edir. Bu gün də Yerdə xeyirlə şər arasında tarazlığın pozulması göz önündədir. Artıq haqq-ədalət demək olar ki, qalmayıb. Yerdəki bu vəziyyət Yaradanın qəzəbinə səbəb olmuşdur! Elmi-lədun araşdırmalarımız göstərir ki, son vaxtlar baş verən təbii fəlakətlər, müəmmalı təyyarə qəzaları... məhz bu qəzəbin təzahürləridir. Astronomik hadisələrin elmi-lədun təhlili, pozulmuş balansı bərpa edəcək şəxsin də artıq aramızda olduğunu sübut etməkdədir.

Bütün bu və ya digər (açıqlanması məqsədəuyğun olmayan) məlumatları təhlil edərək, insanlara tövsiyə edərdik ki, özlərindən aşağılara zülm etməkdən, əziyyət verməkdən, pozğun həyat tərzi keçirməkdən çəkinsinlər.

***"Ey kitab əhli! Peyğəmbərlərin ardı-arası kəsildiyi bir dövrdə: "Bizə nə bir müjdə verən, nə də bizi bir*** *(Allahın əzabı ilə)* ***qorxudan kimsə gəldi" , - deməməyiniz üçün sizə Peyğəmbərimiz gəldi. Artıq sizə müjdə verən və sizi qorxudan*** *(xəbərdarlıq edən)* ***şəxs gəlmişdir. Allah hər şeyə qadirdir!"*** "Süfrə" surəsi, 19-cu ayə.





## ASTRONOMİK HADİSƏLƏRİN TƏYYARƏ QƏZALARINA TƏSİRİ

Son dövrlər demək olar ki, hər gün dünyanın müxtəlif ölkələrindən təyyarə qəzaları barədə xəbərlər sürətlə yayılmaqdadır. Bəşəriyyəti təşvişə salan bu qəzaların monitorinqini aparmaq qərarına gəldik. Heyrətamiz hesablamalar üzə şıxdı. Elmi-lədun araşdırmalarımız göstərir ki, qəzaya uğrayan təyyarələrin üzərindəki marka bir qayda olaraq Ay tutulmasından keçən günün sayını göstərir. Məsələn:

**1)** 30 dekabr 2001-ci il tarixdə baş verən Ay tutulmasının **727**-ci günü *(26.12.2003)* Afrikada "Boeing-**727**" təyyarəsi qəzaya uğradı. Həmin Ay tutulmasının **737**-ci günü isə, "Boeing-**737**" təyyarəsi qəzaya uğradı (03.01.2004).

**2)** 8 sentyabr 2006-cı il tarixli Ay tutulmasının **737**-ci günü Moskva - Perm marşrutu ilə uçan "Boeing **737-500**" markalı təyyarə qəzaya uğradı (14.09.2008). Bu qəzadakı sirri açmaq üçün markadakı ədədləri toplayaq: **737 + 500 = 1237.** Maraqlıdır ki, bu təyyarə qəzası 24 aprel 2005-ci il tarixdə baş verən Ay tutulmasının **1237**-ci günü baş verib.

**3)** 17 avqust 2008-ci il tarixli Ay tutulmasının **747**-ci günü Səudiyyə Ərəbistanında "Boeng-**747**" təyyarəsi qəzaya uğradı *(04.09.2010)*.

**4)** 2005-ci ilin dekabrın 23-də Bakıda "AN 140-100" markalı təyyarə qəzaya uğradı. Maraqlıdır ki, 2002-cü ilin də eyni tarixində (23 dekabrında), eyni saatında və hətta eyni dəqiqəsində eyni markalı ("AN 140-100") təyyarə İran ərazisində qəzaya uğramışdı. İranda və Azərbaycanda eyni oxşarlıqlarla baş verən qəzalar arasında 1098 gün fərq vardır ki, bundan da təyyarənin üzərindəki markanı çıxsaq "Quran"ın səhifələrinin üç misli olan **858** ədədi alınır:

**1098- 140 – 100 = 858**

**5)** 2004-cü ilin martın 4-də Bakıda baş verən "İL-**76**" qəzasının **76**-cı (!) günü Çində Azərbaycana məxsus daha bir "İL-**76**" təyyarəsi (18 mayda) qəzaya uğradı.

**6)** 2013-cü il 7 iyul tarixində Aerikada "Boenq-**777**" qəzaya uğradı. Araşdırmalarımız göstərir ki, bu qəza özündən əvvəlki qəzalarla riyazi yolla əlaqəlidir. Belə ki, bu qəza:

– özündən əvvəl Amerikada *(20 may 2011)* baş verən "Boeing **707**" qəzasının **777**-ci (!) günüdür.

– 10 dekabr 2011 tarixdə baş verən Ay tutulmasının **572**-ci günüdür ki, bu da "Quran"ın səhifələrinin iki mislidir:

**572 – 286 = 286**

– Hindistanda (22.05.2010) baş verən "Boeing-





**737**" qəzasının **1144**-cü günüdür ki, bu da **286** ədədinin dörd mislidir: **1144 : 4 = 286**

- Londonda (17 yanvar 2008) baş verən "Boeing-**777**" qəzasının 2002-ci günüdür ki, bu da **286** ədədinin **7** mislidir: **2002 : 7 = 286**

**7)** 8 mart 2014-cü il tarixdə Malayziyaya məxsus "Boeing-**777**" markalı təyyarə müəmmalı şəkildə yoxa çıxdı. Bugünədək axtarılsa da, nə təyyarədən, nə də içərisindəki 239 nəfər insandan bir xəbər yoxdur.

Hadisədə diqqət çəkən məqam, onun yenə də **858** ədədi ilə özündən əvvəlki qəzalara bağlanmasıdır. Belə ki, qəzadan **858** gün qabaq (01. 11. 2011) dünyada eyni gündə üç təyyarə qəzası baş verib. Bunlardan ikisi Türkiyə aeroportunda biri-biri ilə toqquşmuşdu. Biri isə Polşada yerə enərkən təkəri açılmadığından qəzaya uğramışdı.

Malayziyada baş verən sözügedən qəza əvvəlkilərdə olduğu kimi, Ay tutulması ilə də bağlanır. Belə ki, qəza baş verən gün 25 may 2013 tarixli Ay tutulmasının **286**-cı günüdür ki, bu da Quranın səhifələrinin sayını göstərir.

**8)** 17 avqust 2008-ci il tarixli Ay tutulmasının **747**-ci günü Səudiyyə Ərəbistanında "Boeing-**747**" təyyarəsi qəzaya uğradı (04.09.2010).

**9)** 19 oktyabr 2013-cü il tarixli Ay tutulmasının **737**-ci günü Riqadan Brüsselə uçan "Boeing-**737**" markalı sərnişin təyyarəsi qəzaya uğradı *(26. 10. 2015)*.

**737 + 800 = 1537**

Maraqlıdır ki, bu hadisənin 1537-ci (!) günü - 8 yanvar 2020-ci il tarixdə Tehran – Kiyev reysi ilə uçan "Boeing-737-800" markalı təyyarə qəzaya uğradı və göyərtəsindəki 172 nəfər insan həlak oldu.

**10)** 2015-ci ilin noyabr ayın 15-dən 16-na keçən gecə Tehrandan Bakıya uçmalı olan "Aerbus-**319**" sərnişin təyyarəsində nasazlıq yarandığından uçuş təxirə salındı və bir gün ləngidi. Həmin gün ilin **319**-cu (!) günü idi ki, bu da təyyarənin üzərində həkk olunub.

**11)** 25 may 2013-cü il tarixli Ay tutulmasının **737**-ci günü Moskvanın "Domodedovo" hava limanına enən "Boeing-**737**" təyyarəni ildırım vurdu (30 may 2015).

**12)** 12 may 2015-ci il tarixdə ABŞ-ın Los-Anceles şəhərində "Bombardier CKJ-**200**" sərnişin təyyarəsi qəza enişi edən gün Ay tutulmasının (19. 10. 2013) **200**-cü günü idi.

**13)** 24 aprel 2015-ci il tarixdə Türkiyədə "A-**319**" və "A-**320**" təyyarələri havada olarkən qəza keçirdilər və məcburi eniş etdilər. Həmin gün ilin **114**-cü günü idi ki, bu da "Quran"ın surələərinin sayını göstərir.

**14)** 13 iyun 2015-ci il tarixdə Bakıdan Naxçıvana uçan "Boeing-**757**" təyyarəsində qəza vəziyyəti yarandığından, geri qayıdaraq, Bakıya qəza enişi etmək məcburiyyətində qaldı. Hadisə baş verən gün 25 oktyabr 2015-ci il tarixdə baş verən Günəş tutulmasının **228**-ci günü idi ki, bundan da Quranın surələrinin sayını (114) çıxanda, yenə də müqəddəs kitabın rəmzi olan **114** ədədi alınır:





**228 - 114 = 114**

Hadisə baş verən gün həmçinin, Moskvanın Vunukovo hava limanında baş verən "Boeing-**737**" qəzasının **757**-ci (!) günü idi.

**15)** Xatırladım ki, 11 iyun 2014-cü ildə Naxçıvana enən "Boeing-**757**" təyyarəsini ildırım vurduğundan ölən və yaralananlar olmuşdu. 15 iyul 2015-ci il tarixdə isə, Azərbaycana məxsus "Boeng-**747**" təyyarəsi Honkonq hava limanında qəza enişi etdi. Maraqlıdır ki, bu iki qəza arasında **400** gün fərq vardır. Elə isə: **400 - 286 = 114**

Bu təyyarə qəzası həmçinin, 21 may 2012-ci il tarixli Günəş tutulmasının **1144-cü** günüdür ki, bu da Quranın səhifələrinin 4 mislidir:

**1144 - 286 - 286 - 286 = 286**

Azərbaycan təyyarəsi Honkonqda qəzaya uğrayan gün həmçinin, 22 dekabr 2011-ci il tarixdə baş verən Ay tutulmasının **1665**-ci günüdür ki, bu da tövbə və cəza rəmzi olan **555** ədədinin üç mislidir:

**1665 - 555 - 555 = 555**

**16)** 8 noyabr 2015 tarixdə Rusiyanın Xabarovsk şəhərinin hava limanında "Boeing-**777**" təyyarəsi uçuş zolağında hərəkət edərkən "AN-26" markalı təyyarə ilə toqquşdu. Hesablamalarımız göstərir ki, bu qəza da

özündən əvvəl baş verən bir çox təyyarə qəzaları və astronomik hadisələrə bağlanır. Belə ki, bu qəza:

- 2013-cü il iyulun 7-də Amerikada baş verən "Boeing **777**" qəzasının **858**-ci günü baş verib ki, bu da **286** ədədinin 3 mislidir:

**858 – 286 – 286 = 286**

- Hindistanda (22.05.2010) baş verən "Boeing **737**" qəzasının **2002**-ci günüdür ki, bu da 286 ədədinin yeddi mislidir:

**2002 : 7 = 286**

- 15 aprel 2014-cü ildə baş verən Ay tutulmasının **572**-ci günüdür ki, bundan da **286** çıxanda yenə də müqəddəs kitabın səhifələrinin sayı alınır:

**572 – 286 = 286**

- 10 dekabr 2011 tarixdə baş verən Ay tutulmasının **1430**-cu günüdür ki, bu da "Quran"ın səhifələrinin 5 mislidir:

**1430 : 5 = 286**

- 6 avqust 2009-cu il tarixli Ay tutulmasının 2288-ci günüdür ki, bunu da səkkizə böləndə yenə də "Quran"ın səhifələrinin sayı alınmaqla, bəşəriyyətin diqqətini bu müqəddəs kitaba yönəldir:





**2288 : 8 = 286**

**17)** 17 noyabr 2013-cü il tarixdə Moskva-Kazan reysi ilə uçan "Boeing-**737**" qəzaya uğradı. Bundan **737** gün sonra *(22 noyabr 2015)* Qırğızıstanın Oş şəhərində "Boeing-**737**" təyyarəsinin qəza enişi etdi. Həmin gün, 29 aprel 2014-cü il tarixli Ay tutulmasının **572**-ci günü idi ki, bundan da müqəddəs kitabın səhifələrinin sayını çıxdıqda, yenə də **286** alınır və bəşəriyyətin diqqətini təkrar "Quran"a yönəldir:

**572 - 286 = 286**

Oxucuları yormamaq üçün siyahını çox uzatmıram. Dünyada baş verən bütün təyyarə, qatar, enerji qəzaları xüsusi bir qanunnauyğunluğa tabe olduğu göz önündədir. Bu qanunauyğunluğun isə, qiyamət əlaməti olan Günəş və Ay tutulmalarına eyni zamanda "Quran"a bağlanması bu hadisələrin əslində Yer əhlinə kodlaşdırılmış bir mesaj olduğu məlum olur.

## DÜNYADA BAŞ VERƏN ENERJİ QƏZALARININ ASTRONOMİK HADİSƏLƏRLƏ ƏLAQƏSİ

***"Rəbbim hər şeyi elmlə ehtiva etmişdir. Məgər düşünüb öyüd-nəsihət qəbul etmirsiniz?"*** *"Quran", "Davar" surəsi, 80.*

XXI əsrdə dünyada baş verən enerji böhranlarının monitorinqini apararkən çox maraqlı məqamlar üzə çıxdı. Oxucuların marağına səbəb olacağını nəzərə alıb, həmin maraqlı məqamları diqqətinizə çatdırmaq istəyirəm. Belə ki, enerji qəzalarını adi təqvim üzəriində sayarkən onların bir qayda olaraq "Quran"da tövbə və cəza rəmzi olan **555** ədədinə bağlandığını görmək olur. **555** ədədinin mənasını bilmək üçün əvvəlcə bir düsturu nəzərinizə çatdıraq.

"Quran"dakı rəqəmləri tədqiq edərkən, onun surələrinin və ayələrinin nömrələnməsində xüsusi bir qanunauyğunluğun olduğu üzə çıxır. Kainatın **dörd** cəhətdən, təbiətin **dörd** fəsildən ibarət olmasını, həmçinin insanın **dörd** ünsürdən yaranmasını və bu müqəddəs kitabın **dördüncü** səmavi kitab olmasını nəzərə alıb, "Quran"ın ilk **dörd** surəsindəki ayələri cəmləyək:

**7 + 286 + 200 + 176 = 669**

Qeyd edim ki, bu dörd surə bəşəri dəyərləri mülayimliklə təblig etdiyindən, **669** ədədi də "Quran"-da mülayimlik və yaxud bəşəri dəyərlər rəmzi sayılır.





Bu dəyərlərə əməl etməyənlərin necə cəzalanacağından bəhs edən surələr isə, **9** rəqəmi ilə gəlir (9; 19; 29; …109) və sayı 11 olan bu surələrdəki ayələri cəmləsək, **555** ədədi alınar. Bu ayələrə fikir versək, əsasən sərt ayələrdən ibarət olduğunu və **cəzadan** bəhs etdiyini görərik.

Elə isə, mülayimlik rəmzi olan **669** ədədindən sərtlik və cəza rəmzi olan **555** ədədini çıxaq:

**669 – 555 = 114**

Alınan **114** ədədi "Quran"ın surələrinin sayını göstərir. Düsturdan məlum olur ki, *bu müqəddəs kitabın mahiyyəti bəşəri dəyərlərin təbliğindən və bu dəyərlərə əməl etməyənlərin necə cəzalanacağından ibarətdir.*

***"Həqiqətən, Rəbbin insanların zülmünə baxmayaraq, onlara qarşı mərhəmət sahibidir. Və şübhəsiz ki, Rəbbinin cəzası da şiddətlidir!"*** *"Quran", "Göy gurultusu" surəsi, 6.*

Bu düstur bir daha təsdiq edir ki, "Quran"ın **114** surədən və 6.236 (altı min iki yüz otuz altı) ayədən ibarət olması, həmçinin, surələrin və ayərin düzülüşü insan beyninin məhsulu olmayıb, Allahın elmi və iradəsi ilə düzülmüşdür.

Bu hikmətə vaqif olduqdan sonra, qayıdaq enerji qəzalarının 555 ədədi altında baş verməinə:

**1)** 13 iyul 2002-ci ildə Azərbaycanda baş verən enerji böhranı bütün ölkəni qaranlığa qərq etmişdi. Həmin gün elm əsri olan XXI əsrin **555**-ci (!) günü idi.

**2)** Azərbaycanda daha bir enerji böhranı 29 yanvar 2006-cı ildə baş verdi. Bu böhran da astronomik hadi-

sələrə bağlanır. Belə ki, həmin gün 5 iyul 2001-ci il tarixli Ay tutulmasının **1665**-ci günündür ki, bu da **555** ədədinin üç mislidir:

**1665 - 555 - 555 = 555**

*(Həmin gün Danimarkada baş verən enerji böhranının 858-ci günü idi)*

**3)** 20 aprel 2006-cı ildə Azərbaycanda baş verən enerli böhranı Bakını qaranlığa qərq etməklə, metro da daxil bütün nəqliyyat və digər mühüm obyektlərin fəaliyyətini dondurdu. Həmin gün 14 oktyabr 2004-cü il tarixli Günəş tutulmasının **555**-ci günü idi.

***"And olsun ki, Allah bunları hesablamış və təkrar-təkrar saymışdır"*** *Quran, 19: 94.*

**4)** Bakıda növbəti enerji böhranı 6 iyul 2006-cı ildə baş verdi. Həmin vaxt bir çox vacib dövlət strukturları və mühüm obyektlər fəaliyyətini dayandırmaq məcburiyyətində qaldılar. Bu böhranın da əvvəlkilərin davamı olduğu və xüsusi qanunauyğunluğa tabe olduğu aşağıdakı hesablamalardan görünür:

- həmin qəza 14 dekabr 2001-ci il tarixli Günəş tutulmasının **1665**-ci günü baş verib ki, bu yenə də cəza rəmzi olan **555** ədədinin üç mislidir:

**1665 - 555 - 555 = 555**

- qəza həmçinin, 24 noyabr 2003 tarixli Günəş tutulmasının **955**-ci günü baş verib ki, bundan da “Quran”ın səhifələrinin və surələrinin sayını çıxdıqda yenə də **555** ədədi alınır:

**955 – 286 – 114 = 555**





**5)** Yadınıza salım ki, dünyanın diqqətini özünə cəlb edən enerji böhranlarından biri (ən böyüyü) də 2003-cü ilin avqustun 13-də Amerikada baş verdi. Həmin vaxt bir həftə ərzində iki dövlət (Amerika və Kanada) qaranlığa qərq oldu. Maraqlıdır ki, həmin gün elm və peyğəmbərlik rəmzi olan XXI əsrin **955**-ci günü idi. Elə isə, bundan "Quran"ın səhifələrinin (286) və surələrinin (114) sayını çıxsaq, yenə də tövbə və cəza rəmzi olan **555** ədədi alınır:

**955 – 286 – 114 = 555**

**6)** Xəbər verildiyi kimi, 31 mart 2015-ci il tarixdə Türkiyədə enerji böhranı baş verdi və ölkə gün ərzində qaranlığa qərq oldu.

Hesablamalarımız göstərir ki, bu hadisə də təsadüfi olmayıb, “Quran”da qiyamətin əlaməti kimi göstərilən astronomik hadisələrlə əlaqələnir. Bu əlaqə özünü yenə də TÖVBƏ və cəza rəmzi olan **555** ədədi ilə çox aşkar büruzə verir. Belə ki, Türkiyədəki enerji böhranı:

- 21 iyul 2001-ci il tarixli Günəş tutulmasının (qiyamət xəbərdarlığının) **4995**-ci günüdür ki, bunu da “Tövbə” surəsinin rəmzi olan **9**-a bölsək, cəza rəmzi olan **555** ədədinin alındığını görərik:

**4995 : 9 = 555**

- Həmin enerji böhranı baş verən gün 28 avqust 2007-ci il tarixdə baş verən Günəş tutulmasının **2775**-ci günüdür ki, onu da 5-ə böləndə yenə də **555** ədədi alınır və diqqətimizi yenə də "Quran"a və cəzadan bəhs edən ayələrə yönəldir:

**2775 : 5 = 555**

7) Azərbaycanda növbəti enerji böhranı 3 iyul 2018-ci il tarixdə baş verdi. Həmin gün ölkənin enerji, nəqliyyat, iqtisadiyyat və s. sektorlarında çökmə baş verdi. Əhali günlərlə qaranlıqda qaldı.

Elmi-lədun hesablamalarımız göstərir ki, dünyada baş verən digər enerji qəzaları kimi, bu qəza da təsadüfü baş verməyib. Hadisədə heyrətamiz bir riyazi qanunauyğunluq var və bu, Allahdan ciddi bir xəbərdarlıqdır! Bunun sübutu aşağıdakı hesablamalardan çox aşkar görünür:

- Xatırladım ki, 27 dekabr 2016-cı il tarixdə Səngəçal qaz terminalında (enerji nəqlində) partlayış baş verdiyindən, böyük bir yanğın meydana gəldi. Bu hadisə ölkədə həyəcan yaratdı. Burada diqqət çəkən maraqlı məqam ondan ibarətdir ki, 3 iyulda enerji sektorunda partlayış və yanğınlar baş verəndə, həmin qəzanın 555-ci (!) günü idi.

- Daha bir analoji hadisəni yada salaq: 23 sentyabr 2012-ci il tarixdə Siyəzəndə 36 KV-luq yarımstansiyanı ilddırım vurdu və yanğın baş verdi, bölgə qaranlığa qərq oldu... Həmin anda Hacıqabulda da yarımstansiyanı ildırım vurdu və yanğın baş verdi... bu səbəbdən Hacıqabuldan keçən bütün qatarlar gecə səhərədək yolda qaldılar. Bölgənin bütün rayonlarının yanğınsöndürənləri əraziyə cəlb olundular... Beləliklə həmin gecə ölkənin enerji və nəqliyyat sektorunda çökmə baş verdi. Maraqlıdır ki, həmin gecə enerji sektorunda baş verən yanğınlarla, 3 iyulda baş verən analoji yanğınlar biri-biri ilə 555 (!) ədədi altında bağlanır. Belə ki, hadisələr 1110 gün fərqlə baş vermişdir ki, bundan da tövbə və cəza rəmzi olan 555 ədədini çıxsaq, yenə də 555 alınar və bu da hadisənin bir xəbərdarlıq mesajı olması haqqında verdiyimiz xəbərin doğruluğunu bir daha təsdiq edir:

**1110 – 555 = 555**

- 3 iyul 2018-ci il tarixdə ölkəmizdə enerji qəzası baş verən gün, 4 iyun 2012-ci il tarixli Ay tutulmasının 2220-ci günüdür ki, bu da 555 ədədinin 4 mislidir:

**2220– 555 – 555 – 555 = 555**

- Daha bir analoji hadisə Tacikistanda baş vermişdir. Belə ki, 9 dekabr 2016-cı il tarixdə Tacikstanın enerji sektoru çökdüyündən, ölkə qaranlığa qərq oldu. Burada diqqətimizi belə bir məqam cəlb edir ki, bu hadisəylə 3 iyul enerji hadisəsi 572 gün fərqlə baş verib. Bundan "Quran"ın kodu (səhifələrinin sayı) olan 286 ədədini çıxsaq, yenə də 286 ədədi alınır və bu da hadi-

sənin Allah tərəfindən gözlənilən böyük bəlanın xəbərdarlığı olduğunu bir daha sübut edir:

**572– 286 = 286**

- Elmi-lədun araşdırmalarımız göstərir ki, 3 iyulda baş verən enerji həyəcanı Azərbaycanda baş verən zəlzələ həyəcanı ilə də riyazi şəkildə əlaqələnir. Belə ki, 2017-ci ilin 15 noyabrında ölkəmizdə 6 bal zəlzələ baş verdi. Bu iki həyacanlı hadisə arasında 228 gün fərq vardır ki, bundan da "Quran" rəmzi olan 114 ədədini çıxdıqda, yenə də surələrin sayı olan 114 ədədi alınır və bu da hər iki hadisənin əlaqəli olduğunu bir daha sübut edir:

**228--114 = 114**

Azərbaycanda baş verən 3 iyul enerji böhranının 555-ci günü (08.01.2020) Tehran-Kiyev relsi ilə uçan "Boeinq-737" təyyarəsi qəzaya uğrayaraq içərisindəki 170 nəfərdən çox insan həlak oldu (bu barədə təyyarə qəzaları barədə yazımızda bəhs etdik).

Beləliklə, Azərbaycanda və dünyada baş verən bu kimi sirli hadisələr yolunu azmış və bir-birinə manyakcasına zülm edən, işgəncə verməyi sevən insanların diqqətini "Quran"a və Allahın cəzasına yönəltməklə, xəbərdarlıq mesajlarıdır:





## ASTRONOMİK HADİSƏLƏR VƏ DAŞQINLAR

Yuxarıda qeyd etdim ki, Günəş tutulmalarının **29** ədədi altında baş verməsi "Quran"ın düzülüşündəki qanunauygunlugu təsdiq etməklə yanaşı, həm də Yerin İNSAN yaşayan **29** faiz hissəsinə işarədir. Elə isə sual yaranır ki, bəs yerin qalan **71** %-nə necə, xəbərdarlıq olunurmu? Bu sualın da cavabını tapmaq üçün elmi-ladun işıgında astronomiya elmini araşdırmaq qərarına gəldim və xoşbəxtlikdən əziyyətim hədər getmədi; sualın cavabını tapdım.

Qeyd edim ki, hələ astronomiya elmi yaranmamışdan qabaq kahinlər Günəş və Ay tutulmalarını əsrlər boyu qeydə almış və onların sayı üzərində təhlillər aparmışlar. Uzunmüddətli təhlillərdən sonra müəyyən olunmuşdu ki, astronomik hadisələr dövrlərə bölünür və hər dövr 18 il, 11 gün, 8 saatı (və yaxud 6585 sutkanı) əhatə edir. Sonradan astronomiya elmi yarandı və bu dövr "**Saros dövrü**" adlandırıldı.

Bir qayda olaraq hər "Saros dövrü"ndə **71** dəfə astronomik xəbərdarlıq (Günəş və Ay tutulması) baş verir. Bu **71** tutulmanın da bir qayda olaraq **28**-i Ay, **43-**ü isə Günəş tutulması olur.

Neçə minilliklərdir ki, dəyişməyən bu rəqəmlərin mənası (niyə məhz bu sayda olması) hələ ki, şərh olun-

mayıb (yəqin ona görə ki, indiyədək bu məsələyə “Quran” fonunda baxılmayıb).

Araşdırmalarımız zamanı məlum oldu ki, Allahın elminin sirrini məhz Özünün göndərdiyi kitabla – “Quran”la açmaq mümkündür. Belə ki, buradakı **71** ədədi Yerin dərya hissəsinə işarədir (yerin 71 %-i sudan ibarətdir). Dəryadan söhbət düşəndə isə gözlərimiz önünə ilk növbədə gəmi və Nuh gəlir. Təsadüfi deyil ki, ***«Nuh»*** surəsinin sıra nömrəsi də **71**-dir ki, bu da həm dəryalara, həm də “saros dövrü”ndəki **71** tutulmaya işarədir.

**71**-ci surə **28** ayədən ibarətdir ki, bu da «Saros dövrü»ndə olan **28** (!) ay tutulmasının açarıdır.

**71 – 28 = 43**

düsturu isə bir astronomik dövrdə **43** (!) dəfə baş verən Günəş tutulmasının açarıdır.

Buradan məlum olur ki, neçə əsrlərdir baş verən Günəş və Ay tutulmaları ilə Allah-taala insanlara əməllərinin nəticəsi olaraq onları gözləyən subasmaları xəbər verirmiş. İnsanların bu xəbərdarlıqlara məhəl qoymamasının və günahlardan çəkinməməsinin nəticəsidir ki, bu gün subasma halları (daşqınlar, qasırğalar və sunamilər) bütün dünyanı bürüyüb. Hamıya məlumdur ki, alimlərin hesablamalarına görə, daşqınların nəticəsində yaxın bir neçə ildə bir çox Avropa dövlətləri, həmçinin Amerika suyun altında qalacaq. Bunu hamı bilsə də, çox təəssüf ki, səbəbləri haqqında





düşünən yoxdur. Səbəblərini anlamaq üçün Həzrəti Peyğəmbərin zamanında baş verən bir əhvalatı diqqətinizə çatdırıram.

*Əbu Musa Əl-Əşari rəvayət edir ki, Peyğəmbərin (s.ə.v.) zamanında Günəş tutuldu. O, Qiyamətin qopduğunu zənn edib (!) məscidə gəldi və namaz qıldı. Namaz əsnasında qiyamı, rükunu və səcdəni uzatdı. Mən onun bu cür namaz qıldığını görməmişdim. Namaz qıldıqdan sonra dedi: «Allahın göndərdiyi bu rəmzlər, kiminsə ölümünə və doğulmasına görə deyildir. Lakin Allah bununla qullarını qorxudur. Belə olduğunu gördüyünüz zaman Allaha zikr və dua etməyə, Ondan bağışlanma diləməyə tələsin!» Səhihu-1– Buxari, 1044; Səhih Müslüm, 2114.*

***"Həqiqətən, Biz Nuhu: "Qövmünə şiddətli bir əzab gəlməmişdən əvvəl onları qorxut!" - deyə öz tayfasına peyğəmbər göndərdik. O dedi: “Ey qövmüm! Həqiqətən, mən sizi*** *(Allahın əzabı ilə)* ***açıq–aşkar qorxudan bir peyğəmbərəm».*** *Quran, “Nuh surəsi”.*

KİMYANIN
SİRLƏRİ

*Elmi-lədun işığında*



## ELEMENTLƏRİN DÖVRÜ SİSTEMDƏKİ DÜZÜLÜŞÜ İLƏ SURƏLƏRİN DÜZÜLÜŞÜ EYNİ PRİNSİPƏ MALİKDİR

İndiyədək ateistlər Allahın varlığını inkar etmək üçün darvinizm və dialektikanın qanunlarından istifadə ediblər.

Bu qanunun mahiyyətinə vardıqda isə, görürük ki, darvinizm nəinki "Quran"ı və Allahı inkar etmir, əksinə, onları təsdiq edir.

Belə ki, "Quran" bütün kainatı özündə əks etdirən səmavi kitabdır. Kainat isə kimyəvi elementlərin birləşməsindən yarandığından, bu müqəddəs kitabda surələrin düzülüşü ilə, elementlərin dövri sistemdəki düzülüşü arasında məntiqi bir uyğunluq vardır. Elmi-ladun araşdırmalarımız göstərir ki, həm "Quran"ın, həm də dövri cədvəlin düzülüşü böyük fəlsəfi əhəmiyyətə malikdir. Onların hər ikisi dialektik materializmin qanunlarını– sadədən mürəkkəbə, kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi, əksliklərin vəhdəti və mübarizəsi, inkarı inkar qanunlarını əks etdirir.

Belə ki, "Quran"ın əvvəlki surələri nə qədər mülayimdirsə, sıra nömrələri artdıqca surələr sərtləşməyə dogru gedir. Bu da sadədən mürəkkəbə və kəmiyyət dəyişikliyinin keyfiyyət dəyişikliyinə keçməsi qanunlarına uyğundur.

Dövri sistemdə bu hal dövrlərdə nömrələr artdıqca, metallıq xassəsinin azalıb, qeyri-metallıq xassəsinin artması ilə özünü göstərir.

Bundan başqa, surələr ikili xassə göstərir. Yəni onlar həm müsbət, həm də mənfi yüklə (vəhylə) yüklənmişdir ki, bu da dialektikanın əksliklərin vəhdəti və mübarizəsi qanununa uyğundur.

Mendeleyev cədvəlində bu hal eyni elementin ikili (həm müsbət, həm də mənfi) xassəyə malik olması ilə özünü göstərir.

(Yeri gəlmişkən, ikili xassəyə malik olma Allahın yaratdığı digər bioloji varlıqlar kimi, insanda da özünü aydın göstərir. Yəni, qarşılaşdığı adamdan asılı olaraq, hər bir insan, kimyəvi elementlər kimi, gah mənfi, gah da müsbət xassə nümayiş etdirir).

Buradan açıq-aşkar görünür ki, indiyədək Allahı inkar etmək üçün istifadə edilən dialektikanın qanunları, əslində Allahı və "Quran"ı təsdiq edir.

### *13 ədədi bütün elmlərdə həyəcan rəmzi sayılır*

"Quran"ın **13**-cü surəsi ***"Göy Gurultusu"*** adlanır. Göy gurultusunun enerji prosesi olduğu və həyəcan yaratdığı hamıya məlumdur. Surədə deyilir:

***"Göy gurultusu Onun şəninə təriflər deyir. O, ildırımlar göndərib*** *(kafirlər)* ***Allah barəsində mübahisə edərkən, onlara istədiyini vurar. Allahın cəzası şiddətlidir!"*** (13:13).





Maraqlıdır ki, **13** ədədindəki hikmət kimya elmində də özünü büruzə verir. Belə ki, Mendeleyev cədvəlindəki **13**-cü (!) element **Alüminiumdur.** Elektrik ötürmə qabiliyyəti yüksək olduğundan, alüminium energetika (!) sənayesinin özəyini təşkil edir.

**13** rəqəmi həm "Quran"da, həm də **fizikada** həyəcan rəmzi sayılır (göy gurultusu insanda da həyəcan yaradır). Təsadüfi deyildir ki, hidrogen atomunun enerji qəbul etməmiş (həyəcanlanmamış) yükü **13** EV-dur. Hidrogen atomu enerji qəbul etdikdə həyəcanlanır və yükünü ötürməklə boşalır.

İnsanlar arasında bəd xəbərin tez yayılması da həyəcanlanma ilə bağlıdır. Belə ki, bəd xəbərin enerji yükü mənfi olduğundan, onu qəbul edən insan həyəcanlanır və yükünü ötürməyə çalışır. Bu halı atomun və təbiətin həyəcanlanması (göy gurultusu) ilə müqayisə etdikdə, çox böyük oxşarlıq görünür. Həmçinin təbiət öz həyəcanını (yükünü) yağışla boşaltdığı kimi, insan da göz yaşı ilə boşaldır.

Həyəcanlanma ilə bağlı diqqətinizi başqa bir maraqlı məqama da cəlb etmək istəyirəm. Yəqin çoxlarınız fikir vermiş olar: insanda həyəcan yarananda bu həyəcana ilk reaksiyanı bağırsaq verir. Yəni, bağırsaqda kəskin sancı yaranır. **Biologiya** elmi təsdiq etmişdir ki, hər bir insanda bağırsağın uzunluğu **13** (!) metrdir.

Yeri gəlmişkən qeyd edim ki, Mendeleyevdən qabaq yaşamış bir çox kimya alimləri elementlərin dövri

cədvəlini yaratmağa çalışsalar da, ömürlərinin sonuna qədər buna nail ola bilməmişlər. Bu cədvəli necə kəşf etməsi barədə suala cavab verərkən, Mendeleyev bildirmişdir ki, cədvəl ona Bakıda olarkən, yuxuda vəhy yolu ilə göstərilmişdir. Səhər tezdən oyanan alim, ona yuxuda vəhy olunan cədvəli kağıza köçürmüşdür. Lakin cədvəldəki bəzi suallara nə özü, nə də ondan sonra gələn alimlər cavab tapa bilməmişlər. Nəzərinizə çatdırım ki, bu və digər kitablarımda oxuduğunuz kimyəvi hesablamalar da bu sətirlərin müəllifinə həmin yolla (Mendeleyevə öyrədilən kimi) öyrədildi və kimyaçılar indiyədək cədvəldə axtardıqları sualların cavabını məhz bu hesablamalarda tapa bilərlər...

### *16-cı element və 16-cı surə məhəbbət rəmzidir*

"Quran"ın **16**-cı surəsi **"Bal arısı"** adlanır. Qeyd edim ki, ana arı öz balasını **16** gün südlə bəslədiyindən, onun haqqında olan surə də **16** rəqəmi ilə nömrələnib. Sözügedən surədə arının misalında insanlara məhəbbət aşılanır: Bal–arının gülə olan məhəbbətinin nəticəsində yarandığı üçün həm Qərbdə, həm də Şərqdə məhəbbət rəmzi sayılır. Məhəbbət yandırıcı hiss olduğundan, bu söz **"yanmaq", "alovlanmaq"** sözü ilə yanaşı işlədilir. Bu hikmət kimya elmində də özünü eyni rəqəmlər altında büruzə verir. Belə ki, Mendeleyev cədvəlinin **16**-cı elementi olan kükürd məişətimizə **yandırıcı** bir vasitə kimi daxil olub. Həmçinin məhəbbət insana ya-





şamaq həvəsi, enerji (ruh) verdiyi kimi, kükürdün oksidləşməsindən yaranan sulfat turşusu da ($H_2SO_4$) akkumulyator istehsalında istifadə edilməklə, məişətimizə **enerji mənbəyi** kimi daxil olub.

Məhəbbətdə iki tərəf iştirak edir və biri olmadan o biri "yanmaz". Bu hal kimya elmində də özünü eynilə büruzə verir. Belə ki, **16**-cı element olan **Kükürd** atom kütləsi **16** (!) olan **Oksigensiz** yanmır. Ən maraqlısı da odur ki, Kükürdlə Oksigenin birləşməsində Kükürdün energetik səviyyələr üzrə elektronları **2 – 8 – 6** formasında yerləşir. Bunu da bütöv oxuduqda görürük ki, "Quran"ın səhifələrinin sayına işarədir ("Quran" nazil olandan ta XVIII əsrə qədər harada və nə vaxt çap olunmasından asılı olmayaraq **286** səhifədə yerləşdirilib; bu barədə növbəti fəsillərdə danışacağıq). Qeyd edim ki, **286** ədədinin əbcəd hesabı ilə cəmi (2 + 8 + 6) **16**-ya bərabərdir ki, bu da "Quran"ın insanlara məhəbbət aşıladığını bir daha sübut edir:

***"Sizin üçün onlarla ünsiyyət edəsiniz deyə, öz cinsinizdən zövcələr xəlq etməsi, aranızda dostluq, sevgi və mərhəmət yaratması da Onun qüdrət əlamətlərindəndir. Həqiqətən, bunda*** *(bu yaradılışda)* ***düşünən bir qövm üçün ibrətlər vardır!"*** *Quran, 30:21.*

Atom kütləsi **16** olan və yanmanı təmin edən Oksigenin sıra nömrəsini (8) Kükürdün məhəbbət rəmzi olan sıra nömrəsinə - **16**-ya vurduqda (8 x 16) alınan **128** ədədi **«Bal arısı»** surəsinin ayələrinin cəmini

göstərir və elementlərlə surələr arasında olan əlaqəni bir daha təsdiq edir.

Diqqətinizi bal arısında olan digər xüsusiyyətin insanlarda özünü göstərməsinə cəlb etmək istəyirəm. Yuxarıda qeyd etdim ki, bal arısı gözəllik rəmzi olan gülə məhəbbət bəsləyir və ancaq onlarla təmasda olur. Xatırladım ki, təbiətin gözəlliyi gül-çiçək olduğu kimi, cəmiyyətin də gözəlliyi qadınlardır. Arının gülə olan məhəbbətinin nəticəsində **bal** yarandığı kimi, insanın da (kişinin) qadına olan məhəbbətinin nəticəsində **bal**(a) yaranır və hər ikisi şirindir. Çünki ikisi də məhəbbətdən yaranır. **"Bala baldan şirindir"** məsəli də məhz bu hikmətdən doğur. Allah bal arısını həm də ailə, dövlət və ordu qurmaq üçün insanlara nümunə yaradıb. Çünki bal arısı ailəsi öz zəhmətkeşliyi, çalışqanlığı, ciddi nizam-intizamı, təmizkarlığı və faydalılığı ilə bütün canlılardan üstündür. Məhz buna görə də Allahın məhəbbətini qazanaraq adına surə nazil olmuşdur. Buradan aydın olur ki, həmin keyfiyyətləri özündə cəmləşdirən istənilən insan həm cəmiyyətin, həm də Allahın məhəbbətini qazana bilər.

Bal arısı haqda əlavə olaraq, bir maraqlı məqamı da qeyd edim ki, erkək arı **16** tək xromosoma, dişi arı isə, **16** cüt xromosoma malikdirlər.

***“Siz bir-birinizi sevin ki, Mən də sizi sevim”***
*Allah-taala.*

Yeri gəlmişkən, qeyd edim ki, Allahın məhəbbətini qazanmağın yollarından biri də elmdir. Bu yolda çalışan





insan (tələbə) hər kitabdan bir qədər elm (şirə) toplayır və nəticədə onun da əməyi **"bal"**la qiymətləndirilir.

Qeyd edim ki, Rəbbim elmi və imanı çox olan bəndəsini digərlərindən daha çox sevir. Bunu Loğman Peyğəmbərin simasında aydın görmək olur. Belə ki, Allah-taala Kitab verdiyi bir çox peyğəmbərlərin adına “Quran”da surə göndərməsə də, ancaq təbabət elmi bəxş etdiyi bəndəsi Loğmanın (Salam olsun!) adına 31-ci surəni göndərdi.

Bu fakt Rəbbimin elm adamlarına olan məhəbbətinin təzahürüdür.

### *24-cü element nur rəmzidir*

***“... Onların*** *(möminlərin)* ***nuru önlərindən və sağ tərəflərindən axıb şölə saçarkən onlar belə deyəcəklər: “Ey Rəbbimiz! Bizim nurumuzu tamam-kamal elə və bizi bağışla. Həqiqətən, Sən hər şeyə qadirsən!”***
*“Quran”, 66:8.*

Allah-taala dünyaya gələn hər bir insana öz enerjisindən (nurundan) bir zərrə bəxş edir. İnsan həyatda gözəl işlər, gözəl əməllərlə məşğul olduqda, onun mənəviyyatı tədricən **cilalanır** və nurun parlaqlığı artmağa – böyüməyə və ətrafa işıq saçmağa başlayır. Onun üçün də belə şəxslər Ali Enerji Mənbəyi olan Allaha daha yaxın olurlar. Həmçinin belə insanlar böyük ide-

yalar, amallar, bəşəri dəyərlər uğrunda mübarizəyə meyilli olur və kamil sayılırlar. “Quran”ın nurdan bəhs edən **"Nur"** surəsi **24** rəqəmi ilə nömrələnib. Mendeleyev cədvəlində isə **24**-cü element **Xrom**dur. Bu element oksidləşdikdə (Xrom 3 oksid) *cilalayıcı* (!) qrupa aid edilir və İslamın rəmzi olan yaşıl rəngə çalır. Dövri cədvəldə **24** rəqəmi ilə bağlı olan elementlərdən biri də Maqneziumdur. Atom kütləsi **24** olan bu element gözqamaşdırıcı alovla yandığından, ondan *işıqlandırıcı* və *yandırıcı* raketlərin hazırlanmasında, eləcə də fotoqrafiya işində *işıq mənbəyi* (!) kimi istifadə edilir. Qeyd edim ki, haqqında söhbət açdığım **"Nur"** surəsi, Xrom və Maqnezium hər üçü işıqlanmaya (nurlanmaya) xidmət etdikləri kimi, riyazi yolla da biri-biri ilə bağlıdır. Belə ki, **"Nur"** surəsinin ayələrinin cəmindən (64) Xromun atom kütləsini (52) çıxdıqda, alınan 12 rəqəmi, Maqneziumun sıra nömrəsini göstərir:

$$\mathbf{64 - 52 = 12}$$

Yeri gəlmişkən, insanda iki cür ruh vardır. Bədən sahədir, birinci ruh o bədənin sahəsi, ikinci ruh isə, bədənin suyu, günəşi və havasıdır. Günəş təkbaşına yer səthini işıqlandırdığı kimi, ikinci ruhumuz da inkişaf etdikcə bizi elə işıqlandıracaq və nura qərq edəcəkdir. İnsanın ən zəif yeri göbək və başıdır. Hər iki ruhumuz da burada (göbəkdə və başda) yerləşir. Amma, insanların çoxu bundan xəbərdar deyildir.





***Mendeleyevin ölümündən sonra Dövri Sistem niyə saxtalaşdırıldı?***

Mendeleyev sağ olarkən, onun tərtib etdiyi Elementlərin Dövri Sistemi Cədvəlinin orijinalında “Efir” adlı element mövcud idi. 1906- cı ildə nəşr olunan

**Подлинная, нефальсифицированная Таблица Д. И. Менделеева**
**«Периодическая система элементов по группам и рядам»**
**(Д. И. Менделеев. Основы химии. VIII издание, СПб., 1906 г.)**

| Ряды | группы элементов | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| | 0 | I | II | III | IV | V | VI | VII | VIII | | |
| 0 | Ньютоний | | | | | | | | | | |
| 1 | Короний | Водород **H** 1,008 | — | — | — | — | — | — | | | |
| 2 | Гелий **He** 4,0 | Литий **Li** 7,03 | Бериллий **Be** 9,1 | Бор **B** 11,0 | Углерод **C** 12,0 | Азот **N** 14,01 | Кислород **O** 16,00 | Фтор **F** 19,0 | | | |
| 3 | Неон **Ne** 19,9 | Натрий **Na** 23,05 | Магний **Mg** 24,36 | Алюминий **Al** 27,1 | Кремний **Si** 28,2 | Фосфор **P** 31,0 | Сера **S** 32,06 | Хлор **Cl** 35,45 | | | |
| 4 | Аргон **Ar** 38 | Калий **K** 39,15 | Кальций **Ca** 40,1 | Скандий **Sc** 44,1 | Титан **Ti** 48,1 | Ванадий **V** 51,2 | Хром **Cr** 52,1 | Марганец **Mn** 55,1 | Железо **Fe** 55,9 | Кобальт **Co** 59 | Никель **Ni** 59 |
| 5 | | Медь **Cu** 63,6 | Цинк **Zn** 65,4 | Галлий **Ga** 70,0 | Германий **Ge** 72,5 | Мышьяк **As** 75 | Селен **Se** 79,2 | Бром **Br** 79,95 | | | |
| 6 | Криптон **Kr** 81,8 | Рубидий **Rb** 85,5 | Стронций **Sr** 87,6 | Иттрий **Y** 89,0 | Цирконий **Zr** 90,6 | Ниобий **Nb** 94,0 | Молибден **Mo** 96,0 | — | Рутений **Ru** 101,7 | Родий **Rh** 103,0 | Палладий **Pd** 106,5 |
| 7 | | Серебро **Ag** 107,93 | Кадмий **Cd** 112,4 | Индий **In** 115,0 | Олово **Sn** 119,0 | Сурьма **Sb** 120,2 | Теллур **Te** 127 | Иод **I** 127 | | | |
| 8 | Ксенон **Xe** 128 | Цезий **Cs** 132,9 | Барий **Ba** 137,4 | Лантан **La** 138,9 | Церий **Ce** 140,2 | — | — | — | — | — | — |
| 9 | | — | — | — | — | — | — | — | | | |
| 10 | — | — | — | Иттербий **Yb** 173 | — | Тантал **Ta** 183 | Вольфрам **W** 184 | — | Осмий **Os** 191 | Иридий **Ir** 193 | Платина **Pt** 194,8 |
| 11 | | | | | | | | | | | |
| 12 | — | — | Радий **Ra** 225 | — | Торий **Th** 232,5 | — | Уран **U** 238,5 | | | | |

"Kimyanın əsasları" kitabında (8-ci nəşr) Mendeleyevin əsl cədvəli salınmışdır (bax: aşağıdakı cədvələ). Kimyəvi işarəsi "X" olan bu elementi Mendeleyev öz cəvəlində "Nyutoniy" adlandırmışdı. Cədvəlin yuxarı sol küncündə yerləşən bu maddə "Dünya efiri" idi. Cədvəldə "Efir", "Hidrogen"dən əvvəl yazılmışdı, sıfır qrupuna, sıfır sırasına daxil edilmiş yeganə element idi. Atom çəkisi 0,4 olan bu element yer üzərində hər yerdə mövcuddur. Bu maddə əsl enerji daşıyıcısıdır.

"Efir"in hissələri atomları, molekulları formalaşdırır, amma, kimyəvi reaksiyalarda iştirak etmir. Efir - maddənin bir hissəsidir (belə deyək ki, ruhudur, enerjisidir).

Mendeleyevin vəfatından (1907) sonra, bəşəriyyətin tərəqqisini istəməyən qüvvələr cədvəl üzərində dəyişiklik edib, "Efir" elementini oradan xaric etdilər və sıfır qrupunu ləgv etdilər. Beləliklə də, bir çox sirləri qizlətmiş oldular. Ona görə də müasir cədvəldə "Efir" görsənmir. Çünki sıfır qrupu mövcud deyil. Bu cür saxtalaşdırma kimya, fizika, biologiya elmlərinin gələcək inkişafına zərbə vurmaqla, sivilizasiyanın tərəqqisini dayandırdı. Hazırda məktəblərdə və Ali təhsil müəssisələrində Mendeleyev cədvəli tamamlanmamış, yarımçıq tədris olunur ki, bu da açıq saxtakarlıqdan başqa bir şey deyildir.





### *"Efir" elementinin sirlərini bilən alimlər müəmmalı şəkildə öldürülürlər*

Tarixə nəzər yetirsək, görərik ki, "Efir" elementinin sirlərindən bəşəriyyətin xeyrinə istifadə edən alimlər müəmmalı şəkildə öldürülüblər. Belə ki, bir çox alimlər bu sonsuz enerji maddəsinin cəmiyyətin xeyrinə tətbiq olunma variantlarını işləyiblər. Amma hamısının sonu faciə ilə bitib. Bəşəriyyətin tərəqqisini istəməyən qüvvələr buna imkan verməyiblər. Məsələn, böyük alim Nikola Tesla (1856 – 1943) "Efir"dən energi alınmasının mümkünlüyünü sübut etdi. Alim bu elementin sirrini bilməklə, daimi işləyən mühərrik yaratdı. Daha sonra, enerjinin naqilsiz paylanmasını kəşf etdi. Bu da onun karyerasının sonunu gətirdi: qoca vaxtı hoteldə qaldığı otaqda müəmmalı şəraitdə ölü tapıldı. Dərhal onun otağından bütün əlyazmalarını, elmi işlərini kəşfiyyat xidməti (FBR) yoxa çıxardı.

Eynşteyn "Ümumi nisbilik nəzəriyyəsi"ni açıqlamaq üçün fiziki məkanı "Efir" adlandırmağı təklif etsə də, böyük güclərin (mafiyaların) nəzarətində olan və "elmlər akademiyası" adlanan qurum buna imkan vermədi. Ümumi nisbilik nəzəriyyəsinə əsasən, deyə bilərik ki, məkan - "Efir" olmadan ağlasığmazdır.

Elmlər Akademiyası hələ də öz mövqeyində möhkəm dayanmaqda davam edir. "Efir" elementi ilə bağlı heç bir tədqiqat işi, elmlər akademiyaları tərəfin-

dən qəbul edilmir. Çünki bu mövzuya hansısa qüvvələr tərəfindən qadağa qoyulub. Misal üçün "daimi mühərriklərin" ixtirası baxılmır.

Amma, hal - hazırda bu istiqamətdə aktiv müzakirələr gedir. Bu mühərrik alimlər tərəfindən bir cox ölkələrdə yenidən işlənib. Hətta, Rusiyada İAE bazasında və digər bazalarda keçirilən ekspermentlərdə "Efir" elementindən istifadə olunub.

Yaponiyada yanacaqsız işləyən avtomobillərin istehsalına başlanacağı haqqında məlumat verilib. 2008-ci ildə yanacaqsız çalışan və enerjisini "Efir"dən alan motosikl nümayiş etdirilib. Maraqlıdır ki, yenə də hansısa qüvvələr bu texnologiyaların həyata keçməsinə imkan vermədilər.

Müasir təsəvvürdə "Efir" yuksək sıxlığa malik olan qaza bənzəyir. Elementin araşdırmasına Rusiya alimi Vladimir Ocukovskiy də xeyli əmək sərf edib. O, texnika elmləri doktoru, Siyalkovski adana kosmik akademiyasinin üzvü, Rusiya akademiyasının fəxri üzvüdir.

Sual yaranır: bəs "Efir" elementi və onun faydaları niyə belə ciddi-cəhdlə bəşəriyyətdən gizlədilir?

Məncə səbəb odur ki, bu element Kainatın enerjisini, ruhunu təşkil edir. "Efir"in varlığını, onun sirrini bilmədən, Kaninatın, yaradılışın dərki mümkünsüzdür. Bu gün bəşəriyyəti istismar edən böyük güclərə insanların dərrakəli olması maraqlı deyil (ağıllı, dərrakəli insanı istismar etmək çətindir). Həmçinin, daimi işləyən mühərriklərin həyata tətbiq edilməsi enerji resurslarına





nəzarət edən mafiyaların marağına uyğun deyildir. Bu səbəbdən də elmin inkişafına mane olmaqla, bu gün dünyada yarımçıq – inamsız, imansız, dərrakəsiz bir kütlə formalaşdırıblar (bu səbəbdən hələ də insanın meymundan yarandığına inanan düşüklər var).

### *"Efir" enerjisi bütün xəstəliklərin dərmanıdır*

Vacib bir məqamı da qeyd edək ki, Elementlərin Dövri Sistemindən "Efir"in çıxarılması kimya, fizika və biologiya elmlərinin inkişafının qarşısını aldığı kimi, eləcə də tibb elminə zərbə vurdu. Tibb elmi, adını çəkdiyim elmlərə bağlı olduğundan, onlar kimi, yarımçıq qaldı.

Təcrübəmiz göstərir ki, "Efir" elementinin sirlərini dərindən bilməklə, bundan bir çox sağalmaz xəstəliklərin müalicəsində istifadə etmək mümkündür. Necə ki, Nikola Tesla bu sirləri kəşf etməklə, daimi işləyən mühərriki, enerjinin naqilsiz ötürülməsini ixtira etmişdi (təəssüf ki, bütün bunlar bəşəriyyətdən gizlədildi). Qeyd edək ki, bizim tətbiq etdiyimiz müalicə metodu da məhz bu sirlərə əsaslanır. İnsan bədənində toplanan və orqanların funksiyasını pozan, ağrılara, xəstəliklərə səbəb olan neqativ enerjini bədəndən məhz "Efir"in enerjisi ilə xaric etmək mümkündür. Bu sirlər tibb elminə məlum olmadığından, bir çox xəstəliklər müalicəsiz hesab edilir. Hansı ki, belə "müalicəsiz" xəstəliklərin çoxunu "Efir"lə müalicə edib, sağaltmaq mümkündür. Zaman

keçdikcə insan oğlu dərk edəcək ki, “Efir”dən alınan enerji bütün xəstəliklərin dərmanıdır...

Nəzərinizə çatdırım ki, bu element istənilən adamda vardır. Sadəcə, bunu müalicəyə tətbiq etmək üçün sirləri bilmək lazımdır. Biz bu sirlərə uzun araşdırmalardan, tədqiqatlardan sonra vaqif olduq. Elə bu səbəbdəndir ki, tibb elminin müalicəsiz hesab etdiyi bir çox xəstəlikləri heç bir dərman tətbiq etmədən, “Efir” enerjisi ilə müalicə edirik.

Məsələn, xərçəng, bütün növ qorxular, fobiyalar, depressiyalar, həzm sistemi xəstəlikləri, zərərli vərdişlərdən (narkomaniya, alkoqolizm və s.) xilas olmaq, uroloji xəstəliklər, autizm, onurğa xəstəlikləri, cinsi disfunksiyalar, hormon pozğunluqları, nevrozlar, sinir sistemi xəstəlikləri, yuxusuzluq, parkinson, şizofreniya, miqren, zob, mielit, miasteniya, dağınıq skleroz, dəmirov və s. dəri zöhrəvi xəstəlikləri, sonsuzluq, kista, mioma, fibroma, xərçəng və s. (bu mövzunu “Təbabətin sirləri” bölümündə davam etdirəcəyik).



# BİOLOGİYA ELMİNİN SİRLƏRİ

***Elmi-lədun işığında***

## İÇKİNİ NİYƏ TƏRGİTDİM?

Uşaqlığım və gəncliyim sovet dövrünə təsadüf etdiyindən, etiraf edim ki, həmin zamanlarda mən də hamı kimi cahillik dövrümü yaşamışam.

Belə ki, hələ 5 yaşımda atamı itirdiyimdən və başqa qardaşım olmadığından, faktiki olaraq evin kişisi sayılırdım. Bu, mənə bəzi mənəvi sıxıntılar yaşatsa da, azadlıq və müstəqillik baxımından tam sərbəstlik verirdi. Ona görə də orta məktəb və sonrakı dövrlərdə dostlarla keçirdiyimiz bütün gecələr, bayram tədbirləri və s. bir qayda olaraq bizim evdə keçirilərdi (bacılarım ər evinə köçdüyündən və anam da (Allah ona rəhmət eləsin!) qoca olduğundan bizim evimiz sinif yoldaşlarım və dostlarım üçün ən əlverişli məkan idi.

Evimiz kəndin qırağındakı boyük gölün kənarında yerləşdiyindən, buradakı gözəl təbiət mənzərəsi dostlarımın daim diqqət və marağını çəkmiş, onlar üçün sevimli istirahət məkanı olmuşdur. Həyətimizdə hər cür meyvə ağacları vardı. Bir spirt çəkən aparat da düzəltdirmişdim, yay-payız aylarında altı daim yanardı…

Odur ki, həyətimizdəki həm gözəl təbiət mənzərəsi, həm də gözəl “təbiət neməti” qonaq-qaranın bolluğuna səbəb olardı…

Onu da deyim ki, həmin dövrdə (elə indi də) kitab həvəskarı idim. Həmin vaxtlar dilimizə tərcümə olunan,





yenicə çapdan çıxan “Quran” kitabını da çətinliklə əldə etdim və çox böyük həvəslə mütaliə etməyə başladım.

“Quran”da diqqətimi çəkən məqamlardan biri də şeytanın yaranması haqqında ayələr oldu:

“BİZ ŞEYTANI TÜSTÜSÜZ ODDAN YARATDIQ”.

Maraqlıdır ki, spirt çəkdiyim məqamlarda həmin ayələr gözlərimin qarşısına gəlir və mən həm ŞEYTANIN, həm də SPİRTİN yaranma prosesləri arasında çox böyük oxşarlıq görürdüm. Bu yazımda diqqətinizi həmin *o x ş a r l ı q l a r a* cəlb etmək istəyirəm.

Öncə onu qeyd edim ki, bunların hər ikisi TÜS TÜSÜZ ODDAN (oxu: *buxardan*) yaranır.

Xatırladım ki, Həzrət Peyğəmbərimiz: *“Dırnaqlarınızı kəsin ki, onun altında şeytan gizlənir”* – deyirdi. İndi də həkimlər: *“Dırnaqlarınızı kəsin ki, onun altında mikroblar (bakteriyalar) gizlənirlər”* – deyirlər. Maraqlıdır ki, həm şeytanın, həm də mikrobun (bakteriyanın) fəaliyyəti düşdüyü yeri çürüdüb orada fəsad törətməkdən ibarətdir.

Mən spirt çəkmək üçün meyvələri böyük qaba yığıb, ağzını kip bağlayırdım. Oradakı bakteriyalar meyvələri çürüdürdü. Həmin qabın altını yandırdıqca, çürüntü TÜSTÜSÜZ ODA (buxara) çevrilir, daha sonra buxar soyuq suyun içərisindəki turbadan keçdikcə, suya çevrilərək şüşə qaba yığılırdı…

Maraqlıdır ki, həmin bu çürümüş meyvənin suyunu (spirti) içdikdən sonra insanın abır-həyası azalır və o,

günaha (zinaya, davakarlığa, adam öldürməyə və digər şeytani işlərə) daha çox meyilli olur.

Bütün bu prosesləri gözlərim önündə müşahidə etdikcə və həyatımda bunların fəsadlarını yaşadıqca (içəndən sonra həmişə başıma pis işlər gəlirdi), dərk etdim ki, mən əslində şeytanı yaradıram və onu qəbul etdikcə də bu varlığın təsiri altına düşürəm…

Odur ki, 24 yaşımdan sonra bu kimi işlərə TÖVBƏ dedim və ondan sonra heç vaxt spirtli içki qəbul etmədim…

***“Səndən içki və qumar haqqında sual edənlərə söylə: “Onlarda həm böyük günah, həm də mənfəət vardır. Lakin günahları mənfəətlərindən daha böyükdür!”*** *Quran, 2:219.*

Bu barədə düşünməyə dəyər…





## İNSANİ KEYFİYYƏTLƏR UŞAĞA ANA SÜDÜ İLƏ KEÇİR

***“Biz insana ata-anasına yaxşılıq etməyi tövsiyə etdik. Çünki anası onu*** *(bətnində)* ***zəhmətlə gəzdirmiş, əziyyətlə doğmuşdur. Onun ana bətnində daşınma və süddən kəsilmə müddəti otuz aydır*** *(9 ay bətndə, 21 ay ana südü ilə bəslənir)*. ***Nəhayət, insan kamillik həddinə yetişib qırx yaşa çatdıqda belə deyər: “Ey Rəbbim! Mənə həm mənim özümə, həm də ata-anama əta etdiyin nemətə şükür etmək və Sənə xoş gedəcək yaxşı əməl etmək üçün ilham ver, nəslimi əməlisaleh et. Mən günahlarımdan Sənə tövbə etdim və şübhəsiz ki, mən müsəlmanlardanam!”*** *“Qumsal təpələr” surəsi, 15-16.*

Müqəddəs Kitabın bu və digər ayələrində Allah-taala insana yeni doğulan körpənin 21 ay ana südü ilə bəslənməsini tövsiyə edir. Həmçinin, bildirir ki, belə uşaqlar böyüyüb 40 yaşına çatarkən kamil olarlar və həyatı dərk edərək, günahlarına görə tövbə edib, Allaha sığınarlar. Sual yaranır: niyə məhz 21 ay?

Elmi-lədun hesablamalarımız göstərir ki, bu tövsiyə 21 ədədindəki hikmətlə bağlıdır. Odur ki, bu hikmətə birlikdə nəzər salaq.

Bildiyimiz kimi, həm Yerin, həm də Göyün yeddi

qatdan ibarət olması "Quran"da təsbit olunmuş və bunu elm də sübut etmişdir.

Həmçinin, Allah qarşısında səcdə edən hər bir insana fikir versək, onun yeddi üzvünün – 2 ayaq, 2 diz, 2 əl və 1 alın – yerə toxunduğunu görərik.

Beləliklə, Yer, Göy və Allaha baş əyən kamil insanın qatlarını toplasaq 21 ədədinin alındığını görərik:

**7 + 7 + 7 = 21**

21 ədədi "Quran"ın "Peyğəmbərlər" surəsinin sıra nömrəsi olduğundan, bu ədəd müqəddəs kitabda elm, kamillik və Peyğəmbərlik rəmzi sayılır.

Elmi-lədun araşdırmalarımız göstərir ki, insanda elm və digər insani keyfiyyətlərin (kamilliyin) təməli ana südü ilə qoyulur. Bu təməlqoyma prosesi 21 ay çəkir.

21 ədədi ilə bağlı bir məqama da diqqətinizi yönəldim ki, insan hüceyrələrinin yaşama müddəti 21 gündür. Yəni, orqanizmdə hər gün milyonlarla hüceyrə doğulur ki, onlar 21 gündən sonra ömürlərini başa vurub, yeniləri ilə əvəzlənirlər.

Ona görə də hər şeyi qabaqcadan hesablayan və bilən Ulu Yaradan yeni doğulmuş körpəni məhz 21 ay ana südü ilə qidalandırmağı bir çox ayələrdə tapşırmışdır. Bildiyimiz kimi, "Quran" insanın "texniki pasport"u olaraq göndərilmişdir – necə ki, hər bir alim ixtira etdiyi cihazın işləmə qaydasını göstərən texniki pasport yazar.





Təəssüflər olsun ki, məişətdə işlətdiyimiz cihazlarda problem yaranmasın deyə onun texniki pasportunu tez-tez oxuyub əməl etdiyimiz halda, özümüzün, yaxud övladlarımızın həyatında problem yaranmaması üçün Yaradanımızın bizə göndərdiyi "texniki pasport"u bir dəfə də olsun oxumuruq (yaxud, əməl etmirik).

Haşiyə çıxaraq qeyd edim ki, bu yaxınlarda doğulduğum kəndə yolum düşdü və orada qısa bir sorğu apardım. Məlum oldu ki, böyük bir kənddə bir dənə də olsun tərcümə "Quran" yoxdur. Bilirəm ki, bütün kəndlər belədir (ən çox 1-2 kitab ola bilər). Mollalarda olan ərəbcə "Quran"ı isə, bir çox hallarda heç özləri başa düşmürlər, nəinki dinləyənlər.

Odur ki, aparılan araşdırmalar göstərir ki, yeni doğulan körpələrin 80 faizi ana südü ilə deyil, süni qidalarla yemlənirlər. Bunun nə demək olduğunu dərk etmək üçün başqa bir statistikaya nəzər salaq.

Aparılan araşdırmalar zamanı məlum olub ki, ağır cinayət törədən məhkumların 92 faizi belə süni qida ilə bəslənənlər olub!

Buradan belə nəticə çıxır ki, analar öz övladlarına 21 ay süd verməməklə onlarda tərbiyənin, əxlaqın, insan və Vətən sevgisinin, bir sözlə, kamilliyin təməlini qoymamış olurlar. Məhz bu təməlin olmaması səbəbindən gələcəkdə övladlar bu keyfiyyətləri əxz edə bilmirlər və beləliklə, bütün bu insani hisslərdən məhrum olurlar. Nəticədə belə insanların 92 faizi ağır cinayətlər törədirlər.

Buradan belə nəticə də hasil olur ki, analar körpələrin südünü kəsməklə, əslində cinayətkarlığın və gələcək cinayətlərin təməlini qoymuş olurlar!..

İndi bildinizmi bu gün cəmiyyətimizdə ana sevgisi, Vətən sevgisi, böyüyə hörmət və s. insani hisslər niyə qəhətə çıxıb?! Valideyn övlada (və yaxud əksinə), qardaş-qardaşa, qohum-qohuma qonşu-qonşuya qənim kəsilib! İnsanlar əqrəb kimi bir-birlərini sancmağa məqam gəzirlər. Çünki körpəlikdə yedikləri qidaların tərkibi əqrəb, siçan, və s. vəhşi heyvanların geni ilə zəngindir. Bütün bunlar insanlarda genetik dəyişməyə, genetik mutasiyaya səbəb olmuşdur. Bu səbəbdən bu gün insanlarda aqressiya, cinayətə, pisliyə meyllilik çox güclüdür, nəinki insani hisslər.

Bu gün qadınlar arasında sürətlə yayılan süd vəzlərində şişlərin yaranması da 21 ay ana südü ilə qidalandırma barədə "Quran"dakı tapşırığa əməl etməməyin nəticəsidir! Beləliklə, Allahın tövsiyəsinə əməl etməyən analar övladlarının fiziki və mənəvi sağlamlıqları ilə yanaşı, öz sağlamlıqlarını da risk altında qoyurlar.

"Quran"ın "Loğman" surəsində iki il ana südü ilə qidalananların hansı tərbiyələrə malik olduqları barədə belə buyrulur:

*"Yadında olsun ki, bir zaman Loğman öz oğluna nəsihət edərək belə demişdir: "Oğlum! Allaha şərik qoşma! Doğrudan da, Allaha şərik qoşmaq böyük günahdır!"*

*"Biz insana, ata-anasına yaxşılıq etməyi, valideyninə yaxşı baxmağı, onlarla gözəl davranmağı tövsiyə etdik. Anası onu bətnində çox zəif bir halda daşımışdı. Uşağın süddən kəsilməsi isə iki il ərzində olur. Biz insana buyurduq: "Mənə və ata-anana şükür et. Axır dönüş Mənədir!"*

*"Əgər ata-anan bilmədiyin bir şeyi Mənə şərik qoşmağına cəhd göstərsələr, bu işdə onlara itaət etmə. Qalan dünya işlərində onlarla gözəl keçin, onlara itaət et".*

*"Loğman öyüd-nəsihətinə davam edərək dedi: "Oğlum, dünyada gördüyün hər hansı yaxşı, yaxud pis iş bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın* (daşın) *içində, yaxud göylərdə və ya yerin təkində olsa da, Allah onu ortaya gətirər* (onun haqq-hesabını çəkər). *Həqiqətən, Allah lətifdir (bütün incə, nazik işləri biləndir; lütfkardır), hər şeydən xəbərdardır!"*

*Oğlum! Namaz qıl, insanlara yaxşı işlər görməyi əmr et, pis işləri qadağan elə! Bu yolda sənə üz verəcək müsibətlərə döz! Həqiqətən, bu dediklərim vacib əməllərdəndir!"*

*"Adamlardan təkəbbürlə üz çevirmə, yer üzündə lovğa-lovğa gəzib dolanma! Həqiqətən, Allah heç bir özündən razını, lovğalanıb fəxr edəni sevməz!*

*"Yerişində müvazinətini gözlə* (nə çox yeyin, nə də çox asta get) *və danışanda səsini qaldırma! Çünki ən çirkin səs uzunqulaq səsidir!" "Loğman" surəsi,* 13-19-cu ayələr.

Bütün bunlar bir daha sübut edir ki, analarımız Allahın tövsiyəsinə əməl edərək, körpələrini 21 ay ana

südü ilə bəsləməlidirlər. Bu, onların həm özlərinin, həm də övladlarının (fiziki və mənəvi) sağlamlığının qarantiyası olar. Çünki, artıq elm sübut etmişdir ki, insanlıq, mənəvi dəyərlər uşağa məhz ana südü ilə keçir. Bir şərtlə ki, südlə bəslənmə müddəti 21 ay olsun...





## LƏL-CƏVAHİRAT İLBİZDƏN YARANIR

Dahi Füzulinin qəzəlindən olan bu beytdə çox böyük fəlsəfi məna yükü vardır.

Bildiyimiz kimi, gövhər (ləl-cəvahirat) dənizin dibində, sədəfin içində olur və o, gövhər olmamışdan qabaq ilbiz olur. İlbizin gövhərə çevrilməsi çox maraqlı və ibrətamiz bir prosesdir. Belə ki, içində ilbiz olan sədəf uzun bir məsafə qət edərək, dənizin dibindən üzünə doğru hərəkət edir. Və bu elə hesablanır ki, həmin üzə çıxma aprel (nisan) ayında baş verir; həmin gün ilk bahar yağışı yağır. Sədəf ağzını açaraq, bahar (aprel) yağışının ilk damcısını udur və ağzını yumub təkrar okeanın dibinə qayıdır. Burada bir müddət ilbizlə bahar suyunun arasında reaksiya gedir və nəticədə gövhər (ləl-cəvahirat) yaranır.

Dahi şairimiz Məhəmməd Füzuli bu ibrətamiz prosesi bir misra ilə çox gözəl ifadə etmişdir: *"Sədəf su içməyincə abu-nisandan, gövhər verməz"*.

Bu maraqlı və ibrətamiz proses insan həyatında özünü bir neçə formada büruzə verir.

Birincisi, insanın ana bətnində yaranma prosesi bir növ gövhərin sədəfdə (örtülü, qapalı mühitdə) yaranma prosesinə bənzəyir.

"Quran"da Rəbbim bu barədə belə buyurur: ***"Biz sizi bir qətrə sudan*** *(nüftədən)* ***yaratdıq".***

Diqqətinizi maraqlı bir məqama cəlb edim ki, dənizin dibindən sədəfi tapanda, onu yarmamış, içindəkinin inci (gövhər), yoxsa muncuq olduğunu bilmək olmur. Ana bətnindəki övlad da belədir, dünyaya gəlməmiş, onun xeyirli və yaxud xeyirsiz olduğunu bilmək olmur.

Yeri gəlmişkən, bir maraqlı məqamı da qeyd edim ki, insanın cismi də ruhu üçün sədəfdir (onu gizlədən örtükdür). Ruh nə qədər ki, cisimdə gizlənib, onun pak (inci), yoxsa çamur (muncuq) olduğunu bilmək mümkün olmur. Ruh sədəfdən azad olunduqdan sonra əgər pakdırsa, onun nuru zaman-zaman özünü müxtəlif formalarda büruzə verəcək.

İlbizin bahar yağışının təsiri ilə ləl-cəvahirata çevrilməsi prosesini cəmiyyətdə də müşahidə etmək mümkündür. Belə ki, hansı nəslin kökündə xeyirxah, əməlisaleh və yaxud kəramətli bir adam olubsa, zaman keçdikcə həmin nəsildən kimdəsə bu əlamət özünü büruzə verir. Dahi Füzuli bunu nəzərdə tutub deyirdi ki, "Sədəf su içməyincə abu-nisandan, gövhər verməz". Yəni, əslindən-kökündən ilham almayan yaxşılıq edə bilməz və yaxud, kəramət göstərə bilməz. Bütün bu insani keyfiyyətlər bir çox hallarda kodlaşdırılmış formada, genetik yolla ötürülür...





# İNSANDA MƏHƏBBƏT HİSSİ BELƏ YARANIR

***"İnsan Mənim sirrimdir, Mən də insanın sirriyəm!"*** (Allah-taala)

Bu yazımızda diqqətinizi insanda torpağa qarşı məhəbbətin yaranması prosesinə cəlb etmək istəyirik.

Təcrübə göstərir ki, kənd adamlarında torpağa məhəbbət (bağlılıq) güclü olur. Bu səbəbdən də onlar bir çox hallarda yaşadıqları yerdən ayrılmaqda çətinlik çəkirlər; yeni məskunlaşdığı yerlərə çətin adaptasiya olurlar və köhnə yurd üçün darıxırlar.

Şəhər adamları isə, bu cür problemi yaşamırlar. Yəni, şəhərlilər kəndlilərə nisbətən yaşadıqları yeri daha asan dəyişirlər və düşdükləri yerə daha asan və tez uyğunlaşırlar. Bu onlarda torpağa məhəbbət hissinin kənd adamlarına nisbətən daha zəif olması ilə əlaqədardır.

Sual yaranır ki, niyə eyni bioloji varlıq olan iki insanın birində torpağa məhəbbət daha güclü, digərində isə, zəif olur? Bunun səbəbi nədir?

Elmi-lədun araşdırmalarımız göstərir ki, bu hal insanda torpağa qarşı məhəbbət hissinin yaranma prosesi

ilə əlaqədardır. Gəlin görək insan qəlbində torpağa məhəbbət hissi necə yaranır?

Araşdırmalarımız göstərir ki, bu proses yağış təzə yağmağa başlayanda insan yenicə islanmış sürüşkən torpağın üzəri ilə yeriyərkən baş verir. Yəni, kənd adamı hər dəfə yağış altında torpaq yolla sürüşə-sürüşə gedərkən, özü də bilmədən onun qəlbində torpağa qarşı məhəbbət hissi yaranır və bu məhəbbət bağı onu həmin torpağa bağlayır.

Bu səbəbdən də kənd adamı yaşayış yerini dəyişəndə uzun müddət yaşadığı torpağın həsrətini (məhəbbətini) çəkir və düşdüyü mühitə uyğunlaşmaq onun üçün çətin olur.

Şəhər mühitində isə, torpaq yol olmadığından (hər tərəf asfalt və yaxud betondur) burada yaşayan insanda yuxarıda şərh etdiyim bioloji proses demək olar ki, getmir və yaxud çox zəif gedir. Deməli, yerə döşənmiş beton örtük şəhər insanının torpaqla əlaqəsini zəiflədir ki, bu da onda torpağa qarşı məhəbbət hissinin daha az olmasına səbəb olur. Buna görə də şəhər adamı yaşayış yerinini dəyişməkdə heç bir problem görmür və düşdüyü yerə daha tez uyğunlaşır.

Yeri gəlmişkən, diqqətinizi bir vacib məqama da yönəldim ki, insanlar arasında da məhəbbət hissi bir çox hallarda əsasən sürtünmədən yaranır. Yəni, əks





cinslər biri-birinə sürtündükdə (toxunduqda) onlar arasında qarşılıqlı məhəbbət hissi baş qaldırır. Eynən torpağa qarşı olduğu kimi. Bu halı heyvanlar arasında da müşahidə etmək mümkündür. Onlar da sevişməzdən öncə bir-birlərinə sürtünürlər.

Torpaq həm də insanın yaradıldığı maddə olduğundan, insanda ona qarşı bir bioloji uyğunluq və bağlılıq vardır.

## ÇƏRŞƏNBƏLƏRİN MAHİYYƏTİ İNSANIN YARADILIŞ ÜNSÜRLƏRİNƏ BAĞLANIR

Hələ ta qədimdən cəmiyyətimizdə çərşənbələrə və digər bu qəbildən olan bayramlara münasibət birmənalı olmayıb. Belə ki, əhalinin çox hissəsi bu tip bayramları qeyd etsə də, cəmiyyətimizin dindar kəsimi (ərəb mənbələrini oxuyanlar) bayram haqqında "Quran"da xəbər verilmədiyindən, onu inkar edirlər.

Bildiyimiz kimi, çərşənbələrin sayı - Su, Torpaq, Yel (hava) və Od (enerji) - olmaqla, dörddür.

Elmi-lədun araşdırmalarımız göstərir ki, tariximizdən gələn bu ənənə insanın yaradılış ünsürləri ilə üst-üstə düşür. Belə ki, insan - torpaq, su, hava və ruh (enerji) olmaqla - dörd ünsürdən yaranıb.

Həmçinin, təbiət də - yaz, yay, payız, qış olmaqla, dörd fəsildən ibarətdir.

Eləcə də Kainat - Şərq, Qərb, Şimal və Cənub olmaqla, dörd cəhətdən ibarətdir.

Allah-taalanın nazil etdiyi səmavi kitabların sayı da - "Tövrat", "Zəbur", "İncil" və "Quran" olmaqla - dörddür.

Müqəddəs "Qurani-Kərim"də Kainatın altı gündə (bazar günündən başlamaqla, Cümə günü başa çatıb)





yaranması qeyd olunmuşdur. İki günə Yer, iki günə isə, insanların qidalanması üçün Yer üzərində olanlar (ruzilər) yaradılmışdır. Sonrakı iki gündə isə, göydə olanlar yaradılmışdır:

**"Doğrudanmı siz Yeri iki gündə** (!) **yaradanı inkar edir və Ona şəriklər qoşursunuz? O ki, aləmlərin Rəbbidir!"**

**"O, Yer üzündə möhkəm durmuş dağlar yaratdı, onu bərəkətli etdi və Allahdan ruzi istəyənlər üçün bərabər olaraq Yer əhlinin ruzisini dörd** (!) **gündə müəyyən etdi".** "Quran", "Müfəssəl izah" surəsi, 9-11.

Bu ayələrin mahiyyəti ilə, insanın yaradılışı və dörd çərşənbənin qeyd olunması arasında əlaqə aydın şəkildə görünür. Odur ki, bəzi dindarların Novruz bayramının dinə uyğun olmaması haqqındakı fikirləri əsassızdır.

Məlumdur ki, Novruzun (yeni günün) gəlişi ilə torpaqda oyanış yaranır və əkinçilər ruzi əldə etmək üçün fəaliyyətə başlayırlar. Onların fəaliyyətlərinin əsas istiqamətləri TORPAQ və SUdur.

Bahar fəslində əsən YEL isə, meyvə ağacları üçün rəncbər (əkinçi) rolunu oynayır. Yəni, ağacların toxumlarını kənara səpələməklə, onların tozlanmasını (mayalanaraq ruzi verməsini) təmin edirlər.

Baharın gəlişi ilə havanın hərarəti artır ki, OD-da buna işarədir.

Sual yarana bilər ki, ruzi ilə bağlı olan bu mərasim-

lər niyə məhz çərşənbə günləri qeyd olunur?

Məsələ burasındadır ki, yuxarıdakı "Quran" ayəsi ilə hesabladıqda, ruzinin yaranması həftənin ikinci və üçüncü (çərşənbə axşamı və çərşənbə) günlərinə düşür. Odur ki, mərasimlər də bu günlərdə keçirilir.





## MEYVƏNİ YUXARIDAN DƏRİN

Ağacın yuxarı hissəsi Günəş şüası ilə daha zəngin olduğu üçün, meyvənin ən dəymişi, şirini ağacın lap yuxarısında olur. Bağa girən naşıdırsa, özünə əziyyət verməyib, ağacın əl-ətəyindən, gün görməmiş, yarıkal meyvələrdən qırıb, ağzını büzə-büzə yeyir.

Arif adam isə, canına bir qədər cəfa verib, ağacın düz təpəsindəki "Günəş şüası ilə zəngin, yetişmiş" meyvəni dərir və “bəh-bəh”lə yeyir...

İnsan cəmiyyəti də bağa bənzəyir - yetkin, kamil insanlar cəmiyyətin fövqündə durduqlarından, bir qədər əlçatmaz görünürlər. Adətən naşı (qanmaz) adamlar ailə qurarkən cəmiyyətin "əl-ətəyindən" "dərirlər" və çox keçmir ki, dərdiklərinə də peşman olurlar. Günləri ah-vayla keçir...

Aqil insan isə, nə qədər çətin də olsa, cəmiyyətin fövqündəki kamil insanla ailə qurmağa çalışır ki, bir ömür ləzzət alsın. Siz də aqil olun və meyvəni yuxarıdan "dərməyə" çalışın.

## İNSANA SEVİNC VƏ KƏDƏR LİMİTİ AYRILIB

### *Uzunömürlülüyün sirri limitə qənaət etməkdədir*

Elmi-lədun araşdırmalarımız göstərir ki, Ulu Yaradan tərəfindən insana həyatda qalmaq üçün zamanla yanaşı, sevinc və kədər limiti ayrılır. Bunlar bir-birinin içərisində və ayrılmaz olduqlarından, sevinc və kədər olmadan zamanı yaşamaq mümkün deyildir. Bunu "Quran"ın aşağıdakı ayəsindən görmək olur:

"Əgər Allah insanlara xeyiri tezliklə istədikləri kimi, şəri də o tezlikdə versəydi, şübhəsiz ki, əcəlləri çoxdan tamam olmuşdu…" "Yunis" surəsi, 11-ci ayə.

Ayəyə şərhçilər tərəfindən müxtəlif formalarda təfsirlər verilsə də, əslində burada insan üçün əzəldən müəyyən edilmiş sevinc və kədər limitinə işarə verilir.

Müqayisə üçün deyim ki, hər bir təşkilatın normal fəaliyyəti üçün, ilin başlanğıcında müəyyən bir maliyyə limiti ayrılır. Əgər təşkilat bu limitin hamısını ilin əvvəlində xərcləyib qurtararsa, sonrakı aylarda fəaliyyət göstərə bilməz. Odur ki, normal fəaliyyət göstərmək üçün, illik limit kvartallara və aylara bölünür…

İnsan ömrü də buna bənzəyir. Dünyaya gələrkən bizə sevinc və kədər limiti ayrılır. İnsan zamanı bu li-





mit olmadan yaşaya bilməz. Bunların tezliklə xərclənib qurtarması, insan ömrünün bitməsinə səbəb olur. "Yunis" surəsində də Yaradan məhz buna işarə vurur: "Əgər Allah insanlara xeyri tezliklə istədikləri kimi, şəri də o tezlikdə versəydi, şübhəsiz ki, əcəlləri çoxdan tamam olmuşdu…" Yəni, ömrümüzün əvvəlində çox sevinc yaşamaq istəyiriksə, bunu sonrakı illərin hesabına edə bilərik. Zaman sevinc və kədərsiz mövcud olmadığına görə, həmin limiti xərclənmiş illərə çatdıqda artıq insan yaşaya bilməz (necə ki, təşkilat maliyyəsiz fəaliyyət göstərmir). Bu da ömrün gödəlməsinə və tez bitməsinə səbəb olur. Limitə qənaət edənlər isə, çox yaşayırlar.

Yeri gəlmişkən, qeyd edim ki, limit məsələsi insanın daxili orqanlarına da aiddir. Məsələn, insan orqanizminin nasosu funksiyasını yerinə yetirən ürək, təxmini hesablamalara görə ömür boyu 2,5 milyard dəfə döyünür. Bu, bir insanın ürəyinə ayrılmış limitdir. Bu limit başa çatdıqda ürək dayanır və insanın həyatı bitir.

Bəs necə olur ki, bir insan əlli, digəri isə, yüz il yaşayır? Araşdırmalarımız göstərir ki, bu, ürəyin döyünmə sürətindən asılıdır. Yəni, 2,5 milyard döyünmə limitini ürək əlli ilə başa çatdırırsa, insan 50 yaşında, yüz ilə başa çatdırırsa, 100 yaşında ömrünü tamamlayır.

Psixoloji araşdırmalarımız göstərir ki, çox yaşayan insanlar buna əsəblərinin sakit olması ilə nail olurlar. Çünki, əsəb sakit olduqca, ürək normal döyünür və ona

ayrılmış limiti daha uzun müddətə başa vurur. İçki və digər zərərli vərdişləri olan insanlarda ürək döyüntüsü yüksək olduğundan, ömürləri gödək olur. Həmçinin, ailədə həyat yoldaşı deyingən və əsəbi olarsa, bu da kişinin ürək ritminin sürətlənməsinə və ömrünün gödəlməsinə səbəb olur. Odur ki, çalışın əsəbləşməyin və əsəbi adamlardan da uzaq gəzin.





## BARMAQ İZLƏRİ BELƏ DANIŞIR

Etiraf etməliyik ki, qanuni oğrular bu gün cəmiyyətə çox böyük nüfuz etməkdədirlər və demək olar ki, həlledici, böyük söz sahibidirlər. Bu səbəbdən cəmiyyətdə kriminal hadisələr çoxalmışdır.

Bütün bunları nəzərə alıb, kriminal aləmə də elmiladunla bir nəzər salmaq qərarına gəldim. Qeyd edim ki, bu aləmin əsas "atributu" barmaq izləridir. Odur ki, bu sahəni işıqlandırmağa da elə buradan başlayaq.

Bildiyimiz kimi, barmaq izlərini araşdıran dünyəvi elm DAKTİLOSKOPİYA adlanır. Bütün elmlərin mənbəyi “Quran”dadır. Bəs Daktiloskopiya necə? Bu elm müqəddəs kitabda necə əksini tapıb?

İnsanın anatomik quruluşunda olan saysız-hesabsız hikmətlərdən biri də barmaq izləridir. Dünya yaranandan nə qədər insan gəlib-getsə də, heç birinin barmaq izləri bir-birinə bənzəmir. “Quran”da bu mövzuda cəmi bir ayədə söhbət açılaraq bildirilir ki, qiyamət günü insanlar dirildilərkən, həmin izlər olduğu kimi bərpa olunacaq və əməlləri ona həmin izlərlə sübut olunacaq:

***"Bəli, Biz onun barmaqlarını da*** *(barmaq izlərini)* ***düzəltməyə qadirik!" “****Quran”, 75:4*

Elmi-ladun mənə işarə verdi ki, “Quran”ın birinci ayəsindən başla, 75-ci surənin 4-cü ayəsinə qədər say, gör nə görəcəksən.

Mən də tənbəllik etməyib saymağa başladım. Həmin barmaq izlərindən bəhs edən yeganə ayəyə çatanda gördüm bu “Quran”ın **5555**-ci ayəsidir. Deyəcəksiniz ki, nə olsun?

Buradakı hikmət ondan ibarətdir ki, insanda iki əl və iki ayaq olmaqla, hər birində **5** barmaq vardır. Bunların dördünü yanaşı qoyduqda **5555** ədədi alınır ki, bu da **"Qiyamət"** (75) surəsinin 4-cü ayəsini göstərir: ***"Bəli, Biz onun barmaqlarını da*** *(barmaq izlərini)* ***düzəltməyə qadirik!"*** *Quran, 75:4 (5555-ci ayə).*

Bu və digər hikmətlər onu göstərir ki, "Quran"ın ifadələri Allaha məxsus olduğu kimi, onun düzülüşü və nömrələnməsi də Rəbbimə məxsusdur.

Odur ki, əməllərinizə diqqət edin. Çalışın ki, barmaq izləriniz ancaq gözəl əməllərin üzərində qalsın. Çünkü, hansı vəzifədə işləməyinizdən asılı olmayaraq, bir gün mütləq əməlləriniz araşdırılacaqdır!





## GÜL BECƏRMƏYİN İNSAN XARAKTERİNƏ TƏSİRİ

**“Gül əkin, gül becərin!”** Bu tövsiyə Nostradamusun kitabında yer alıb və bu cümlənin alt qatında çox böyük mənalar gizlənir. İndi biz sizinlə birlikdə bu mənaların seyrinə dalmağa çalışaq.

İnsan oğlunun məşğul olduğu sahə mütləq onun xarakterinə təsir edir. Bunu adi həyatda, istənilən peşə sahiblərinə diqqətlə nəzər saldıqda aydın görmək mümkündür. Bu mənada insan hər gün vaxtının bir neçə saatını gül bəsləməyə sərf edərsə, bir neçə ildən sonra güldə olan zərifliyi, gözəlliyi, təravəti, ətri həmin adamın xarakterində müşahidə etmək mümkündür *(yəqin bu səbəbdən idi ki, Osmanlı dövlətinin qanunlarına görə hər bir qəssab ilin bir ayını gülçülük təsərrüfatında işləməyə məcbur edilirdi).*

Nostradamus bu deyimlə qadınları da nəzərdə tuta bilərdi. Çünki, təbiətin gözəlliyi gül-çiçək olduğu kimi, cəmiyyətin də gözəlliyi qadınlardır. Məlum bir aforizmdə bu barədə necə də gözəl deyilmişdir:

*Qadına gül vermək böyük qəbahət -*
*Çünki özü güldür, qoxur təravət.*

Onlarla da təmas insana (kişiyə) nəvaziş, incəlik təlqin edir (qadın olmayan kollektivlərdə həmişə kobudluq hökm sürür).

Nostradamus bu deyimlə övladlara da işarə vura bilərdi. Çünki, onlar da bizim gül balalarımızdır və onlarla da təmas insanın xarakterinə müsbət təsir edir. Övladın qoxusu hər bir valideyn üçün əvəzolunmaz ətirdir. Allah hamınızın balalarınızı xoşbəxt eləsin!

Fürsəti qaçırmayın - gül əkin, gül becərin...





## SƏNƏTKARA ÖZ YERİNDƏ QİYMƏT VERİLMƏZ

Sənət adamı olan dostlarımın demək olar hamısı gileylənirlər ki, kənar yerlərdə sənətimizə yüksək qiymət verildiyi halda, öz doğulduğumuz yerin insanları bizə qiymət vermirlər.

Bəzi dostlarım bunu yaşadığı yerin əhalisinin qədirbilməzliyi, sənətdən baş çıxarmaması kimi qiymətləndirirlər.

Bilməlisiniz ki, bunun səbəbi, "günahı" heç də yaşadığınız yerin əhalisində deyildir. İnanmırsınızsa, sizə yüksək qiymət verilən yerlərdə yerli sənətkarlardan soruşun, görün onlara həmin yerdə qiymət verirlərmi? Əlbəttə "*yox*" deyəcəklər.

Bu problemlə tək bir sənətlə məşğul olanlar deyil, bütün sənət sahələrinin sənətkarları qarşılaşırlar. Odur ki, məsələnin kökünə bir nəzər salmağı lazım bildim.

El arasında *"Öy (ev) buzoyundan öküz olmaz"* məsəli təsadüfən yaranmayıb. İnsan cəmiyyəti yaranandan yanaşma bu cür olub.

Ona görə də, bizdən qabaq yaşamış aqillər başqalarından fərqli qabiliyyəti, istedadı olan adamlara (*sənətkarlara*) məsləhət görmüşlər ki, öz sənətinizlə yüksəlmək və ad-san qazanmaq istəyirsinizsə, mütləq yaşadığınız yeri tərk etməlisiniz.

Bunu belə izah edirlər ki, əgər sən xüsusi istedada sahib olub, məsələn, bir elmi kitab, yaxud bir əsər yazmısansa, yaşadığın yerin adamları onu oxuduqca, gözlərinin qabağına sənin uşaqlıqda onlarla bərabər etdiyin günah işlər gələcək... və beləliklə də sənin elmin o günahların kölgəsində qalacaq və həmin əhalinin gözlərində dəyərsiz olacaq.

***Dağ ancaq uzaqdan əzəmətli görünər***

Sənin gəncliyindən və uşaqlığından (günahlarından) xəbərsiz olan uzaq yerin əhalisi isə, sənin kitabına və yaxud, istedadına yüksək qiymət verəcəklər. Çünki, onların sənin uşaqlığından, gəncliyindən xəbərləri yoxdur.

Bilməlisiniz ki, dağ nə qədər uzaqda olsa, onun əzəməti bir o qədər böyük görünər. Üstünə çıxanda isə, insan özünü o dağdan da əzəmətli hiss edər. Beləliklə də, insanın gözündə həmin dağın əzəməti itib gedər.

Bu səbəbdən insanlar xoşbəxtliyi həmişə uzaqlarda axtarırlar. Daha bilmirlər ki, yaxınlaşanda onsuz da o əzəmətdən əsər-əlamət qalmayacaq...

Ona görə də çalışın ətrafınızdakıları qiymətləndirəsiniz. Nə qədər çətin olsa da...





## CƏMİYYƏTİN ÇÜRÜMƏSİ İLƏ NARIN ÇÜRÜMƏSİ BƏNZƏR PROSESDİR

***"İçərinizdə insanları yaxşılığa çağıran, xeyirli işlər görməyi əmr edən və pis əməlləri qadağan edən bir camaat olsun! Bunlar** (bu camaat), **həqiqətən nicat tapmış şəxslərdir".** "Quran", 3:104.*

Son dövrlər Azərbaycanda baş verən mənəvi aşınma cəmiyyəti çürütməkdədir ki, bu da hər bir düşünən insanı narahat edir. Yeri gəlmişkən, insan təbiətin bir üzvü olduğundan, cəmiyyətimizdə baş verən çürümə prosesini təbiətin digər sahələrində gedən çürümə ilə müqayisə edək. Onu da qeyd edək ki, Allah yaratdığı bütün heyvan və bitkiləri insanlara nümunə olaraq yaratmışdır. Məsələn, "Quran"ın "Bal arısı" surəsində açıq-aşkar göstərilir ki, Biz bal arısını dövlət, ordu, ailə qurmaq və onları idarə etmək üçün insanlara nümunə yaratdıq. Eləcə də bir çox meyvələr kollektiv yaşamaq və birgəyaşayış qaydalarına əməl etmək üçün insanlara nümunədir. Məsələn, götürək narı. Narın dənələri cəmiyyətin fərdlərinə işarədir. **Allah hər bir gilənin qidasını kapilyarlar vasitəsi ilə özünə çatdırdığı kimi, hər bir bəndəsinin də ruzisini özünə çatdırır.** İnsanın nardan öyrənəcəyi, nümunə götürəcəyi çox şeylər vardır. Təəssüflər olsun ki, cahilliyimiz öyrənməyimizə, gördüyümüzdən nümunə götürməyimizə

imkan vermir. Ağıl sahibi olsaydıq, görərdik ki, narın dənələri özlərinə gələn ruziyə qane olurlar və digər gilənin ruzisinə şərik olmurlar (qidasını mənimsəmək üçün biri-digərini əzmirlər). Bununla da birgəyaşayış qaydalarına əməl etməklə, kamillik (yetişkənlik) mərhələsinə çatırlar.

İnsan cəmiyyətində isə, bu nizama demək olar ki, əməl olunmur. İnsanların böyük əksəriyyəti cahil və nadan olduqlarından, özlərinə gələn ruzi ilə kifayətlənməyib, başqalarının da var-dövlətini mənimsəmək üçün onları əzməklə məşğuldurlar. Buna nail olduqdan sonra isə, əzən fərd özündən daha güclü fərd tərəfindən əzilir və bu proses dayanmadan davam edir... Bu əzilmələr, sıradan çıxmalar məhz birgəyaşayış qaydalarına (yaradılış qanunauyğunluqlarına) əməl etməməyin, gördüyümüzdən ibrət almamağın nəticəsidir.

### *Cəmiyyətdə gedən çürümə prosesini bu cür dayandırmaq olar*

Narda ibrət alınası digər məqam onun daxilində - təbəqələr arasında olan pərdələridir. **Təcrübə göstərir ki, narın daxilində çürümə ilk növbədə pərdədən başlayır: pərdə çürüyüb qurtardıqdan sonra dənələr** (oxu: fərdlər) **çürüməyə başlayır. İnsanlar bundan ibrət götürüb cəmiyyətin müxtəlif təbəqələri arasında pərdələri qoruyub saxlamalıdırlar.**





Məhz bu səbəbdən yaşadığımız cəmiyyətdə gedən çürümə prosesini narda gedən çürümə ilə müqayisə etdik. Təəssüflər olsun ki, bu gün dünyada aparılan məqsədyönlü siyasət nəticəsində yaşadığımız cəmiyyətdə pərdələr demək olar ki, götürülüb. Pozğun həyat tərzi və açıq-saçıqlıq təbliğ edilərək, insanların həyat normasına çevrilib. Bu da cəmiyyətin mənəvi çöküşünə və Allahın qəzəbinə səbəb olmuşdur. Bu barədə Rəbbim "Qurani-Kərim"də belə buyurur:

*“Ey Adəm oğulları! Ayıb yerlərini özlərinə göstərmək üçün libaslarını soyundurub valideyninizi (və yaxud Adəm və Həvvanı) Cənnətdən qovdurduğu kimi, Şeytan sizi də aldadıb yoldan çıxartmasın. Şübhəsiz ki, o (Şeytan) və onun camaatı sizləri sizin onları görə bilmədiyiniz yerlərdən görürlər. Biz şeytanları iman gətirməyənlərin dostları etdik.*

*Onlar bu cür ədəbsizlik etdikləri zaman: “Atalarımızı belə gördük. Bunu bizə Allah əmr etmişdir”, - deyirlər. De: “Allah ədəbsizlik əmr etməz. Allaha qarşı bilmədiyiniz şeyimi deyirsiniz?”* 7:27-28.

Açıq-saçıqlığı tənqid etdiyimiz zaman elə bilməyin ki, biz bütün qadınların çadraya bürünüb evdə oturmalarını təbliğ edirik. Əsla yox! Təcrübə göstərir ki, çadraya bürünməmiş də qadın abırhəyasını, ismətini qoruya bələr. Sadəcə, ciddi və əxlaqlı qadınlar geyim tərzinə görə digər (küçə) qdınlarından fərqlənməlidirlər. Yəni, insan küçədə qarşısına çıxan qadının geyiminə baxarkən, onun əxlaqlı, yaxud, əx-

laqsız (sahibli, yxud, sahibsiz) olduğunu sezməlidir. Allah da "Quran"da bizlərə məhz bu mesajı verir. Belə ki, örtünməklə bağlı olan ayədə məhz belə buyurulur:

*"Ya Peyğəmbər! Zövcələrinə, qızlarına və möminlərin övrətlərinə de ki, evdən çıxdıqda cariyələrə oxşamasınlar deyə, örtüklərini örtsünlər. Bu, onların tanınması (cariyə deyil, azad qadın olduqlarının bilinməsi) və onlara əziyyət verilməməsi üçün daha münasibdir. Allah bağışlayandır, rəhm edəndir!" "Quran", 33:59.*

Bu ayə o vaxt nazil oldu ki, müharibədə əsir alınan və iman gətirməyən qadınlar vardı ki, onlar hüquqsuz olduğundan küçədə onlara sataşırdılar. Bəzən elə olurdu ki, cahil insanlar küçədə mömin (hüquqlu) qadına da sataşırdılar (onları cariyələrdən ayırd edə bilmədikləri üçün). Bütün bu yaramazlıqların baş verməməsi üçün yuxarıdakı ayə nazil oldu ki, mömin (sahibli) qadınlar öz geyim tərzlərinə görə əsir alınmış (sahibsiz) qadınlardan fərqlənsinlər. Bu fərqlilik o vaxt ancaq baş örtüyü ilə ola bilərdi. Çünki o dövrün qadınları hamısı uzun libas geyinirdilər. Onları ancaq baş örtüyü ilə bir-birindən (azad qadını cariyədən) fərqləndirmək olardı.

İndiki dövrdə isə, cəmiyyətimizdə əsir (cariyə) qadınlar olmasa da, küçə qadınları (yaxud bar qadınları) kimi qəbul edilən bir təbəqə mövcuddur ki, onlar öz açıq-saçıq geyimləri ilə başqalarından fərqlənirlər. Təəssüflər olsun ki, cəmiyyətimizdə belə bir tendensiya müşahidə edilməkdədir ki, əxlaqlı (sahibli) qadınlar geyim tərzləri ilə artıq onlarla (sahibsizlərlə) bəhsə girirlər. Beləliklə də küçədə rastlaşdığımız qadınların hansının sahibli, hansının sahibsiz (bar qadını) olduğunu müəyyənləşdirmək bir çox hallarda çətinlik törədir. Bu da Allahın qəzəbinə gətirib çıxaran və cəmiyyətin çürüməsinə səbəb olan əlamətlərdəndir. Bunu aradan qaldırmaq istəyənlər yaxşı olar ki, başlarını bağlamırlarsa, heç olmasa küçə qadınlarından fərqlənən (bədəninin müəyyən yerləri görünməyən) paltar geyinsinlər.





## *Haqqı tələb edənlər özləri HAQQA boyun əyməlidirlər!*

Son dövrlər insanlarımızda müşahidə edilən neqativ əlamətlərdən biri də çoxluğun verdiyi sözə (vədə, əhdə) əməl etməmələridir. Yəni, insanlar etməyəcəkləri bir şeyi çox məsuliyyətsizcəsinə vəd edib, boyunlarına götürürlər. Sabah həmin əhdə (verdikləri sözə) əməl etməyərək çox böyük günaha yüklənirlər (!). Beləliklə, insanlarımızın böyük əksəriyyəti cahillikləri ucbatından özlərini günaha yükləyirlər və Allahın qəzəbinə gətirirlər. Çünki vəd barəsində Allah xüsusi ayə göndərib və verdiyimiz sözə görə bizim sorğu-sual olunacağımızı bildirib:

*"Əhdə vəfa edin! Çünki insan əhd barəsində* (tək söz verdiyi adama deyil, həm də) *Allah qarşısında cavabdehdir".* "Quran", 17:34.

Təcrübə göstərir ki, hansı qövm yolun azarsa, pər-

dələri aradan götürərsə, ona müxtəlif bəlalarla yanaşı, həm də qəddar, insafsız başçılar qismət olar. Allah bu cür rəhbərlərin əlilə həmin milləti cəzalandırar. Həm də belə rəhbərlərin ayağı ilə ölkədən xeyir-bərəkət çəkilər, yoxsulluq, səfalət, aclıq baş alıb gedər:

*“Beləliklə, hər bir obanın günahkarlarını oranın başçıları təyin etdik ki, onlar orada bacardıqları qədər məkrlə məşğul olsunlar. Onlar yalnız özlərinə qarşı məkr edərlər, lakin* (bunun) *fərqinə varmazlar”.* “Quran”, 10:123.

Bunu dərk edən aqillər tövsiyə etmişlər ki, əgər zalım bir rəhbərlə qarşılaşmısınızsa, onu dəyişməyə çalışmaqdansa, özünüzü dəyişin. Çünki “Quran”da buyurulduğu kimi, hakimiyyət Allaha məxsusdur və onu istədiyi vaxt (millətin layiq olduğu formada) dəyişməyə qadirdir. Deməli, yaxşı (insaflı, ədalətli) rəhbər arzulayan millət ilk növbədə öz əxlaqı və əməllərilə buna layiq durumda olmalıdır!

Müşahidələrimiz göstərir ki, millətimiz haqqı tələb etdiyi halda, özü Haqqa boyun əymir – bu və ya digər formada başqalarının haqqını tapdalayır (əziyyət verir). Odur ki, ***haqqı tələb edənlər özləri HAQQA boyun əyməlidirlər***!





## CAHİL İNSAN KAL ƏNCİR KİMİDİR – DİYİRLƏNİB KÖKÜNDƏN UZAQLAŞAR

Yuxarıdakı yazımızda cəmiyyətdə gedən mənəvi aşınma, çürümə prosesini narın çürüməsi ilə müqayisə etdik. Bildiyimiz kimi, cəmiyyətin çürüməsi, mənəvi aşınma ilk növbədə gənclərə təsir edir və onların yetkinləşməsinə mənfi təsir göstərir. Son dövrlər gənclərin milli-mənəvi dəyərlərdən sürətlə uzaqlaşması və Avropanın parıltılı həyatına meyillənməsi də məhz bununla əlaqədardır.

Bunu əncir ağacının meyvələri ilə müqayisə etmək olar. Belə ki, əncirin üstündəki meyvələr həm kal, həm də dəymiş olarkən tökülürlər. Fərq ondadır ki, yetişmiş əncirlər ağacın kökünə düşüb orada öz toxumları ilə yenidən cücərdiyi halda, kal meyvələr tökülərkən diyirlənib ağacın kökündən uzaqlaşırlar. Ətrafımızdakı insanlara dərindən nəzər salsaq, eyni mənzərəni görərik: yetkin insanlar əslinə, kökünə, milli dəyərlərə sadiq qaldıqları halda, cahillər bütün bu dəyərlərdən nəinki uzaqlaşırlar, hətta dəyərlərə qarşı mübarizə aparmağa başlayırlar. Nəticədə mənəvi aşınma sürətlənir və cəmiyyət çürüməyə doğru gedir.

Elmi-lədun araşdırmalarımız göstərir ki, bütün bunlar təsadüfən baş verməyib, məqsədyönlü siyasətin nəticəsidir. Bu siyasət dünyaya sahiblənmək istəyən

masson lojaları tərəfindən yönləndirilir. Bu gün dünyanı əslində mafiyalar idarə edirlər; olkələrdəki hakimiyyətlər hər biri bu mafiya zəncirinin bir həlqəsidir. Onlar ən böyük zərbəni xalqın mənəviyyatına, əxlaqına vururlar. Bunu da KİV vasitələri ilə həyata keçirirlər. Belə ki, televiziyalarda, qəzetlərdə, saytlarda əxlaqsız müğənniləri və s. bu qəbildən olanları önə çıxararaq, insanların gözünə soxmaqla, pozğunluğu təbliğ edən serial və filmləri nümayiş etdirməklə insanların tərbiyəsinə, əxlaqına sağalmaz yaralar vururlar. Əxlaqı pozuq insanlar isə, o qədər cılızlaşar ki, öz dəyər-qiymətni bilməz və heç vaxt böyük ideyalar, amallar, bəşəri dəyərlər uğrunda mübarizə aparmazlar (indiki kimi). Belə insanlar özlərini çox ucuz satarlar ki, bu da massonlara sərf edən bir vəziyyətdir. Bütün bunlara görə bu gün Azərbaycanda əxlaq faciəsi hökm sürür...

Onu da qeyd edək ki, dünyanı yönləndirən mafiyalar (massonlar) demokratiyanı, haqq-ədaləti ancaq avropalılar üçün nəzərdə tutublar. Onlar Azərbaycana və digər şərq ölkələrinə ancaq xammal bazası kimi baxırlar. Ona görə də bu cür dövlətlərə sözəbaxan, özlərinə tabe olan rəhbərlər təyin edib, onların əli ilə sərvətləri talamaqla məşğuldurlar.

Taladıqları haram sərvətlərdən kiçik bir hissəni də həmin dövlətlərin siyasi cəhətdən fəal kəsiminə qrant adı ilə ötürürlər ki, onlar səslərini kəssinlər və xalq üçün yalançı bir ümid yerinə çevrilsinlər. Siyasi partiyaların qorunub saxlanması ölkədə yalançı bir demokratiya imici yaradır. Həm də xalqın fəal hissəsi başqa ideyalar (İslam və s.) ətrafında birləşməyə meyl etmirlər. Hamı ümidini siyasi təşkilatlara bağlayır. Beləliklə, millətin ümidlərini də nəzarət altında saxlayırlar.





Onu da bilməliyik ki, siyasi partiyalara qrant ayıran fondların bəzilərinin rəhbərləri Dünyada qadın ticarətinə rəhbərlik edirlər. Belə çirkli pulların bir hissəsini də Azərbaycandakı siyasi hərəkatlara ötürdüklərinə görə buradakı xalq hərəkatı haramlaşdı, çirkaba bulaşdı. Massonlar bunu qəsdən etdilər. Çünki, onlar bilirlər ki, müqəddəs ideyaların qarşısını almağın əsas yolu onu haramlaşdırmaq, çirkaba batırmaqdır. Ona görə də son dövrlər aparılan mübarizələr heç bir effekt vermir.

Araşdırmalarımız göstərir ki, cəmiyyəti mənəvi cəhətdən aşındıran, çürüdən səbəblərdən biri də qanunların düzgün tərtib edilməməsidir; yəni, yaradılış qanunları ilə uzlaşdırılmamasıdır. Belə ki, qanunverici orqanlarımız heyvanlar haqqında qanun qəbul edərkən, onların bütün xüsusiyyətlərini (balalama dövrü, ovlanma dövrü və s.) nəzərə aldıqları halda, insanlar üçün qəbul etdikləri qanunda bu xüsusiyyətlər nəzərə alınmır. Belə ki, bildiyimiz kimi, bütün dövrlərdə və cəmiyyətlərdə qadınların sayı kişilərinkindən daim üstün olur. Bundan əlavə isə, qadın cinsindən olanlar 15 yaşdan sonra yetkinliyə çatırlar və ailə qurmağa can atırlar (və yaxud bioloji tələbatlarını ödəməyə meyilli olurlar). Qadınlarda hətta 70-80 yaşda da ailə qurmaq şansı yaranarsa, bu onlarda problem yaratmır (fizi-

ki cəhətdən buna qadir olurlar). Kişilərdə isə, belə deyildir. Onlar adətən 20 yaşdan sonra ailə qurmağa meyl edirlər (əgər maddi imkanları yol verirsə). 60 yaşdan sonra isə, kişinin ailə qurması fiziki cəhətdən nadir hallarda mümkün olur. Bütün bu və digər (kişilərin ruzi dalınca səfər etmələri, hərbiyə və s. getmələri) faktları nəzərə alanda görürük ki, bütün cəmiyyətlərdə ailə qurmaq istəyən qadınlarla kişilər (tələblə təklif) arasında ən azı üç-dörd dəfə fərq olur. Yəni, ailə qurmağa qabil olan hər bir kişiyə azı 3-4 qadın düşür. Məhz buna görə də hər şeyi qabaqcadan görən və problemləri nəzərə alan Rəbbim bir kişiyə zərurət yaranarsa, dördə qədər qadınla evlənməyə icazə verir:

*“... Sizə halal olan (bəyəndiyiniz) qadınlardan iki, üç və dörd nəfərlə nikah bağlayın! Əgər onlarla ədalətlə dolanmağa əmin deyilsinizsə, o halda təkcə bir nəfər azad qadın və ya sahib olduğunuz kənizlə evlənin. Bu, ədalətli olmağa daha yaxındır”.* “Qadınlar” surəsi, 3-cü ayə.

İndi gəlin görək qanunverici orqanlar bu yaradılış qanunlarını nəzərə alırlarmı? Nəzərə alsaydılar, hər halda cəmiyyətimizi çürüdən hallar (fahişəlik, zinakarlıq, qadın ticarəti və s.) bugünkü kimi tüğyan etməzdi.

Oxucuda haqlı sual yaranacaq ki, parlamentlər niyə insanlar haqqında qanun qəbul edərkən onların bioloji xüsusiyyətlərini nəzərə almırlar? Almayanda bu cür pozğun həyatla qarşılaşırıqsa, bəs alsalar nə baş verərdi?





Araşdırmalarımız göstərir ki, bu gün dünyada qadın ticarətinə nəzarət edənlər Avropada oturan və beynəlxalq fondlara rəhbərlik edənlərdir. Onlar demokratiya adı altında ikinci, üçüncü qurup ölkələrin parlament seçkilərinə qrant ayırmaqla, yaxud öz nüfuzlarından istifadə edərək birbaşa idarəçilərə təsir etməklə, qanunların yaradılış qanunları (insanın bioloji xüsusiyyətləri) ilə uzlaşdırılmasına heç vəchlə imkan vermirlər. Çünki bu halda “tələblə təklif” bərabərləşər, qadın artıqlığı yaranmaz. Beləliklə də dünyada qadın ticarətinə böyük zərbə dəyər (qadınların sayı artıq olmasa və onlar öz tələbatlarını ödəməyə yollar axtarmasalar, qadın ticarətinə də şərait yaranmaz).

Heç öz-özünüzə sual vermisinizmi niyə Avropa və oradan yönləndirilən (təsir dairəsində olan) dövlətlərin qanunlarında bir kişinin saysız-hesabsız qadınlarla (yaxud qadının çoxlu kişilərlə) qeyri-rəsmi şəkildə (vətəndaş nikahı adıyla) birgə yaşamasıına icazə verildiyi halda, niyə rəsmi (qeydə alınmış) şəkildə buna icazə verilmir? Bu, ona bənzəmirmi ki, ağacdakı meyvəni oğurluq yeyə bilərsən, amma icazəli (halal) yeyə bilmərsən (?). Bu, anormallıq deyilmi?

***Niyə belə edirlər?***

Səbəbi odur ki, əgər buna rəsmi icazə verilərsə, bekar (ərsiz) qadınların sayı azalar və bu da qadın ticarətinə, qadın alverinə zərbə vurar (!). İndi sizə aydın oldumu ikinci, üçüncü qrup ölkələrə öz fərdi fondundan milyardlarla pul buraxan adamlar bu pulu haradan və

necə qaytarırlar? Məhz QADIN TİCARƏTİNDƏN!

Bu gün biz (və bir çox cəmiyyətlər) bunun acılarını yaşamaqdayıq. Cəmiyyətimiz çürüyür və o, bu gün əxlaq faciəsi ilə üzləşib. Qadınlarımız rəsmi şəkildə ailə qurmaqda çətinlik çəkdiklərindən, öz bioloji tələbatlarını qeyri-rəsmi (zinakarlıqla) ödəmək məcburiyyətində qalırlar. Bu da qorxuya, stresə, əsəb gərginliyinə və bir çox xəstəliklərin yaranmasına, cəmiyyətin pozulmasına gətirib çıxarır...

Amma, insanlarımız (əsasən də qadınlarımız) nəzərə alsınlar ki, Allah hər bir çətinlikdən çıxmaq üçün yollar qoyub. Yəni, sizin bəyəndiyiniz kişilə nikahınıza dövlət qanunları rəsmi icazə vermirsə (qeyri-rəsmi əlaqəyə icazə verir), onda heç olmasa, əlaqənizi Allahın Kitabına uyğun qurun: (ən azı) dörd nəfər etibarlı şahid tutun və onların qarşısında ər-arvad olduğunuzu elan edin və üzərinizə şəriətə müvafiq ər-arvadlıq məsuliyyəti götürün. Bu cür nikahı dövlət tanımasa da, heç olmasa Allah dərgahında qəbul ediləcək və siz bir-birinizə halal olacaqsınız. Bu, nə qədər yaxşı olmasa da hər halda zinakarlıqdan, günaha batmaqdan, yalançı siğədən, qorxu və həyəcan keçirməkdən çox yaxşıdır. Həm də yaşadığımız cəmiyyəti (gəmini) aşınmadan və çürümədən qorumuş olarıq.

*"... İçərinizdən iki ədalətli şahid tutun. Siz də, ey şahidlər! Allah üçün doğru şahidlik edin! Bununla Allaha və axirət gününə iman gətirənlərə öyüd-nəsihət verilir. Kim Allahdan qorxsa, Allah ona hər çətinlikdən bir çıxış yolu əta edər".* "Quran", "Boşanma" surəsi, 2-ci ayə.





## BAR VERƏN AĞAC ƏKİN

***"Biz onların** (kafirlərin) **yurdunu viran qoyub, yerində yulğun bitirərik".** "Quran".*

Aqil insanlar həmişə bar verən ağac əkərlər ki, gələcək nəsillər onların zəhmətindən fayda görsünlər və onlara rəhmət oxusunlar.

Cahillər isə, bunun fərqinə varmazlar, barsız ağac əkərlər. Bu da onların paxıllığını, qəlbi darlığını büruzə verər. Yəni, cahillər istəməzlər ki, əkdikləri ağacın meyvəsini gələcəkdə kimsə yesin.

Son dövrlər küçələrə həmişə barsız ağaclar əkilir. Ən pisi də odur ki, enliyarpaqlı yox, iynəyarpaqlı ağaclar əkirlər. Bu ağacların ətrafa nə qədər neqativ enerji ötürdüyünü bilsəniz, heç buralarda yaşamaq istəməzsiniz. Bunu öz üzərinizdə aydın hiss etmək istəyirsinizsə, iynəyarpaqlı ağacın (el arasında bunlara "yolka" deyirlər) kölgəsində olan kafedə oturub bir çaynik çay için. Özünüzdə baş ağrısı, yorğunluq hiss edəcəksiniz. Enliyarpaqlı ağacların kölgəsi isə, əksinə, yorğunluğu çıxarır, insana rahatlıq gətirir. Meyvə ağacının kölgəsində isə, daha xoş əhval-ruhiyyə hiss etmək mümkündür.

Bunu onunla müqayisə etmək olar ki, küçədə bəzi adamlar qarşımıza çıxanda əhvalımız korlanır (baxmayaraq ki, onların bizə bir pisliyi keçməyib), bəzi adamlardan isə, bizə xoş əhval gəlir (onların bizə yaxşılığı

dəyməsə də). Ağaclar da belədir – bəzilər xoş təsir etdikləri halda, digərləri (iynəyarpaqlılar) neqativ təsir edir.

Bu hal kimyəvi elementlərdə də özünü büruzə verir. Belə ki, dövri cədvəldəki elementlərdən çoxu ikili xassəyə malikdirlər – qarşılaşdıqları elementdən aslı olaraq gah mənfi, gah da müsbət xassə nümayiş etdirirlər.

Qeyd edim ki, insanlarda, bitkilərdə və kimyəvi elementlərdə müşahidə olunan bu xüsusiyyət heyvanlarda da özünü qabarıq büruzə verir. Məsələn, yolda gedərkən qarşımıza bir ceyran, yaxud maral şıxsa necə sevinəriksə (baxmayaraq ki, onlardan bizə maddi fayda gəlməyəcək), ilan, yaxud vəhşi heyvan çıxsa o qədər qorxub, narahat olarıq...

Arabir Bakı kəndlərinə yolum düşəndə yol qırağında tikilmiş zəngin imarətlərin həyətlərinə gözucu nəzər salıram; böyük əksəriyyətinə iynəyarpaqlı ağaclar əkiblər. Onları görəndə heyrətdən donub qalıram: insan bu qədər xərc çəkib torpaq alıb, imarət tikdirib, həyətinə 5-6 meyvə ağacı əkmir ki, gələcəkdə kimsə ondan üzüb yeyəndə könülləri xoş olsun və əkənə rəhmət oxusunlar...

Barsız ağaclar əkirlər, sonra da gedib marketdən siçan, əqrəb, donuz geni daşıyan meyvələri alıb gətirib övladlarına yedizdirirlər. Dərk etmirlər ki, o meyvələri yeyən uşaqlar tədricən valideynlərinin yox, meyvədəki heyvan genlərinin daşıyıcısına çevrilirlər...





## *Ölüsünə ehsan vermək istəyən 12 ədəd meyvə ağacı əksin*

Meyvə ağacından söz düşmüşkən, ölüsü üçün ehsan vermək istəyənlərə tövsiyə olunur ki, mərhumun ehsanı üçün 12 ədəd meyvə ağacı əksinlər. Ölən adamın varisləri o ağaclara ehtiramla yanaşsınlar və qulluq etsinlər. Ağacların meyvələrini hər il yetimlərə və imkansızlara paylayıb, ölən adam üçün dua etmələrini xahiş etsinlər. Onların hər il etdikləri dualarla ölən adamın günahları ya tamam, ya da qismən bağışlanır (çünki, valideyn dünyasını dəyişsə də, övladların etdikləri yaxşı əməllər onun əməl dəftərinə yazılır və savab qazandırır).

Ölən adam əgər çoxlu var-dövlət qoyub gedibsə, ölən günü həmin var-dövlətdən 40 yetimi doyuzdurmaq tövsiyə olunur (və yaxud, heyvan kəsib, 40 yetimin evinə pay göndərmək olar).

Mərhumun ilində isə, yeddi yetim doyuzdurmaq tövsiyə olunur.

Mərhum yuxunuza girirsə, üç yetim doyuzdurun.

Söz ardı: ancaq yetimlərə (və yoxsullara) verilənlər Allah dərgahında ehsan olaraq qəbul edilir.

# QURANIN BAĞLI AYƏLƏRİNİN SİRLƏRİ

***Elmi-lədun işığında***



## “QURAN”IN BAĞLI AYƏLƏRİNİ DƏRK ETMƏK MÜMKÜNDÜR

“Quran”da 30 mütəşabih (bağlı, mənası bilinməyən) ayə vardır ki, bugünədək mənası açılmamışdır. Bu haqda Rəbbim belə buyurur:

*“Sənə Kitabı nazil edən Odur. Onun (Kitabın) bir hissəsi möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə, mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahın elm bəxş etdiyi şəxslərdən) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: “Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır”, - deyərlər. Bunları ancaq ağıllı adamlar dərk edərlər”. "Quran", “İmran Ailəsi” surəsi,7-ci ayə.*

“Quran”ın bağlı ayələrindən bəhs edən bu kəlamlardan məlum olur ki, onların mənasını Allah və bir də Onun Özünün elm bəxş etdiyi şəxslər (elmi-ladun sahibləri) anlayarlar. Yəni, o şəxslər ki, onlar elmi birbaşa Rəbbimin Özündən vəhy yolu ilə qəbul etmişlər. Qeyd edim ki, bağlı ayələr “Quran”ın iyirmi doqquz surəsinin başlanğıcında gəlmişdir. Bunu nəzərə alıb,

"Quran"ın 29-cu surəsindən başlayaraq, müqəddəs kitab üzərində belə bir riyazi gəzişmə edək:

29-cu surə 69 ayədir;
69-cu surə 52 ayədir;
52-ci surə 49 ayədir;
49-cu surə 18 ayədir;
18-ci surə 110 ayədir;
110-cu surə 3 ayədir.
3-cü surə...

Beləliklə, gəlib çıxdıq mütəşabih (bağlı) ayədən bəhs etdiyimiz 3-cü ("İmran ailəsi") surəyə. Və bura qədər bir-birinə riyazi yolla bağlanan yeddi surə gəldik.

Bunu nəzərə alıb, 3-cü (!) surənin 7-ci (!) ayəsinə baxsaq, mütəşabih ayələrdən bəhs edən yuxarıdakı ayənin üzərinə gəlib çıxdığımızı görərik:

"Sənə Kitabı nazil edən Odur. Onun (Kitabın) bir hissəsi möhkəm (mənası aydın, hökmü bəlli), digər qismi isə mütəşabih (çətin anlaşılan, dəqiq mənası bilinməyən) ayələrdir. Ürəklərində əyrilik (şəkk-şübhə) olanlar fitnə-fəsad salmaq və istədikləri kimi məna vermək məqsədilə mütəşabih ayələrə uyarlar (tabe olarlar). Halbuki onların yozumunu (həqiqi mənasını) Allahdan (yaxud Allahın elm bəxş etdiyi şəxslərdən) başqa heç kəs bilməz. Elmdə qüvvətli olanlar isə: "Biz onlara iman gətirdik, onların hamısı Rəbbimizin dərgahındandır", - deyərlər. Bunları ancaq ağıllı adamlar





dərk edərlər". Quran, "İmran Ailəsi" surəsi, 7-ci ayə.

Bu, həm də onu sübut edir ki, insan beyninin məhsulu olmayan bu riyazi gedişlə həmin ayənin üzərinə gəlib çıxan adam, elə həmin ayədə xəbər verilən elm verilmiş adamdır ki, mütəşabih ayələri dərk edə bilir (bu riyazi gedişə ağılla fikir versək, bunun insan beyninin məhsulu olmadığını, yalnız Allahdan vəhy, elm qəbul etməklə mümkün olduğunu dərk edərik).

Amma, təəssüf ki, bu gün yaşadığımız cəmiyyət Allahdan vəhy, yaxud elm qəbul etməyin mümkünlüyünü həzm edə bilmir. Bu da imanın azlığı, yarımçıqlığı ilə əlaqədardır. İndi mütəşabih ayələri dərk etməklə bağlı təqdim edəcəyimiz bir hesablama (riyazi gediş) Allahdan bu gün də vəhy qəbul etməyin mümkünlüyünü ağıl sahiblərinə sübut edəcəkdir.

Bağlı ayələrin niyə məhz iyirmi doqquz surənin əvvəlində gəlməsinin mənası isə, bu ədədin keçən yazılarımda qeyd etdiyim kimi, həm Yer kürəsinin, həm də qiyamətin rəmzi olmasıdır. Belə ki, Yerin 29 faizi qurudur. Həmçnin, 29-cu surə 69 ayədən ibarətdir və 69-cu surə də "Haqq olan qiyamət" adlanmaqla, qiyamət rəmzi sayılır. Buradan aydın olur ki, bu iki ədəd bir-birinə bağlı ədədlərdir.

İndi isə, "Quran"dakı mütəşabih ayələrdən birinin hikmətlərinə nəzər salmağa çalışaq.

Yaradıcılığımı izləyənlər bilirlər ki, son 20 ildə Yerdə baş verən qiyamət əlamətlərini, təyyarə və enerji qəzalarını elmi-ladun üsulu ilə tədqiq edirəm (tədqiqat-

larımın nəticələrini bir neçə kitabımda və məqalələrimdə, həmçinin burada tirajlamışam).

### *“ƏLİF, LAM, MİM, SAD” bağlı ayəsi enerjiyə işarədir.*

Bu əsrdə baş verən və bir neçə ölkəni qaranlığa qərq edən enerji qəzalarını araşdırarkən, diqqəti çəkən ən maraqlı məqam onların “Quran”ın bağlı (mütəşabih) ayələri ilə əlaqələnməsidir. İindiyədək bəzi sirləri açmamaqçün onların bu məqamlarını şərh etməmişəm. Yeri gəlmişkən, burada elə həmin gizli saxladığım məqamlara aydınlıq gətirmək istəyirəm.

Belə ki, 2003-cü ilin 13 avqustunda Meksika, Kanada və Amerikada baş verən, dünyanın hegemon dövlətini bir həftə qaranlıqda qoyan müəmmalı enerji qəzası yəqin ki, çoxlarınızın yadındadır. Həmin hadisə baş verən gün elm və kamillik əsri olan XXI əsrin 955-ci günü idi.

Maraqlıdır ki, elm mənbəyi olan “Quran”ın 955 ci (!) ayəsi (başdan saydıqda) 7-ci surənin 1-ci (mütəşabih) ayəsidir:

“ƏLİF, LAM, MİM, SAD”

Burada diqqət çəkən maraqlı məqam bağlı ayədə hərflərin sayının 13 olmasıdır. Enerji qəzasının baş verdiyi tarix də 13-dür (13 avqust)!

Əvvəlki yazılarımda 13 ədədini təhlil edərkən, bunun “Göy gurultusu” surəsinin sıra nömrəsi olmaqla, il-





dırıma, enerjiyə (!) bağlı olması haqda çoxsaylı faktlar sadalamışdım.

Amerlkada baş verən enerji qəzasının baş verdiyi günün və həmin günlə uzlaşan “Quran” ayəsinin nömrəsinin 955 olduğunu nəzərə alıb, bu ədəddən “Quran”ın surələrinin (114) və səhifələrinin (286) sayını çıxaq:

**955 – 114 – 286 = 555**

Alınan 555 ədədi Quranda tövbə və cəza rəmzi sayılır (555 ədədi barədə yazının əvvəlində şərh vermişəm).

Yuxarıda bəhs etdiyim 955-ci (mütəşabih) ayənin hikmətlərini daha dərindən dərk etmək üçün burada hərflərin sayı olan 13 ədədinin digər mənalarına nəzər salaq.

Bununçün, əvvəlcə 3-cü surənin 13-cü ayəsinə (3:13) baxaq:

*“İki dəstənin qarşı-qarşıya durması sizin üçün dəlildir. Bunlardan biri Allah yolunda vuruşanlar, digəri isə kafirlər idi* (Möminlər 313 nəfər, kafirlər isə təqribən min nəfər idilər). (Möminlər kafirlərin) *onlardan ikiqat artıq olduqlarını öz gözləri ilə görürdülər* (yaxud kafirlər möminləri iki özləri qədər, yəni təxminən iki min nəfər və ya onların olduqlarından iki dəfə artıq, yəni altı yüzdən bir qədər çox görürdülər). *Əlbəttə, Allah istədiyinə Öz köməyi ilə qüvvət verər. Şübhəsiz ki,*

*bu bəsirət sahiblərindən* (gözüaçıq, ayıq adamlardan) *ötrü bir ibrət dərsidir”.* “Quran”, 3:13

313 nəfərdən bəhs edən əhvalatın məhz 3-cü surənin 13-cü ayəsində getməsi təsadüf sayıla bilməz (Quran məntiqinə görə həyatda təsadüf yoxdur).

Rəqəmlər üzərində tədqiqat aparan rəssam dostum Həmid Məhərrəmovun bu günlərdə 13 rəqəmi ilə bağlı mənə yazdığı bir hikməti də burada qeyd etməyim yerinə düşər: “1” rəqəmi ərəbcə “Əlif”ə, 3 rəqəmini isə çevirəndə “lam”a bənzəməklə, ərəbcə bu ədəd (13 yaxud 313) “Allah” sözünün bənzəridir **(bax: Allah sözünün ərəbcə yazılış formasına).**

Hesablamalarımız göstərir ki, 2003-cü ilin 13 avqustunda (əsrin 955-ci günü) Amerka kimi dünya hegemonu olan bir dövlətin (və onun ətrafındakı dövlətlərin) işığını bir həftəlik söndürməklə, Rəbbim həmin dövlətlərin rəhbərlərinə və sakinlərinə, onların simasında bütün bəşəriyyətə tövbə edib, doğru yola qayıtmaq üçün mesaj verirdi. Bu kodlaşdırılmış xəbərdarlığa məhəl qoymamağın nəticəsidir ki, bu gün dünyada fəlakətlərin ardı-arası kəsilmir.

Təəssüf, heç kəs düşünmür ki, bu gün televiziyadan izlədiyi mikro qiyamət sabah onun yaşadığı yerdə də baş verə bilər! Bundan sığortalanmaq üçün mütləq tövbə etməli və Allahın qoyduğu yolla getməlidir. Bizə məlumdur ki, bu əsrdə baş verəcək böyük qiyamətdən qabaq lokal (mikro) qiyamətlər baş verəcək ki, bununla da Yer kürəsi indiki murdarlıqlardan təmizlənərək,





özünün kamillik dövrünə qədəm qoyacaqdır.

Rəbbim yaratdığı bəndələrin hamısının bu kamillik dövründən bəhrələnməsini istəyir. Ona görə də bəndələrini xəbərdar edir ki, bəla gəlməzdən öncə tövbə etsinlər və qiyamət günü Allahın hüzuruna üzüağ getsinlər:

***“Özlərinə yalnız mələklərin, yoxsa Rəbbinin*** *(əzabının),* ***yaxud da Rəbbinin bəzi qiyamət əlamətlərinin gəlməsinimi gözləyirlər? Rəbbinin bəzi qiyamət əlamətləri gələcəyi gün əvvəlcə iman gətirməmiş və ya imanından bir xeyir qazanmamış şəxsə sonrakı imanı heç bir fayda verməz. De: “Gözləyin, doğrusu, biz də gözləyirik!”*** *Quran, 6:158.*

Ümid edirik ki, bu hikmətləri dərk edərək, insanlar tövbə edəcək, zülmə, harama, yalana, yaltaqlığa rəzalətə son qoyacaq, beləliklə də gələn bəlalardan sığortalanacaqlar.

## QƏDR GECƏSİNDƏKİ RİYAZİ QANUNAUYĞUNLUQ

Bildiyimiz kimi, Yerə endirilən dörd səmavi kitabın - Tövrat, Zəbur, İncil, Quran - hamısı Ramazan ayında nazil olub. Bu barədə "Quran"da belə buyurulur:

*“Həqiqətən, Biz onu (Quranı) Qədr gecəsi nazil etdik! Sən nə bilirsən ki, Qədr gecəsi nədir?! Qədr gecəsi min aydan daha xeyirlidir! O gecə mələklər və ruh (Cəbrayıl) Rəbbinin izni ilə hər bir işdən dolayı yerə enərlər. O gecə dan yeri sökülənə kimi (büsbütün) salamatlıqdır!”* “Qədr” surəsi, 1-5-ci ayələr.

Elmi-lədun araşdırmalarımız göstərir ki, "Quran"ın düzülüşündə böyük bir riyazi dəqiqlik vardır. Yəni, surələrin və ayələrin nömrələnməsi təsadüfi olmayıb, sirli bir qanunauyğunluğa tabedir. Bu qanunauyğunluq özünü “Qədr” surəsində və Qədr gecəsinin ehtimal olunduğu Ramazan ayının dörd (əhya adlanan) gecələrində də büruzə verir.

Belə ki, "Quran"ın “Qədr” surəsi 97-ci surədir və 5 ayədən ibarətdir.

Bunu nəzərə alıb, 97-ni 5-ə bölsək, **19** alınır və 2 qalıq qalır.

Qədr gecəsinin ehtimal olunduğu (gizləndiyi) Əhya gecələri isə, **19**-dan başlamaqla, bunlardır:

**19; 21; 23; 25.**





Maraqlıdır ki, bunların hər birinin üzərinə qalıqdakı 2-ni əlavə etdikdə, növbəti əhya gecəsinin tarixi alınır:

19 + 2 = 21;
21 + 2 = 23;
23 + 2 = 25;
25 + 2 = 27.

### *“Hər gecəni qədr bil”*

Yeri gəlmişkən, xalq arasında işlənən “Hər gecəni Qədr bil; hər gələni Xızır bil” məsəlinin də böyük bir fəlsəfi mənası vardır. İnsan hər gecə elə ibadət etməlidir ki, sanki Qədr gecəsi ibadət edir. Nə bilmək olar, bəlkə elə bu gecə onun duası qəbul olacaq. Ümumiyyətlə, insanın duası hansı gecə qəbul olunarsa, onun üçün həmin gecə elə Qədr gecəsi kimidir.

Məsəlin ikinci hissəsində işlənən “Hər gələni Xızır bil” ifadəsinə gəldikdə isə, burada da böyük bir məna vardır. Belə ki, qapımıza gələn, yaxud qarşımıza çıxan tanımadığımız adamla hörmətlə davranmalıyıq. Nə bilmək olar, bəlkə elə Xızır Əleyhissalamdır, bizi sınamağa gəlib? Yaxud, bu şəxsin Allah yanındakı hörməti, dərəcəsi peyğəmbərlərin hörməti qədər yüksəkdir. Bütün bunları nəzərə alan ata-babalarımız bizlərə tanımadığımız adamlara qarşı ehtiyatlı olmağı və nəzakətlə davranmağı öz məsəlləri ilə tövsiyə etmişlər.

*"And olsun ki, Biz Quranı (ondan) ibrət almaq (öyüd-nəsihət qəbul etmək) üçün belə asanlaşdırdıq. Amma heç bir ibrət alan (öyüd-nəsihət qəbul edən) varmı?!"* "Ay" surəsi, 17-ci ayə.





## BELƏ ETSƏNİZ, VƏHY QƏBUL EDƏRSİNİZ

***"... Səni də yalnız*** *(möminlərə)* ***müjdə verən və*** *(günahkarları cəza ilə)* ***qorxudan sifəti ilə göndərdik".*** "Quran", 17:105.

Elmi-lədun araşdırmalarımız göstərir ki, Peyğəmbərlik haqqında Yer əhlinin təsəvvürləri tamamilə yanlışdır. Öncə qeyd edək ki, Peyğəmbərlik kamilliyin sonuncu mərhələsidir. "Quran" məntiqinə görə bu mərhələ (məqam) heç kəsin üzünə qapana bilməz. Sadəcə, bu mərhələyə yüksəlmək insandan iradə və cəsarət tələb edir.

İnsan hər hansı bir məqama layiq olarsa, Allah o məqamı həmin bəndəsindən əsirgəməz. Əks halda ədalətsizlik olardı ki, bu da ədalət sahibi olan Allaha yaraşmaz.

Biz bir məqama layiq deyiliksə, bu, o demək deyil ki, başqaları da o məqama layiq deyillər və yüksələ bilməzlər! Bu, ona bənzəyir ki, abituriyent universitetə qəbul olmaq üçün lazım olan balı toplaya, amma, ona deyələr ki, sən filan ildə, yaxud filan yerdə doğulmusan, filan millətdənsən, sənə olmaz. Belə ədalətsizliyi Allahdan gözləyirsinizmi? Şəxsən mən gözləmirəm və bunun belə olmadığını da dəqiq bilirəm!

Sual edirəm: biz nə vaxt peyğəmbərlərin etdiklərini etdik, onların əxlaqına, imanına, səxavətinə sahib olduq, Allah bizi onların məqamına yüksəltmədi?

İş burasındadır ki, biz peyğəmbərlərin əməllərini təkrarlamırıq, bir-birimizi istismar edirik və topladığımız haram pulla gedib Həcci ziyarət edirik ki, qayıdanda bizə "Hacı" deyib, hər yerdə başa keçirsinlər, sonra da deyirik ki, indi heç kəs Peyğəmbərlik məqamına yüksələ bilməz...

*Quranda yüzlərlə ayə vardır ki, istənilən adamın bu məqama yüksələ bilməsinə və vəhy qəbul etməsinə işarə verilir:*

***"Allah Öz əmri ilə mələkləri vəhy ilə bəndələrindən istədiyinə** (!) **göndərib belə buyurar: "İnsanları** (əzabımla) **qorxudub** (bu həqiqəti Mənim adımdan onlara) **bildirin: "Məndən başqa heç bir Tanrı yoxdur. Məndən qorxun!"** "Bal arısı" surəsi, 2-ci ayə.*

Bu və digər ayələrdə Allah-taala istədiyi bəndəsinə vəhv göndərə biləcəyinə, istədiyi bəndəsini özünə xəbərverən (carçı) seçə biləcəyinə açıq-aşkar işarə verir.

**İstəyirsiniz "Quran"ı dərk etməyin və Peyğəmbərlik məqamına yüksəlməyin sirrini sizə açım:**

- İndiyədək etdiyiniz günahlara görə tövbə edin;
- Təkəbbürdən və lovğalıqdan uzaq olun,
- Sadə həyat tərzi keçirin;
- Cəmiyyət üçün faydalı olmağa və onlara düz yol göstərməyə çalışın və özünüz buna nümunə olun;





- Əxlaqınızı saflaşdırın və Qurana uyğunlaşdırın;
- "Quran"ı oxuyarkən orada mötərizə arasında ("Ya Məhəmməd", "Ya Peyğəmbər") yazıldığını gördüyünüz zaman xəyalən mötərizə arasında öz adınızı təsəvvür edin və həmin vəhyi özünüzə gəlmiş kimi qəbul edin və onu yerinə yetirməyə çalışın;
- Quranda münafiqlərdən, kafirlərdən, zalımlardan bəhs edərkən və tərcüməçilər mötərizə arasında VII əsrə aid adamların adını çəkdikcə, siz o adların yerində tanıdığınız bu xarakterli adamların adını təsəvvür edin (unutmayın ki, Yaradan "Quran"da Peyğəmbərə deyil, oxucuya xitab edir. Bu kitab hansı dövrdə oxunursa, o dövrə də aiddir.) Onda Quranı tam dərk edəcəksiniz və tanıdığınız yaxşı-pis bütün insanların obrazlarını bu kitabda görəcəksiniz.

Bir müddət belə ("Quran"ın buyurduğu kimi) yaşadıqdan sonra, görəcəksiniz ki, "Quran"ın bütün ayələrini vəhy şəklində qəbul edirsiniz və oradakı əsas (kamil) obrazlardan biri olduğunuza əmin olacaqsınız.

Bir məqamı da diqqətinizə çatdırım ki, Quran 114 surədən ibarətdir və sonuncu – 114-cü surəsi "İnsanlar" adlanır. Deməli, 114 ədədi tək Quran rəmzi olmayıb, həm də İNSANLAR rəmzidir. Çünki, müqəddəs kitabda bütün növ insanların obrazları təsvir edilib. Bu obrazların hamısının (peyğəmbərlərin, fironların, nəmrudların, kafirlərin, möminlərin...) prototipləri hər zaman cəmiyyətdə görünüb, görünür və qiyamətədək də görünəcək!

*Sual yaranır: "Quran"ı vəhy şəklində qəbul edən Əhmədə niyə müqəddəs kitabda Məhəmməd deyə xitab olundu?*

Cavab budur: Nə qədər ki, kamilləşməmişdi, Əhməd idi; kamillik məqamına yüksəldikdən sonra artıq Məhəmməd oldu.

Yəni, Məhəmməd obrazı "Quran"da kamillik simvoludur və Yer üzərində keçmişdə, indi və gələcəkdə yaşamış və yaşayacaq bütün kamil insanları (peyğəmbərləri, imamları, övliyaları) özündə ehtiva edir.

Allah bu məqama yüksəlməyi hamıya nəsib etsin!

***“Biz peyğəmbərləri yalnız** (möminlərə)* ***müjdə verənlər və** (zalımları)* ***qorxudanlar** (xəbərdar edənlər)* ***olaraq göndərdik”.*** “Mağara” surəsi, 5.



# TƏBABƏTİN SİRLƏRİ

## YAQUB PEYĞƏMBƏR OĞLANLARINI BƏD NƏZƏRDƏN BELƏ QORUDU

***"Şübhəsiz ki, Yəqub onu** (vəhylə) **öyrətdiyimiz üçün bir elm sahibi idi. Lakin insanların əksəriyyəti bunu** (Allahın sevib-seçdiyi zatlara vəhy, ilham yolu ilə elm öyrətməsini) **bilməz!"*** "Quran", "Yusif" surəsi, 68.

Yaqub Peyğəmbərin həyatında diqqət çəkən məqamalardan biri də onun oğlanlarını bəd nəzərlərdən qorumasıdır. Belə ki, o, on bir oğlunu Misirə ərzaq dalınca göndərərkən, tapşırdı ki, hamınız şəhərin eyni qapısından daxil olmayın – yarınız bir, yarınız da digər qapıdan girin; sizə göz dəyməsin. Bu barədə "Quran"ın "Yusif" surəsində Allah belə buyurur:

*"Yəqub dedi: "Oğullarım! Misirə eyni bir qapıdan girməyin, ayrı-ayrı qapılardan daxil olun ki, sizə göz dəyməsin. Bununla belə, mən Allahın qəza-qədərini sizdən heç bir şeylə dəf edə bilmərəm. Hökm yalnız Allahındır. Mən ancaq Ona təvəkkül etdim. Qoy təvəkkül edənlər də ancaq Ona təvəkkül etsinlər!"* 12:67.

Aydındır ki, "Quran" əslində peyğəmbərlərə yox, öz oxucusuna müraciət edir və sətiraltı (kodlaşdırılmış) mesajlar verir. Bu ayədə Allah-taala Öz oxucusuna Yaqub Peyğəmbərin dili ilə mesaj ötürür ki, özünüzü bəd nəzərlərdən (neqativ enerjidən) qoruyun. Elmi-lədun





araşdırmalarımız göstərir ki, insanlar bu mesajı diqqətə almadıqlarına (əhəmiyyət vermədiklərinə) görə bunun ziyanını çəkməkdədirlər.

Bu, bir faktdır ki, sovet dönəmi ilə müqayisədə bu gün müxtəlif xəstəliklər həddən artıq artmışdır. Müqayisə etdiyimiz dövrdə hər rayonda bir, Bakıda isə, cəmi bir neçə xəstəxana vardı. Buna baxmayaraq, bu az sayda xəstəxanalar insanların sağlamlığını təmin edə bilirdilər.

Bu gün kəndlərin demək olar hamısında tibb məntəqələri fəaliyyət göstərir; rayon mərkəzlərində xəstəxana ilə yanaşı özəl tibb müəssisələri və diaqnostika mərkəzləri fəaliyyətdədir. Bakıda isə, xəstəxanaların demək olar ki, sayı hesabı yoxdur – az qala hər addımda bir xəstəxana var. İlk baxışdan fikirləşmək olar ki, belə az əhalisi olan ölkədə bunca xəstəxana varsa, yəqin oralarda xəstə qıtlığı olar və oranın həkimləri bekar qalarlar. Lakin, həmin tibb müəssisələrinə girdikdə bunun belə olmadığını, əksinə, istənilən həkimin qapısı ağzında uzun-uzun növbələr olduğunu görmək mümkündür. Nəzərə alsaq ki, insanlarımız müalicə üçün İrana və s. qonşu dövlətlərə də tez-tez üz tutur və bu üzdən sərhəd-keçid məntəqələrində də xəstələrin belə növbələri var, onda gözlərimiz önündə heyrətamiz mənzərə yaranır.

Sual olunur: son illər nə baş verir ki, cəmiyyətdə bu qədər xəstəlik yaranır? Bu istiqamətdə apardığımız araşdırmalar, sorğular göstərdi ki, bir klinikada həkim

növbəsi gözləyən adamlar keçən aylarda başqa-başqa klinikalarda müalicə olunublar. Belə çıxır ki, bu klinikada da müalicə almış adamlar yəqin indi başqa klinikalarda və yaxud sərhəd-keçid məntəqəsində növbə gözləyirlər... Beləliklə, eyni xəstələr illər uzunu bir çox klinikalarda həkim növbəsi gözləyirlər...

Bəs bunun səbəbi nədir? Həkimlərimizin savadsızlığımı? Müasir diaqnostika aparatlarının çatışmazlığımı?..

Araşdırmalarımız göstərir ki, səbəb bunlardan heç biri deyildir. Yəni, həkimlərimiz onlara tədris edilmiş elmi heç də pis mənimsəməyiblər; diaqnostika aparatları da kifayət qədər müasir və boldur. Elə isə, bəs niyə bu xəstələr sağalmırlar və karusel kimi klinikalar arasında fırlanırlar?

Şübhəsiz ki, bunun sirləri vardır. Yaqub əleyhissalamın oğlanlarını neqativ təsirlərdən qoruması ayəsini təsadüfən xatırlatmadıq. Nəzərə alaq ki, Allah-taala mənası olmayan bir epizodu "Quran"a salmaz. Elmi-lədun araşdırmalarımız bu gün cəmiyyətdə tüğyan edən və sağalmayan xəstəliklərin sirrinin həmin ayədə olduğunu göstərir: "Yəqub dedi: "Oğullarım! Misirə eyni bir qapıdan girməyin, ayrı-ayrı qapılardan daxil olun sizə göz dəyməsin..."

Apardığımız tədqiqatlar göstərir ki, neqativ enerji bütün xəstəliklərin özülünü (fundamentini) təşkil edir. Yəni, xəstəliyi binaya bənzətsək, onun fundamenti neqativ enerjidir (pis nəzərlər, magik təsirlər və s.). Xəstə





həkimə müraciət edərkən onu diaqnostika aparatlarından keçirib, düzgün diaqnoz qoyurlar və "binanı" sökməyə başlayırlar. "Fundament"ə qədər "sökülmə" çox uğurla gedir, bura çatdıqda isə, müalicə dayandırılır. Çünkü, tibb elmi və diaqnostika aparatları neqativ enerjini təyin etməkdə acizdir. Beləliklə, xəstə özünü sağalmış hiss edir və aparatlar, analizlər də onun sağlamlığını təsdiq edir (bu, çayır bitkisinin gövdəsini kəsib, kökünü saxlamağa bənzəyir). Beləliklə, xəstə evə buraxılır. Lakin, "fundament" (neqativ enerji) orqanizmdə qaldığından, az müddət keçəndən sonra xəstəlik təkrar daha kəskin formada dirçəlməyə başlayır. Təbii ki, bu vaxt xəstənin beynindən keçən ilk fikir həkimlərin savadsızlığı, onu aldadaraq külli miqdarda pulunu mənimsədikləri barədə olur. Ona görə də bir çox hallarda pasiyent təkrar həmin klinikaya yox, başqa bir klinikaya və yaxud xaricə üz tutur və yenə də eyni halla qarşılaşır... Beləliklə, karusel yaranır. Bu gün tibb müəssisələrində növbələrin yaranmasının sirri məhz budur: "Quran"dan kənar düşməyimiz və orada verilən mesajlara laqeyd yanaşmağımız.

Diqqətinizi çox da uzaq olmayan bir keçmişə - 50-60 il bundan qabağa yönəltmək istəyirəm. Hansı ki, həmin dövrdə Azərbaycanda (eləcə də dünyada) tibb elmi inkişaf etməmişdi. Sual yaranır: niyə tibb elmi inkişaf etməyən dövrdə bu qədər xəstə yox idi? Niyə o vaxt xəstələr adi ara həkimlərinin verdiyi müalicəvi otlarla indikindən daha effektli müalicə olunurdular?

Bunun səbəbi heç də ara həkimlərinin indiki tibb işçilərindən savadlı olmasında deyildir. Əslində səbəb o vaxtkı insanların xəstələnən vaxt kəramət sahibləri (Allah dostları) ilə təmasda olmasında idi. Kitabın əvvəlində kəramət sahiblərini tester cihazı ilə boşuna müqayisə etməmişdik. Bu cihaz dəyişən cərəyanı sabit cərəyana çevirdiyi kimi, kəramət sahibi də xəstəliyin fundamenti olan neqativ enerjini insandan yox edir və daxili enerjisini sabitləşdirir. Bundan sonra köksüz (özülsüz) xəstəlik ya cüzü müalicə, ya da insanın öz daxili enerjisi ilə əriyib getməyə başlayır.

*Bəs xəstəliyin fundamenti sayılan neqativi necə təyin etmək olar?*

Qeyd edək ki, belə insanlarda baş və boyun ağrıları, əsəb, yuxusuzluq, diksinmə, qorxu, qarabasma, qorxulu yuxular görmə, sağalması problemə çevrilən müxtəlif xəstəliklər... kimi hallar özünü büruzə verir.

Dərmanların tərkibində olan keyidici maddələr müalicə vaxtı ağrıların müvəqqəti olaraq dayanmasına səbəb olsa da, müalicə dayandırılarkən bu əlamətlər təkrar görünməyə və orqanizmdə fəaliyyəti dayandırılmış (dondurulmuş) xəstəlik dirçəlməyə başlayır...

***"Yaqub belə cavab verdi: "Mən dərd-sərimi yalnız Allaha ərz edirəm və Allahdan*** *(gələn elmlə)* ***sizin bilmədiklərinizi də bilirəm!"*** "Quran", 12:86.

***Neqativ enerji insanı depressiyaya salır və intihara sövq edir.***





Psixoloji və elmi-lədun araşdırmalarımız göstərir ki, neqativ enerji insanda depressiyaya və ümidsizliyə səbəb olur. Bu qara enerjini kompyuterlərimizə düşən virusla da müqayisə etmək olar. Virus kompyuteri dondurduğu, bəzi fayl və proqramları sildiyi kimi, neqativ enerji də insanın həyatını dondurur. Həmçinin, bu vaxt insanda olan məhəbbət hissi (*oxu:* faylı, proqramı) yox olur. Bildiyimiz kimi, insanı dünyaya bağlayan yaxınlarına, doğmalarına olan məhəbbət hissidir. Məhz bu hissin sayəsində insan dünyanın bütün məşəqqətlərinə dözür, özünün və doğmalarının yaşaması uğrunda mübarizə aparır. Neqativ enerji ilk növbədə insanda məhəbbət hissinin yox olmasına səbəb olur ki, bunun yerini nifrət, kin-kidurət kimi mənfi hisslər (fayllar) tutur. Beləliklə, onu dünyaya bağlayan tellər qırılmış olur. Odur ki, bu cür təsirə məruz qalan insanlarda həyat eşqi olmur, insanlardan uzaqlaşır, ailəsindən üz döndərir, özünə qapanır və yuxarıda sadaladığım digər hallar tədricən baş verir (qarşısı alınmazsa intiharla nəticələnir).

Bu mövzuda "Quran"ın "İnək" surəsinin 102-103-cü ayələrində geniş bəhs olunur. Ayələrin məzmunundan aydın olur ki, bəzi insanlar (onlara xalq arasında falçı, cadugər, elmi camiədə isə "maq" deyilir) ər-arvad arasına nifaq salmaq üçün Harut və Marut adlı iki mələkdən (şeytandan) sehr öyrənirlər...

Narahatlıq yaradan bir məqamı da vurğulamaq istəyirəm ki, sehrbazlıq, cadugərlik Musa Peyğəmbərin

zamanından sonra heç vaxt indiki qədər geniş vüsət almamışdır. İnsanların demək olar ki, əksər hissəsi onların "xidmətindən" istifadə edərək, məqsədinə nail olmağa, digər insanlara problem yaratmağa çalışırlar. Yaxınlığınızda yaşayan istənilən cadugərin qapısında düzülən növbələrə baxsanız, bunu özünüz də aydın görə bilərsiniz. Nəzərə alsaq ki, hər şəhərdə, rayonda belə falçıların sayı minlərlədir, onda nə qədər insanın onlara müraciət etməsini və yüzminlərlə insanın neqativ təsirə məruz qalmasını təsəvvür etmək çətin deyil. Məhz bu növbələrin, belə "xidmətlərin" nəticəsidir ki, bu gün cəmiyyətdən xeyir-bərəkət çəkilməkdə, aclıq, səfalət hər yanı bürüməkdə, ailələr sürətlə dağılmaqda, hər gün intihar xəbərləri gəlməkdədir...

Oxucuda sual yaranacaq ki, onların xidmətindən istifadə edib hansısa məqsədə nail olmaq mümkündürmü? Əsla yox! Qəti şəkildə sizi əmin edirəm və Allahı, "Quran"ı şahid gətirirəm ki, sehrbazların, cadugərlərin (eləcə də bu kimi işlərlə məşğul olan mollaların) xidmətindən istifadə etməklə, heç bir xoş məqsədə nail olmaq mümkün deyildir! Bu, necə mümkün ola bilər ki, Allah onları "Quran"da lənətləyir və cəhənnəm vəd edir?! Ancaq onların dağıtdığı ailələrə, bədbəxt etdiyi insanlara baxıb "sevinmək" olar. Təəssüf ki, bu gün cəmiyyətimizdə bu kimi ürəkağrıdan hallara baxıb sevinən paxıl insanlar da az deyildir. Məhz belələrini nəzərdə tutub Rəbbim "Sübh" surəsində buyurur: ***"...Ovsun oxuyub düyünlərə üfürən, yaxud cadu edib***





***iplərə düyün vuran qadınların şərindən və bir də paxıllığı tutanda paxılın şərindən..."*** *(bax: "Fələq", "Nas"* surələrinə).

Ayədə paxıl adamlardan təsadüfən bəhs olunmur. Təcrübə göstərir ki, bu cür nalayiq işlərlə əsasən paxıl adamlar məşğul olurlar. Yəni, onları sehrbazların növbəsində durmağa vadar edən səbəb öz qohumlarına, qonşularına qarşı olan hədsiz paxıllıq hissidir... Amma, bəzən avamlıqdan (ufologiya elmindən bixəbərlikdən) da cadugərlərə üz tutanlar, onlardan öz dərdlərinə çarə gözləyənlər var. Onların atdıqları addım suda boğulanın saman çöpünə əl atmasına bənzəyir.

Oxucuda haqlı bir sual da yaranacaq ki, magiya pisliyə qadirdisə (onların hər cür pisliyə qadir olduqlarını Allah-taala "Qurani-Kərim"də təsdiq edir və bunu təsdiq edən ayələri yuxarıda qeyd etdim) bəs niyə yaxşılığa da qadir olmasın? Bunun sirri nədir?

Maraqlı sualdır. Maraqlı da cavabı var: bunun sirrini onların istifadə etdikləri əşyalarda və o əşyaların tərkibindəki kimyəvi birləşmələrdə, maddələrdə axtarmaq lazımdır. Araşdırmalarımız göstərir ki, sehrbazlar bir qayda olaraq neqativ enerjiyə malik olan maddələrdən hazırlanmış əşyalardan istifadə edirlər (uran və s. kimyəvi elementlər ətrafa zəhərli şüalar buraxdığı kimi, bəzi elementlər də neqativ enerji ötürərək, insanın aurasını pozur ki, bu da xəstəliyə və yuxarıda sadaladığım mənfi hallara səbəb olur). Məhz bunun nəticəsidir ki, bu cür təsirə məruz qalan insanlar adətən yuxularında

canavar, ilan və s. neqativ heyvanların üstlərinə hücum etdiyini görürlər və bu da onlarda yuxu pozğunluğuna, yersiz qorxuya səbəb olur.

İnsanlar cadugərlərdən o vaxt uzaqlaşarlar ki, bu sahədə maariflənsinlər. Yəni, ufologiya elmindən xəbərdar olsunlar. Sehrbazların işinin mahiyyətini bilsinlər. Bu yazını da biz məhz bu səbəbdən yazdıq. Yəni, insanlara yalnız "getmə" deməklə, onları çəkindirmək olmaz. Əksinə, qadağan etdikcə, onlarda daha da maraq yaranacaq. Çünki, Yaradanın sözünə baxmayan bəndə (Allah "Quran"da sehrbazlara getməyi qadağan edir) gəlib hansısa bir ziyalının qadağasınamı tabe olacaq?! Əsla tabe olmayacaq. Tabe olsaydı, bu gün cadugərlərin qapısının qarşısında bunca uzun növbələr yaranmazdı. Əlac qalır bu sahədə insanları maarifləndirməyə. Yəni, işin mahiyyətini açmağa. Bu sahədə oxucunun gözünü açmaq üçün daha bir gizli məqama aydınlıq gətirmək istəyirik. Sual olunur: niyə şama, kofeyə, karta baxaraq dil-dil ötən falçı, bu vasitələr götürülsə (şam söndürülsə, kofe bayıra atılsa) lal olur? Cavabı budur ki, şeytan oddan yaranıb, şamın da yanar hissəsi oddur, hansıki, şeytan onun içindədir və informasiyanı da məhz oradan ötürür. Odur ki, həmin anda şamı üfürsəniz, informasiya mənbəyini kəsmiş olacaqsınız. Elə isə, cadugərin qarşısında oturan insan bir anlıq özünə sual versin: mən şeytanamı pənah gətirdim? Bu, mənə yaraşarmı? Şeytandan nicat tapmaq mümkündürmü? Məndən öncə kimsə şeytandan xeyir





görübmü? İnsan bu sualları özünə versə, məncə, bir daha oralarda növbə gözləməz. Kofedə, kartda də böyük magik qüvvə - neqativ enerji vardır ki, fəsad törədə bilir. Məhz bu fəsadın nəticəsidir ki, kofeni içən insanda bir qayda olaraq yuxu pozğunluğu baş verir.

### *Nə etməli?*

Oxucuda bir sual da yaranacaq ki, bəs nə etməli? Əgər kimsə bu cür təsirə məruz qalıbsa və onda yuxarıda sadaladığım əlamətlər müşahidə olunursa, bundan necə xilas olsun?

Araşdırmalarımız göstərir ki, hələ ta qədimdən son 50-60 ilə qədər (tibb elmi xeyli inkişaf edənədək) bu cür problemlərlə qarşılaşan insanlar yaşadıqları ərazidə olan kəramət sahiblərinə (ilkin dövrlərdə peyğəmbərlərə, sonrakı dövrlərdə isə, Allahın em verdiyi şəxslərə) üz tutar, dərdlərini onlara danışar və onların xeyir-duası ilə özlərində sağlam, xoş əhval (oxu: *sabit cərəyan, enerji*) hiss edərdilər. Yazının əvvəlində tester cihazından təsadüfən bəhs etmədim. Peyğəmbərlərin və digər kəramət sahiblərinin bu funksiyası fizikada tester cihazının funksiyası ilə üst-üstə düşür…

Mövlanə Cəlaləddin Rumi kəramət sahiblərini mənəvi həkimlər adlandırır və onları maddi həkimlərlə (tibb işçiləri ilə) belə müqayisə edir:

*"O zahir həkimlər başqadır, onlar ürəyə nəbzi tutaraq baxırlar və verdikləri əczalarla (dərmanlarla) in-*

*sanın cismini müalicə edirlər. Mənəvi həkimlər isə, nəbzi tutmadan ürəyə baxırlar və Allahın bəxş etdiyi elmlə (elmi-ladunla) insanın ruhunu müalicə edirlər. Onların dəlilləri kəşf, ilham və sirri-İlahidir".*

*Həkimlik təcrübəmiz göstərir ki, neqativ enerjinin təsirinə məruz qalaraq sağalmaz xəstəliklərə düçar olan insanı Efir enerjisi ilə çox asanlıqla müalicə edib sağaltmaq mümkündür.*

*(Efir enerjisi barədə əvvəlki yazılarımızda bəhs etdiyimiz kimi, aşağıda da danışacağıq).*





## AUTİZMLİ, ŞİKƏST DOĞULANLARIN SAYININ ARTMASININ SİRLƏRİ

Tibb elmi təsdiq edir ki, 1980-ci illərin ortalarından sonra, autizmlə doğulan uşaqların sayında həddindən artıq artım baş vermişdir. Təkcə autizm deyil, şikəst və əsəbi uşaqların sayı həmin illərdən daha da çoxalmağa başladı. Təbii ki, bunların səbəbləri vardır. 1985-ci ilin sonlarından Sovet hökuməti dağıldı və yeni bir dövr başladı. Bu, yeni bir eranın başlanğıcı demək idi. Bu dövrdən falçıların sayı artdı və sürətlə insanlara "vergi" verilməyə başladı. Bu da şeytani dövrün başlanğıcı demək idi. İnsanlar falçıların xidmətindən istifadə etdikcə, mənfi enerji ilə yüklənirdilər. Beləliklə, insanlarda qara enerji yayılmağa başladı.

Mənfi enerjilər, qadınların ana bətninə və onurğasına yüklənməklə, baş, çiyin ağrıları, ürək döyüntüləri, qorxu, boğulma, qarabasma, özünəqapanma, qorxulu yuxular görmə, qərarsızlıq, əsəbilik və s. ağrıların yaranmasına səbəb olur. Bu cür əlamətlərdən bir neçəsi olan qadınlar hamilə qaldıqda onlardan doğulan uşaqlarda autizm olur. Ən yüngül halda doğulan uşaqda əsəb pozuntuları müşahidə olunur. Mənfi enerjilər, eyni zamanda uşaqların şikəst doğulmasına da səbəb olan hallardandır. Təəssüf ki, müasir dövrdə insanlar falçı yanına daha çox gedirlər. Əslində həmin şəxslər

belə etməklə özlərini mənfi enerji ilə yükləyirlər. Unutmaq olmaz ki, hər bir doğulacaq körpənin sağlamlığı ana bətnində qoyulur. Ana doğum prosesini sakit və əsəbsiz keçirirsə, doğulacaq körpədə sağlam dünyaya gələcək.

Yeri gəlmişkən qeyd edim ki, bu gün cəmiyyətdə geniş şəkildə yayılan neqativ enerji tək autizmli uşaqların doğulmasına səbəb olmur; bu enerji həm də ailələrin sürətlə dağılmasına, uğursuzluqlara, evlərdə sirli yanğınlar baş verməsinə, xəstəliklərin artmasına və intiharların tüğyan etməsinə səbəb olur.





## EYNİ AİLƏDƏ UŞAQLARIN NİYƏ BİRİ YARAŞIQLI, DİGƏRİ ÇİRKİN OLUR?

Eyni valideynlərdən yaranan uşaqlardan birinin yaraşıqlı, digərinin çirkin olduğunu görməyə artıq adət etmişik. Bunun səbəbləri tarix boyu cəmiyyəti düşündürsə də, doğru-düzgün elmi izahı tapılmayıb.

Son vaxtlar ünvanımıza bu mövzuda çoxsaylı suallar gəldiyini nəzərə alıb, bu istiqamətdə monitorinq aparmaq qərarına gəldik. Oxucular üçün maraqlı olacağını nəzərə alıb, monitorinqin nəticələrini diqqətinizə çatdırırıq.

Ailə psixoloqu və elmi-lədun bilicisi olaraq, bu cür fərqli görünüşə malik uşaqların anaları arasında apardığımız sorğular maraqlı bir mənzərəni ortaya qoydu. Məlum oldu ki, hansı qızlar ki, sevib ailə qurublar və hamilə olarkən əsəb, stress, ağrı, qorxu keçirməyiblər, onların uşaqları göyçək və yaraşıqlı doğulurlar. Yəni, uşaq qarşılıqlı məhəbbətdən yarananda və ana sağlam olanda, doğulan uşaq yaraşıqlı və sakit olur.

Lakin, elə analar da var ki, qızlıq dövründə onların qəlbində sevgi hissi olmayıb (yaxud çox zəif olub), əsəb, stress, qorxu keçirib; baş, onurğa və s. orqanlarında ağrılar olub. Aybaşı dövründə güclü sancılar və analıq orqanlarında problemlər olub... Bu əlamətlərdən bir neçəsi olan qızlar ailə qurduqdan və hamilə qaldıqdan

sonra, sadaladığım əlamətlər bir qayda olaraq daha da artıb. Nəticədə, doğulan uşaq digərlərinə nisbətən daha çirkin və əsəbi olub.

Elə ailələr də var ki, onlarda bir-iki övlad yaraşıqlı doğulduqdan sonra, növbəti uşaq çirkin doğulub. Test sorğularından məlum olur ki, əvvəlki uşaqlara hamilə olarkən, ananın psixoloji və sağlamlıq durumu normal olsa da, sonrakı hamiləlik vaxtı ətraf mühitdən gələn neqativ enerjilər səbəbindən, onda əsəb və gərginlik artıb. Analıq orqanlarında sancılar, daxili orqanlarda ağrılar; qorxu, ümidsizlik... yaranıb. Depressiv vəziyyətə düşdüyündən, ana çox vaxt ağlayıb... Nəhayət, həmin gərgin hamiləlikdən doğulan uşaq, əvvəlkilərə nisbətən çirkin, əsəbi, bəzi ağır hallarda isə, qüsurlu doğulub.

### *Bu əlamətləri olan qızlar ailə qurmağa meyilli olmurlar*

İlk uşaqları nisbətən çirkin və əsəbi olan analar arasında apardığımız rəy sorğularından məlum olur ki, onlar sevərək ailə qurmayıblar. Menstruasiya dövrləri həmişə sancılı, ağrılı və yaxud gecikmələrlə baş verib. Əks cinsə həvəsləri olmayıb. Buna görə də evlilik təkliflərinə çox vaxt "yox" deyiblər. Nəhayət, yaşları keçdikdən sonra, belə qızlar yaxın ətraflarının təzyiqi və təkidi ilə (üzə düşərək) namizədlərdən birinə "hə" deyiblər. Ailə qurduqdan sonra isə, sıxıntıları daha da artıb. Yuxarıda sadaladığım əlamətlər və xəstəliklərlə hamiləlik keçirərək, ilk övladlarını dünyaya gətiriblər. Bu cür çətin hamiləlik nəticəsində doğulan ilk uşaq adətən çirkin və əsəbi olur. Bundan sonra analarda bir qədər yüngülləşmə baş verir. Sanki, içlərindəki ağrı-acını, gərginliyi uşaqla bərabər kənara atırlar (əslində uşağa keçirirlər).





Bundan sonra rahatlanan analar, ikinci, üçüncü dəfə hamilə qalarkən, bu dövrü nisbətən rahat və ağrısız keçirirlər. Nəticədə, növbəti doğulan uşaqlar əvvəlkinə nisbətən daha yaraşıqlı və əsəbləri daha sakit, zirək olurlar.

*Oxucuda sual yaranacaq ki, qızlarda və hamilə qadınlarda baş verən bütün bu depressiv hallar, həyəcan, fobya, ağrılar, sancılar nəyin nəticəsidir? Nədən yaranır?*

Sualınıza cavab olaraq bildirim ki, bütün bunlar ətraf mühitdən gələn neqativ enerjilərin təsirindən yaranır. Bu enerji əsasən insanın onurğasında toplanaraq ostroxondroza, yaxud, fəqərə yırtıqlarına səbəb olur. El arasında "duzlaşma" deyilən bu ağrılar onurğada skalyoz, kipoz da yarada bilir. Onurğada toplanan neqativ enerji əsəbə, baş ağrısına, miqrenə səbəb olmaqla yanaşı, beldə və qıçlarda da güclü ağrılar yaradır.

Ətraf mühitdən orqanizmə daxil olan neqativ enerjinin ikinci ən çox toplandığı orqan cinsiyyət orqanlarıdır. Bu halda həm kişidə, həm də qadında cinsi istəksizlik yaranır. Bu cür enerjilər qızların (qadınların) ən çox analıq orqanlarında toplanmaqla, menstruasiyanı

pozur və güclü sancılara, ağrılara, bəzi hallarda yumurtalıqlarda kistaların, polikistozların, miomaların... yaranmasına gətirib çıxarır. Belə qızlarda (və qadınlarda) adətən cinsi istəksizlik müşahidə edilir. Son nəticədə, yuxarıda qeyd etdiyim kimi, bu cür əlamətləri olan qızlar adətən evlilik təkliflərinə "yox" cavabı verirlər. Səbəb onların qəlbindən sevgi və inam hissinin (oxu: faylının) silinməsidir. Belə ki, kompyuterlərimizə düşən virus ondakı fayl və proqramları necə silirsə, insana daxil olan neqativ enerji də qəlblərdən sevgi və inam faylını elə silir. Bu proses orqanizmin müxtəlif nahiyələrində səbəbi bilinməyən ağrılarla müşahidə olunur. Nəticədə, belə qızlar ətrafdakıların təzyiqi ilə ailə qursalar da, onlardan doğulan uşaqlar başqalarına nisbətən çirkin, bəzi hallarda isə, əsəbi, xəstə və zəif olurlar.

Sual yaranır: *neqativ təsirə niyə məhz zərif cinsin nümyanəndələri məruz qalırlar?*

Qeyd edək ki, neqativ enerji kişilərə də təsir edir. Lakin, qadın ruhu həssas və zərif olduğundan, onlara daha tez və güclü təsir göstərir.

Qadınların daha çox neqativə yüklənməsinin digər səbəbi onların geyimləri və gözəllikləri ilə bağlıdır. Belə ki, zərif cinsin nümayəndələri daim geyim-kecimli və baxımlı olduqlarından, bəzi insanların (hətta əks cinsin də) gözündə olan Selen maddəsinin şüasına məruz qalırlar. Bu şüa, neqativ enerji şəklində qadınların bədəninə hopa və yuxarıda sadalanan fəsadları törədə bilir.





Qadınların bu enerjiyə yoluxmasının digər səbəbi, cəmiyyətdə magiyanın geniş yayılması və insanların (özəlliklə də qadınların) bir-birlərinə qarşı bu qara enerjidən istifadə etməsidir ki, nəticədə yuxarıda sadaladığım fəsadlar baş verir...

## *İnsanın sağlamlığı ana bətnindən başlayır*

Araşdırmalarımız göstərir ki, neqativ enerji insana bir çox hallarda irsən keçir. Yəni, fiziki qanunlara uyğun olaraq, enerji heç vaxt itmir; birindən digərinə keçir. Bir zamanlar valideynlərdə olan neqativ enerji, onlar öldükdən sonra, övladlarında davam etməyə başlayır (bu, hazırda ən çox yayılmış haldır). Fikir versəniz görərsiniz ki, hansı ailədə ağır xəstəlikdən, intihardan dünyasını dəyişən varsa, çox keçmir ki, həmin ailənin digər üzvü ağır xəstələnir. Bunun ilk əlamətləri qorxu, həyəcanla başlayır, getdikcə (qarşısı alınmadıqda) ağır xəstəliklərə, fəsadlara səbəb olur.

Yuxarıda qeyd etdiyim kimi, neqativ enerji uşağa həm də ana bətnində olarkən hopur və uşaq böyüdükcə özünü (əsəb, immunitet zəifliyi, qorxu və s. formada) büruzə verməyə başlayır. Deməli, insanın sağlamlığı ana bətnindən başlayır.

*Bəs bütün bunlardan necə xilas olmaq olar?*

Tibb elmi neqativ enerjiyə qarşı vasitə kəşf etməsə də, bizim yaratdığımız elmi-lədun müalicə metodu ("Efir" enerjisi") ilə bu enerjidən və onun fəsadlarından

(əsəbdən, sancılardan, ağrılardan, ostroxondrozdan, şişlərdən və s.) xilas olmaq mümkündür. Bütün bu neqativ əlamətlərdən xilas olan qızda məhəbbət hissi bərpa olur və o, sevərək ailə qurur. Hamiləlik dövründə heç bir ağrı, depressiv hal keçirmir. Beləliklə də, doğulan uşaqlar daha yaraşıqlı, əsəbləri sakit və ağıllı olurlar.

Onu da qeyd edək ki, bu müalicə metodunda heç bir dərman vasitəsindən istifadə edilmədiyinə görə, hamiləliyə heç bir əks - təsir göstərmir.



# UFOLOGİYA ELMİNİN SİRLƏRİ

***Elmi-lədun işığında***

## CİNLƏR İNSANLARIN SƏHHƏTİNƏ VƏ FİKİRLƏRİNƏ TƏSİR EDƏ BİLİRLƏR

Allah-taala "Quran"da buyurur ki, *"Biz hər bir Peyğəmbər üçün cinlərdən və insanlardan düşmənlər yaratdıq"*. Qeyd edək ki, cinlər neqativ enerjidir və düşdükləri yerdə fəsad törədirlər. Necə ki, virus, bakteriya düşdüyü yerdə fəsad törədər. Yeri gəlmişkən, Peyğəmbərimiz bir hədisində: *"Dırnağınızı kəsin, onun altında şeytan gizlənib"* buyurur. Müasir tibb elmi həmin fikri belə ifadə edir: "Dırnağınızı kəsin, çünki, altında mikroblar, bakteriyalar gizlənib". Göründüyü kimi, hər iki fikirdə mahiyyət eynidir; bir vaxt şeytan adlandırılan nəsnəni, indi virus, mikrob adlandırırlar.

Elmi-lədun araşdırmalarımız göstərir ki, cinlər neqativ enerji olaraq, hər bir insana daxil ola bilirlər. Bu cür enerji daxil olan insanda ilk növbədə əsəbilik müşahidə edilir. Daha sonra baş, çiyin ağrıları, oynaq ağrıları, yuxuda diksinmələr, qorxu, qarabasma, depressiya, ürək döyüntüləri, həyəcanlanmalar, müxtəlif sağalmaz xəstəliklər, uğursuzluqlar görünməyə başlayır... Necə ki, kompyuterimizə virus düşəndə onu dondurur, müxtəlif fayl və proqramları silir, neqativ enerji (cin-şeytan) da insan aurasına daxil olanda eləcə insanın həyatını dondurur və səhhətində, sağlamlığında fəsadlar yaradır. Bu cür insanlar çox vaxt qərarsız olurlar. Yəni bir yerdə qərar tuta bilmirlər, darıxırlar, səbirsizləşirlər. Həmçinin bu enerji insan qəlbindəki sevgi hissini (oxu: faylını, proqramını) silərək, yerinə nifrət, inamsızlıq "yazır". Nəticədə, qəlbinə həmin enerji dolmuş şəxs dünənədək sevdiyi şəxsə bu gün niftət etməyə başlayır, insanlardan uzaqlaşır, heç kəsə inanmır və özünə qapanır. Buna psixologiya elmində depressiya deyilir. Əslində isə, bu həmin neqativ enerjinin törətdiyi fəsaddır. Bu hallardan sonra insanda yuxarıda sadaladığım əlamətlər, ağrılar baş verir. Ağır hallarda insan intihara meyilli olur (qarşısı alınmazsa bunu reallaşdırır).

Ən pisi də odur ki, bu cür insanlarda inam hissi itdiyindən, çox vaxt həkimə, yaxud, Allahdan elm verilmiş şəxsə müraciət etmək istəmirlər. Belə halda gərək xəstənin sahibi ağıl nümayiş etdirsin və onu aldadaraq, vəziyyətdən çıxarmağa çalışsın. Amma, təəssüflər olsun ki, əksər valideynlər bu üsuldan istifadə etmirlər və xəstə istəmir deyə, onun ruhunu müalicə etdirmirlər. Nəzərə alın ki, körpə uşaq heç vaxt çimmək istəmir və suya salanda qışqıraraq müqavimət göstərir. Buna baxmayaraq, ana çimməyin faydasını və vacibliyini dərk etdiyindən, müqavimətə məhəl qoymayaraq, uşağı zorla da olsa çimizdirir.

Depressiyaya düşərək, özünə qapanan, ailə qurmaq istəməyən (neqativ enerji ilə yüklənmiş bəzi insanlar ailə qurmaq istəmirlər və onlara elə gəlir ki, istəsələr

ailə qurarlar, sadəcə, özləri istəmirlər) gənclərin valideynləri və yaxınları bu cür davranmalıdırlar. Yəni, onlara məcburi qaydada seans keçirməlidirlər. Bilməlisiniz ki, evlənmək istəməməyin, yaxud evlənməkdən qorxmağın, bağlana bilməməyin kökündə paralel aləmdə görünməyən qüvvələrin beyinə təsiri dayanır. Onlar beyinə neqativ enerji ötürərək, evlənmək istəyinə qarşı qorxu, həyəcan yaradırlar. Nəticədə insan bu istəkdən vaz keçir (qorxu hissi sevgi hissini üstələyir). Məlumunuz olsun ki, bu cür qara enerjidən təmizlənmək heç də problem deyildir. Həkimlik təcrübəmizdə belə hallarla hər gün qarşılaşırıq və valideynlər istədikdə bu problemi cəmi 21 günə aradan qaldırmaq mümkündür. Bir çox hallarda ağır xəstələr bu enerjidən təmizlənmək istəmirlər, çünki, bunun mahiyyətini dərk etmirlər. Buna səbəb neqativ enerjinin onların beynini zəbt etməsi və tam nəzarət altına salmasıdır. Adətən bu cür xəstələrdə heç nəyə, heç kəsə inam hissi olmur. Onlar bu problemdən ancaq valideynləri ağıllı, dərrakəli olanda qurtula bilirlər. Yeri gələndə bu cür xəstələri düşdükləri bataqlıqdan aldada-aldada çıxarmaq lazımdır. Onlarda qərar vermə qabiliyyəti olmadığından, özləri bataqlıqdan çıxmaları barədə heç vaxt qərar verə bilməzlər (bu cür xəstələr adi bir qonaq getməyə qərar verə bilmirlər - hər beş dəqiqədən bir fikirlərini dəyişirlər; verdikləri qərarlarhəmişə öz ziyanlarına olur). Təcrübədən bizə məlumdur ki, yaxınları müdaxilə etmədikdə bu cür problemi olan adamlar qocalana qədər ailə qurmurlar





və tənha qalırlar. Yaşlaşanda isə, həm çoxsaylı xəstəliklərdən, həm də tənhalıqdan əziyyət çəkirlər. Odur ki, övladı əsəbdən və depressiyadan əziyyət çəkən valideynlər özləri bu sahənin mütəxəssisinə, bilicisinə müraciət edib, məsləhət almalıdırlar.

Bu cür hallarda tibbi yolla müalicə əsəbləri müvəqqəti sakitləşdirsə də, tətbiq edilən dərman vasitələri mədə, böyrək və qara ciyərdə fəsadlar törədir. Həmçinin, bu cür problemlər orqanizmdə hormonal dəyişiklik yaratdığından, onları qəbul edən xəstələr əks cinsə maraq göstərmirlər. Bu da subay xəstələrin evlənməsinə, ailəlilərin isə, həyat yoldaşları ilə münasibətlərinə problem yaradır. Bilmək lazımdır ki, bu cür problemlər ruhla bağlı olduğundan, bunu ancaq ruhu bilənlər (elmi-lədunla) aradan qaldıra bilərlər.

**Söz ardı:** iş təcrübəmdə cinlərlə intim əlaqədə olan, hətta, onlardan uşaq dünyaya gətirən insanlarla tez-tez qarşılaşıram və cəmi 21 günə bu münasibətə son verirəm.

## 2020-ci İLDƏ BƏŞƏRİYYƏT TİLSİMDƏN XİLAS OLACAQ

### *20 ədədinin "Quran"dakı sirləri*

...Elə ki, Musa Peyğəmbər səkkiz il çobanlıq müddətin tamamladı, əlavə də iki il artıq işlədi ki, qayınatası Şüeyb Peyğəmbər razı qalsın. Daha sonra Allahdan qəbul etdiyi vəhy üzrə həyat yoldaşını da götürüb, yenidən Misirə (Fironu haqqa dəvət etmək üçün) üz tutdu. Ayrılarkən Şüeyb Peyğəmbər ona Adəm Peyğəmbərdən miras qalmış əsanı bağışladı; hansı ki, həmin əsa bütün peyğəmbərlərin əlindən keçərək vərəsəlik yolu ilə Şüeybə çatmışdı. O da Allahın əmri ilə əsanı Musa əleyhissalama bağışladı...

...Musa Fironun sarayına daxil olaraq, Allah tərəfindən göndərilmiş elçi olduğunu bildirdi və ondan Allahlıq iddiasından əl çəkməyi, zülmə son qoymağı tələb etdi. Əks halda ona Allahdan bəla gələcəyini xəbər verdi. Firon cavab verdi ki, sən mənim sarayımda böyüməmədinmi? Sonra da bir qibtini öldürüb qaçdın; indi də peyğəmbərlik iddiasına düşmüsən? Belə dedikdən sonra Firon onu öldürtmək istədi. Bu vaxt Musa əlindəki əsanı yerə atdıqda, qüdrəti-İlahidən əsa əjdahaya dönüb, Fironun üstünə yeridi. Zalım şah qorxuya düşərək fikirləşmək üçün üç gün vaxt istədi. Sonra saray əyanlarını məşvərətə yığıb, onlardan məsləhət istədi. Əyan-





lar dedilər ki, Musa sehrbazdır, onun etdiyi də cadudur. Onun qabağına biz Misirdəki ən güclü cadugərləri çıxarmalıyıq. Beləliklə, Misirdəki ən güclü cadugərlər təcili saraya yığıldı. Firon onlara vəziyyəti anlatdıqda sehrbazlar dedilər ki, sən onu bizə həvalə elə, öhdəsindən gələrik. Qərar verildi ki, qibtilərə məxsus bayram günündə bütün xalq meydana yığışsın; onların qarşısında sehrbazlar Musanı məğlub edib, Fironun Allah olduğunu xalqa sübut etsinlər.

...Elan olunmuş gündə xalq meydana cəm oldu. Musa və qardaşı Harun da, sehrbazlar da, saray əyanları da... hər kəs öz yerini tutdu. Firon soruşdu ki, birinci kim başlamaq istəyir? Musa dedi sehrbazlar başlasınlar. Belə olduqda sehrbazlar əvvəlcədən meydanın ortasına topladıqları qamış və ip topasına sehrli sözlər oxudular. Tilsimin təsirindən qamışların hərəsi bir ilana dönüb, Musanın üzərinə yeriməyə başladılar. Musa belə halla ilk dəfə qarşılaşdığından qorxub geri çəkilməyə başladı. Bu vaxt Allahdan vəhy gəldi ki, qorxma, əlindəki əsanı yerə at. Musa atdıqda əsa əjdahaya dönərək, sehrbazların ilanlarının hamısını uddu.

Cadugərlər Musanın bu möcüzəsi qarşısında heyrət edərək, ona təslim olduqlarını bildirdilər. Firon bundan qəzəblənərək oradakı sehrbazların hamısının asılmasına qərar verdi.

Bu əhvalat "Quran"da öz əksini belə tapmışdır:

*"Onlar dedilər: "Ya Musa! Özün seç. Ya sən əvvəlcə əsanı yerə tulla, ya da biz birinci tullayaq!*

*Musa dedi: "Xeyr, əvvəlcə siz tullayın!" Sehrbazlar əllərindəkini yerə atan kimi onların sehri üzündən birdən Musaya elə gəldi ki, onların ipləri, qamışları və dəyənəkləri hərəkətə gəlib ilan kimi qarnı üstə sürünür.*

*Musanın canına qorxu düşdü. Biz ona belə buyurduq: "Qorxma, üstün gələcək mütləq sənsən! Sağ əlindəki əsanı yerə tulla, onların düzüb qoşduqlarını bir anda udsun. Onların düzəltdikləri sehrbaz hiyləsindən (əfsundan) başqa bir şey deyildir. Sehrbaz isə, hara gedirsə getsin, mətləbinə çatmaz!"*

*Musa əsasını yerə atan kimi o bir əjdahaya dönüb sehrbazların iplərini, qamışlarını yerli-dibli uddu. Nəhayət, sehrbazlar: "Biz Harunun və Musanın Rəbbinə iman gətirdik!" – deyib səcdəyə qapandılar.*

*Firon, dedi: "Mən sizə izin verməmişdən əvvəl siz Ona iman gətirdiniz, çünki O, əslində sizə sehr öyrədən böyüyünüzdür. Mən də sizin əl-ayağınızı çarpaz kəsdirib xurma ağaclarının kötüklərindən asacağam. Onda hansımızın (mən Fironun, yoxsa Musanın Allahının) əzabının daha şiddətli və daha sürəkli olduğunu biləcəksiniz!"* "Quran", 20-ci surə, 65-71-ci ayələr.

"Quran"da təsbit olunmuş bu hadisədə diqqət çəkən bir neçə məqam vardır. Bunlardan biri ondan ibarətdir ki, əhvalat niyə məhz **20** ədədinə bağlandı (20-ci surədə danışıldı)?

Elmi-lədun araşdırmalarımız sübut edir ki, "Quran"ın düzülüşü təsadüfi olmayıb, xüsusi bir qanunauyğunluğa tabedir. Qeyd edim ki, **20** ədədi lədun elmində





sehr, tilsim rəmzi sayılır. Araşdırmalarımız göstərir ki, magik təsirə (sehrə, caduya) məruz qalmış insanların yuxusuna girən ədəd ən çox **20** (!) ədədi olur. Belə adamlar yuxuda ya **20** nömrəli marşrutda getdiklərini görürlər, ya kiminsə onlara **20** manatlıq əskinaslar verdiyini, yaxud da özlərini seriyası **20** olan şəhərdə (Gəncədə) görürlər. Nəticədə real həyatda onların səfərləri baş tutmur, uğursuzluqları olur, yaxud, gözlədikləri yerdən onlara pul verilmir. Bunun elmi-lədun yozumu odur ki, belə yuxu görən şəxsin magik təsir (neqativ enerji) səbəbindən yolları bağlıdır...

Musa əleyhissalamla cadugərlərin qarşılaşma səhnəsində diqqət çəkən digər məqam, onların meydana yığdıqları ip və qamışların ilana çevrilməsidir. Sual yaranır: bu əşyalar niyə başqa heyvana deyil, məhz ilana çevrildi?

Araşdırmalarımız göstərir ki, ilan neqativ enerjiyə malik olduğundan, qara magiyanın təsirinə məruz qalan insanların yuxuda ən çox gördüyü heyvan da məhz ilan olur.

Yeri gəlmişkən, artıq biz elm əsri olan 21-ci əsrin **20**-ci ilindəyik. Bu gün dünyada sehrin, cadunun ən yüksək səviyyədə yayılmasının şahidiyik. Belə ki, artıq dövlət başçıları səviyyəsində bu kimi çirkin işlərlə məşğul olanların varlığı heç kəsdə şübhə doğurmur. Bu səbəbdən Dünyada xeyir-bərəkət çəkilməkdə, xəstəliklər, fəlakətlər tüğyan etməkdədir...

Elmi-lədun araşdırmalarımız göstərir ki, məhz əs-

rin **20**-ci ilində bəşəriyyət düşdüyü bu tilsimli vəziyyətdən xilas ola biləcəkdir. Bu xilasedicilik isə, əvvəlki yazılarımızda bəhs etdiyimiz Xilaskarın vasitəsi ilə mümkün olacaqdır. Belə ki, **2020**-ci ildə meydana çıxacaq Xilaskar Musa əleyhissalamın və digər peyğəmbərlərin yükləndiyi elmi-lədunla yükləndiyindən, müasir fironların qurduqları sehrləri bu elmlə dağıdacaqdır. Nəticədə insanlar zülmdən xilas olaraq, öz azadlıqlarına qovuşacaqlar...





## BABİL ƏHALİSİNİN DİLİ BİR GECƏDƏ NİYƏ DƏYİŞİLDİ?

...Tufandan sonra Allah-taala Nuha gözaydınlığı verdi ki, artıq ağ günə çıxdınız, bundan sonra sənin övladların hər tərəfə yayılıb dünyanı abad edəcəklər. O da bu xəbəri sevincək oğlanlarına çatdırdı. Günlər keçdikcə Həzrət Nuhun üç oğlundan nəsillər törəyib artmağa başladı. Onlar Dəclə və Fərat çaylarının arasında özlərinə şəhər salıb kompakt halda yaşayırdılar. Bu şəhərdə əvvəl Nuhun nəvəsi (Hamın oğlu) hökumət edirdi. Sonra Peyğəmbərin digər oğlundan (Kənandan) törəyən Böyük Nəmrud hakimiyyətə gəldi. O, əmr etdi ki, şəhərdə uca bir köşk (və yaxud qala) inşa etsinlər ki, bir daha (Nuhun dövründəki kimi) tufan baş verərsə, camaat ora sığınaraq xilas olsunlar. Onların bu dərrakəsizliyi Allaha xoş getməyərək, başa çatmaqda olan binanı bir gecədə yerlə-yeksan etdi və həmin andaca şəhər əhalisinin dilinin dəyişməsinə qərar verdi. Səhər açılanda insanlar bir-birlərinin danışdıqlarından heç nə başa düşmədilər. Beləliklə, o şəhərdə heç kəs yaşamayıb, hərə öz ailəsini götürüb bir diyara üz tutdu. Bu səbəbdən həmin şəhərin adı Babil qaldı ki, mənası dillərin dəyişilməsi deməkdir (Hazırda həmin şəhərin xarabalıqları indiki Bağdad şəhərinin 85 km cənubunda hələ də qalmaqdadır).

Babildə baş verən təfriqədən sonra Nuhun törəmələri dünyanın müxtəlif istiqamətlərində məskunlaşdılar və özlərinə yaşayış məskənləri saldılar. İllər keçdikcə Nuhdan qalan din də yox olmağa başladı. Onların bəziləri Günəşi, bəzilri Ayı, bir dəstəsi ulduzu, başqa hissəsi də heyvanları, daşları özlərinə Allah qəbul etdilər. Beləliklə, müxtəlif millətlər və dinlər meydana gəlməyə başladı.

*"... Şübhəsiz ki, bunda (bu əhvalatda) düşünən bir qövm üçün ibrətlər vardır".* "Quran", "Rumlular" surəsi, 21.

Maraqlıdır ki, Babil şəhərinin adı "Quran"ın cəmi bir ayəsində - "İnək" ("Bəqərə") surəsinin 102-ci ayəsində çəkilir:

*"Süleymanın səltənətinə (şahlığına) dair şeytanların oxuduqlarına (sehr kitablarına) uydular. Süleyman bu kitablara uymadığı üçün kafir olmadı, lakin şeytanlar bildikləri sehri və* ***Babil****də Harut və Marut adlı iki mələyə nazil olanları xalqa öyrədərək kafir oldular. Halbuki o iki mələk: "Biz Allah tərəfindən göndərilmiş imtahanıq (sınağıq), sən gəl kafir olma!" – deməmiş heç kəsə sehr öyrətmirdilər. Bununla belə cadugərlər yenə də ər-arvad arasına nifaq salan işləri onlardan öyrənirdilər. Lakin onlar Allahın izni olmadan heç kəsə zərər verə bilməzlər. Onlar (cadugərlər) ancaq özlərinə faydası olmayan, zərər verən şeyləri öyrənirdilər. Həqiqətən, onlar belə şeyləri satın alanların (Allahın kitabını şeytan əməlləri ilə mübadilə edənlərin) axirətdə payı olmadığını yaxşı bilirlər. Kaş ki, onlar özlərini nə qədər yaramaz bir şeyə satdıqlarını biləydilər!"* 2:102.





Sual yaranır: niyə Harut və Marut adlı mələklər sehri (tilsimi) məhz **Babil** şəhərində öyrətdilər? Başqa şəhərdə öyrədə bilməzdilərmi? Bu təsadüfdürmü? "Quran" məntiqinə görə həyatda təsadüf yoxdur və hər şey zərurətdən doğur. Elə isə, onların niyə Babili seçmələrini elmi-lədun yolu ilə araşdıraq.

Həmin vaxt Yerdə xaraba qalmış (və yaxud qalacaq) ilk və yeganə şəhər Babil idi. Sehrin, cadunun da ilk dəfə orada öyrədilməsi barədə "Quran"da xəbər verilməsi oxucuya bu cür bəd əməllərin xarabalığa bağlılığı (xarabalıqla nəticələnməsi) mesajını verməkdədir. Müşahidələr göstərir ki, bu cür fitnə-fəsad əməllər (magiya) baş verdiyi və istiqamətləndirildiyi yerlərdə ailələrin dağılması və həmin yerin xarabalığa çevrilməsi ilə nəticələnir.

Ayıq adamlara məlumdur ki, bu gün istər Şərq, istərsə də Qərb dövlətlərində bütün prezidentlərin saraylarında bu cür bəd əməllərlə məşğul olan "maq"lar (cadugərlər) fəaliyyətdədirlər. Məhz bunun nəticəsidir ki, Şərq ölkələrinin bir çoxu bu gün Babilin günündədir – yerində xarabalıq qalıb. Sabah Qərbin də bu vəziyyətdə olmayacağına heç kəs zəmanət vermir. İbrətamiz deyilmi?

Təəssüfləndirici haldır ki, bu gün bir çox kitab ma-

ğazalarında Babildə öyrədilən sehr əməlləri kitab halında satılmaqdadır və insanlar kütləvi şəkildə bu kitabları alıb ondan "bəhrələnir"lər. Cadugərlik bu gün dünyada ən gəlirli sahələrdən birinə çevrilmişdir. Məhz bunun nəticəsidir ki, cəmiyyətdə ailələrin sürətlə dağılması (xaraba qalması), ruzi-bərəkətin çəkilməsi və gənclər arasında intihar hallarının az qala kütləvi hala çevrilməsi müşahidə olunmaqdadır.

Nə qədər ki, şəhərlər hamısı Babilə çevrilməyib, insanlar bu cür bəd əməllərdən uzaq durmalıdırlar. Allaha sığının ki, nicat tapasız.

***"Biz bu məsəlləri insanlar üçün çəkirik. Onları yalnız** (haqqı) **bilənlər anlayarlar".*** "Hörümçək" surəsi, 43.





## ÖVLİYALAR ARASINDA İŞ BÖLGÜSÜ

Araşdırmalarımız göstərir ki, övliyalıq məqamına yüksəlmiş şəxslərin hər biri Allah tərəfindən müəyyən bir vəzifə ilə görəvləndirilmişdir.

Ariflərin ən məşhuru, yüksək elmlər və mərifətlər sahibi, ariflərin başı olan zata **Qütb-ül-arifin** deyilir.

**Qütb-ül-irşad** isə, aləmin irşadına (doğru yolu tapmasına) və hidayətinə (səadətə və qurtuluşa çatmasına) vəsilə olan vəli zat, mürşiddir. Yəni, aləmin irşadı və hidayəti üçün feyzlərin gəlməsinə vasitə olur.

*Qütb-ül-irşad* hər zaman olmur. Elə zamanlar olur ki, aləm imandan və hidayətdən büsbütün məhrum qalır. Rəsulullah əfəndimiz dövrünün Qütb-ül-irşadı idi.

*Qütb-ül-irşad* vasitəsi ilə bütün insanlara iman və hidayət gəlməkdədir. Fəqət qəlbi pozuq olanlara nə qədər feyzlər gəlsə də onlara faydası olmaz. Bu, şəkər xəstəsinə verilən qiymətli qidaların onun qanında zəhər halına gəlməsi kimidir. Yaxud ağzının dadı qaçan xəstənin ən dadlı qidaları dadsız bilməsi kimidir.

*Qütb-ül-irşad* kamil və mükəmməl, yetişmiş və yetişdirəbilən olur. Əsrlərdən, uzun illərdən sonra bir dənəsinə rast gəinirsə yenə böyük nemətdir. Hər şey onunla nurlanır. Onun bir baxışı və bir kəlmə sözü qəlblərdən çox mərəzləri yox edər.

Böyük vəli İmam Rəbbani bu mövzuda bunları

söyləmişdir: *"Kəmali-fərdiyyəyə də sahib olan qütb-ül-irşad çox az bulunur. Əsrlərdən, çox uzun zamanlardan sonra belə bir gövhər dünyaya gəlir. Qaralmış olan aləm onun gəlişiylə aydınlanır. Onun irşadının və hidayətinin nurları zaman-zaman bütün dünyaya yayılır. Hər kəs ondan feyz alır. Arada o olmadan kimsə bu nemətə qovuşmaz. Onun hidayətinin nurları ən qüvvətli radio dalğaları kimi bütün dünyaya yayılar. O böyük zatı tanıyan və sevən bir kimsə onu düşünürsə, yaxud o bir kiməsni sevər, onun yüksəlməsini istərsə, o kimsənin qəlbində sanki bir pəncərə açılar; bu yolda sevgi və ixlasına görə qəlbi o dəryadan daim feyz alar. Bunun kimi bir kimsə Allah-təalanı zikr edirsə və bu zatı heç düşünməzsə, məsələn, onu tanımazsa, yenə ondan feyz alar. Fəqət birinci feyz daha böyük olar. Onu inkar edər, yaxud, bəyənməzsə, bu böyük zatın qəlbini qırmışsa, Alah-təalanı zikr etsə belə rüşd və hidayətə qovuşmaz. Ona inanmaması və yaxud qəlbini qıması feyz yolunu qapadar. O zat bunun zərərini istəməsə belə, hidayətə qovuşmaz. Rüşd və hidayət var görünürsə də, əslində çox azdır, yaxud faydasızdır. O zata inanan və sevənlər onu düşünməsələr və Allahı zikr etməsələr belə, yalnız onu sevdikləri üçün rüşd və hidayətə qovuşarlar".*

Övliyaların bir qisminin vəzifəsi insanları irşad etmək, doğru yola yönəltmək olduğu halda, digər qismi də vardır ki, onların vəzifəsi insanlara yardım etmək, xidmət göstərməkdir. Allahın sevimli qulları





olan bu şəxslərin dünyanın nizamı (düzəni) ilə görəvli olduqlarını hər kəs bilməz (dərk etməz). Bunlardan biri vəfat etdikdə yerinə digəri təyin olunar, bu vəzifə ilə görəvləndirilər. Onlar irşad əhli, yəni, insanlara doğru yol göstərən vəlilərdən olmayıb, ancaq maddi yardımlarda bulunarlar. Yer üzündə bunların sayının bəzi alimlər yeddi, bəziləri qırx, bəziləri isə, yetmiş olduğunu söyləmişlər.

Fəxri-Kainat Peyğəmbərimiz onlar haqqında buyurmuşdur: *"Ümmətim arasında hər zaman 40 kişi bulunur. Bunların qəlbləri İbrahimin (ə) qəlbi kimidir. Allah-təala onlar səbəbi ilə qullarından bəlaları götürər. İnsanlar onların Allah yanında dərəcə və mövqelərini bilməzlər. Onlar bu mərtəbəyə namaz və orucla yetişmədilər".*

Abdullah ibn Məsud: *"Ya Rəsulallah! Nə ilə bu dərəcəyə çatdılar?"* - deyə, soruşdu.

*"Comərdliklə və müsəlmanlara nəsihət etməklə yetişdilər"* - deyə, buyurdu.

Müşkül işlərin asanlaşması və çətinliklərin aradan qaldırılması ilə görəvləndirilən övliyalar da vardır ki, onlara **Qütb-ül-ebdal** və ya **Qütb-ül-medar** (medar qütbü) deyilir.

Qütb-ül-ebdal – aləmin nizamı ilə əlaqələnən, bolluq-qıtlıq, barış-savaş, xəstəlik-sağlamlıq, ruzi, yağmur və buna bənzər olaylarla görəvləndirilən, hər kəsin tanımadığı (dərk etmədiyi) Allah adamı olub, əmrində

üçlər, yeddilər, qırxlar deyə söylənilən yenə bu işlərlə vəzifəli seçilmiş insanların olduğu böyük vəlilərdir. Böyük Alim İmam Rəbbaninin bildirdiyinə görə Qütb-ül-ebdal (Qütm-ül-medar) hər zaman bulunur. Həzrət Rəsulullahın zamanında da vardı. Fəqət bunlara inziva (gizlilik, hamının dərk etməməsi) lazımdır. Odur ki, bu şəxsləri hər kəs dərk etməz. Hətta, bunlardan bir çoxu öz-özlərini tanımazlar. Yenə İmam Rəbbani həzrətləri buyurur: "*Qütb-ül-ebdal aləmdə, dünyada hər şeyin var olması və yaşaya bilməsi üçün feyz (həyat eşqi) gəlməsinə vasitə olar. Hər şeyin yaradılması, ruzilərin göndərilməsi, dərdlərin, bəlaların götürülməsi, xəstələrin şəfa tapması Qütb-ül-ebdal (Qütm-ül-medar) deyilən zatın feyzləri ilə olur".*





## FİRONLARIN ZÜLMÜNDƏN QURTULMAQ ÜÇÜN İNƏK QURBANI KƏSİLMƏLİDİR

***"Yadınıza gətirin o vaxtı ki, Musa öz qövmünə: "Allah sizə bir inək kəsmənizi əmr edir!" - dedi. Onlar isə: "Bizi məsxərəyəmi qoyursan?" - dedilər".*** *(Musa da:)* ***Allah Özü məni cahil olmaqdan saxlasın!" - dedi". Quran, "İnək" surəsi, 67***

Elm və Peyğəmbərlik əsri olan XXI əsr başlayanda Rəbbim mənə elə bir elm (elmi-ladun) bəxş etdi ki, onunla Quranın açılmamış sirlərinə işıq salıb bir çox mətləbləri üzə çıxarmaq mümkün oldu. Yuxarıdakı yazılarımda bu mətləblərdən bəzilərini diqqətinizə çatdırdım. Bu söhbətimiz isə, "İnək" ("Bəqərə") surəsi barədədir. Daha doğrusu surədə keçən əhvalatın həyatda başıma gəlməsindən danışacam.

Əvvəlcə qeyd edim ki, surənin mahiyyəti ondan ibarətdir ki, Misirdə iki tayfadan biri (Firon tayfası) o birinə (Musa tayfasına) zülm edirdi və onlara heç bir hüquq tanımırdı, istədiyi adamı öldürsəydi qanı batırdı. Musa qövmünün isə, qarşı tərəfə toxunmaq hüququ yox idi.

Belə bir şəraitdə Musa (ona Salam olsun) tayfasının xilası üçün Rəbbinə dua etdi və cavab aldı ki, qızılı rəngdə, üç yaşında, kələ görməmiş bir inək (düyə) qur-

ban kəssələr, onu qəbul edib, tayfanı zülümdən azad edərəm (bax: "İnək" surəsinin 67-72-ci ayələrinə)

Surədəki sirləri Elmi-ladunla öyrənərkən mənə məlum oldu ki, bu gün bəşəriyyət həmin situasiyanı yaşamaqdadır və insanlar müasir firoonların zülümündən qansız xilas olmaq istəyirlərsə, həmin əlamətlərdə inəyi (düyəni) tapıb, ikinci dəfə qurban kəsməlidirlər. Surənin 2 rəqəmi ilə nömrələnməsi də məhz bununla bağlıdır (ümumiyyətlə, Quranda keçən bütün hadisələr bu əsrdə bu və ya digər formada görünəcək).

Bunu bilәndәn sonra, mən həmin əlamətlərdə inəyi axtarmağa başladım. Bir neçə ildən sonra bir şair dostum (o həm də tamadadır) yanıma gəlib, dedi inək axtarırsan? Əvvəl heç nə yadıma düşmədiyindən, "yox" dedim. Dedi bu gecə yuxumda filankəsi gördüm, qabağında bir topa öz heyvanlarını aparırdı, içərisində qızılı rəngdə bir düyə vardı, bir səs mənə dedi ki, bu düyə Paşa Yaqubun neçə ildir axtardığı düyədir.

Şair dostum yuxunu danışanda, yadıma düşdü ki, mən "Quran"dakı inəyi axtarıram, Allah-taala mənə nişan verir. Dediyi adamı tanıyırdım, axşamüstü evinə gedib, bu əlamətlərdə düyəsinin olub-olmadığını, satıb-satmadığını soruşdum. Kişi dedi elə bir heyvanımız var, üç yaşındadır, çöldə-bayırda azad gəzsə də, kələ başqa heyvanlara yaxınlaşır, nədənsə ona yaxınlaşmır. Dəfələrlə satmaq istəmişəm, arvad qoymur ki, həyətimizin yaraşığıdır, satmıram.

Maraq üçün gedib heyvanlar saxlanan yerdə həmin





inəyə baxdım. Gördüm "Quran"dakı bütün əlamətlər bunda var. Təxmini hesabladım ki, bunun ən yüksək bazar qiyməti 100 "şirvan" olar (kilo-kilo satarsa). Ev sahibinin arvadına bu məbləği təklif etdim ki, heyvanı sat mənə. Dedi pula ehtiyacım yoxdur, satmıram. Ardıycan soruşdu ki, doğmayan heyvana nə əcəb bu qədər təklif edirsən, hansı ki, bazarda bu pula daha sərfəlisin ala bilərsən?

Qurban kəsəcəyimi deyəndə, arvada gülməli gəldi, dedi inəkdən qurbanmı olar? *("Onlar dedilər: "Bizi məsğərəyəmi qoyursan?"* Quranın həmin ayəsi).

Səhəri gün həmin qadına 150, birisi gün isə 200 "şirvan" və yaxud, bəyəndiyiniz yanı balalı bir inəyi bazardan alıb düyəni onunla dəyişməyi təklif etdim (and olsun ki, həmin anda mənim bir maşın pulum olsaydı, hamısını ona təklif edərdim). Arvad iki ayağını bir başmağa dirəyib, satmayacağını dedi.

Bundan əlavə, qonşu qadınların da yanında mənim dəli olduğumu, erkək heyvanlar dura-dura dişini qurban kəsmək istədiyimi lağnan danışırmış. Sonuncu söhbətimdə ona bildirdim ki, mənə satmırsansa, eybi yoxdur, amma bu heyvanı heç vaxt qəssaba satma, çünki oradan restoranlara və içki məclislərinə gedəcək və günaha batacaqsan, düyədə Allahın nişanəsi olduğundan, ona kələ yaxınlaşmır. Mən danışdıqca gördüm arvad gülür...

Bir neçə aydan sonra xəbər tutdum ki, həmin düyəni 70 "şirvana" qəssaba satıblar, bir neçə heyvanla bir-

likdə. Arvadı qəfil sancı tutduğundan, Bakıdakı klinikaardan birində əməliyyat olunub. Bu minvalla ailə üzvləri dalbadal bir neçə dəfə əməliyyat olandan sonra, həmin həyətdəki heyvan sürüsündən əsər-əlamət qalmadı. Aradan cəmi bir neçə il keçib, həmin ailədəki bir dəstə külfətdən də heç kəs qalmayıb, sonuncu həmin qadın dünyasını dəyişdi. Allah hamısına rəhmət eləsin, günahlarını bağışlasın...

... Bu əhvalatı danışmaqda məqsədim insan oğlunun diqqətini bir daha həmin qurbana cəlb etməkdir ki, müasir fironların zülmündən qansız-qadasız qurtarmaq üçün Rəbbim onun kəsilməsini istəyir. Qurbana şərik olmaq üçün say məhdudiyyəti yoxdur və onu istənilən ölkədə zülmə məruz qalan toplum cəmləşərək, halallıqla alıb, kəsə bilər.

Bu qurbanlıqda başqa nüanslar da var ki, bunlar ictimaiyyət üçün deyil.

***"Nəhayət onlar inəyi tapıb kəsdilər. Amma az qalmışdı ki, bu işi yerinə yetirməsinlər".*** Quran, 2:71



# İDARƏÇİLİYİN SİRLƏRİ

***Elmi-lədun işığında***

## DÖVLƏT DƏ İNSAN KİMİ CANLIDIR – DOĞULAR, BÖYÜYƏR, YAŞLANAR VƏ ÖLƏR

Hinduların müqəddəs kitablarında da xilaskarın zühuru haqqında müjdələr var. Bu kitablarda deyilir:

*“Dördüncü dövrün axırlarında yer əhli fəsada çəkilər və onların əksəri kafir olar. Onlar böyük günahlar edərlər və hakimləri alçaq bir şəxs olar. Həmin dövrün insanları bir-birini yırtan canavara bənzəyər. Kahinlər və din adamları yolunu azar, haqq oğruların əlinə düşər, təqvalı və zahid insanlar alçaldılar...*

*Həmin vaxt “Brəhman Kəla”, yəni şücaətli bir dindar zühur edər və öz elmi ilə yer üzündə fəsadın kökünü kəsər. O, pak insanları hifz edəcək”.*

”Şakomuni” kitabında deyilir: *“Dünya hakimiyyəti aləmin yaranmışlarının ağası nəslindən olan böyük “Kəşnin” əlinə keçəcək. O şərq və qərb dağlarına hakim olacaq. Bütün ilahi dinlər bir dinlə əvəz olacaq. Adı Qaim olan bu şəxs Allahın dinini canlandıracaq”.*

Hindu kitablarından olan ”Vişn-cok” kitabında yazılır: *“Dünyanın sonunda hakimiyyət Allahı sevən və Onun xalis bəndələrindən olan bir şəxsin əlinə keçəcək. Onun adı Xoşbəxtdir”.*

Hindu kitablarından olan “Bask” kitabında yazılır:





*“Dünya həyatı adi bir şəxsin hakimiyyəti ilə tamamlanacaq. O, mələklərin, cin və insanların rəhbəridir. Haqq onunladır. O, suya, quruya, dağlara hakim olacaq. Göylərdə və yerdə olandan xəbər verəcək. Ondan böyüyü dünyaya gəlməmişdir”.*

“Upanişad” kitabında deyilir: *“O, dünyanın axırlarında zühur edər. Ağ ata süvar olar, əlində yalın qılınc tutar. Quyruqlu ulduz tək işıq saçar. Bütün rəzil insanları həlak edər, yeni bir həyat qurar. Paklığı yer üzünə qaytarar”.*

### Dövlət də insan kimi canlıdır...

Yeri gəlmişkən, orta əsrlərdə yaşamış təcrübəli dövlət xadimi və tarixçi İbn Xəlduna görə, dövlətlər də insanlar kimi doğular, böyüyər, yaşlanar və ölər. Buna görə də o, dövlətin keçirdiyi mərhələləri 5 yerə ayırır.

Birinci mərhələ fəth və quruluş mərhələsidir. Bu mərhələdə oturaq bir rəhbərliyin əlindən hərbi güclə iqtidar ələ keçirilir. Əsəbiyyə bağlarının çox güclü olduğu, hökmdarların bir kraldan daha çox bir başçı olduğu mərhələdir.

İkinci mərhələdə hökmdar iqtidarı inhisarlaşdırmağa başlayır. Bunun üçün özünün başa keçməsinə kömək edən təbii həmrəylikdə "təmizlik" aparmağa

başlayar, onun gücünə ortaq olanları yox edər, birbaşa özünə bağlı olan muzdlu döyüşçü və bürokratlardan təşkil olunmuş bir əhatə yaratmağa başlayar. Bundan başqa mütəfəkkirlərdən ibarət məsləhətçiləri olar.

İbn Xəldunun düşüncəsinə görə, mütəfəkkirlər ən pis siyasi məsləhətçilərdir. Siyasi hadisələri ayrıca görmək yerinə bir-biri ilə müqayisə, mübahisə edərək gördükləri üçün mənfi siyasi məsləhətlər verə bilirlər.

İbn Xəlduna görə hökmdarlara əsl yararlı məsləhətləri "orta bir zəkaya sahib olan fövqəladə şəxslər" verirlər.

Üçüncü mərhələ iqtisadi rifahın artdığı, mədəni ünsürlərin inkişaf etdiyi bir yüksəliş, ya da dəbdəbə mərhələsidir. Bu mərhələdə hökmdar şəxsi gəlirini artırmaq, tabeliyində olanların vergilərini azaldaraq dövlətin maliyyə mənbələrini artırmaq və yenidən düzəltmək, şəhərləri gözəlləşdirmək üçün çalışır. Hər kəs iqtisadi rifahdan öz payını alır, sənətkarlıq və elm inkişaf edir, hakim təbəqələr özlərini mədəni layihələrin qoruyucuları olaraq göstərərlər. Rifah və sərbəstlik dövlətin suveren vəziyyətinə çevrilər.

Dördüncü mərhələ doymaq, təmin və özünü bəyənmək mərhələsidir. Sabitlik və sülhün hakim olduğu, idarəetmədə yenilikçi heç bir təşəbbüsün olmadığı, əvvəlki idarəetmənin təqlid edildiyi və bundan imtina etmənin dövlətin dağılmasına səbəb olduğuna inanılan bir mərhələdir.





Həm idarə edənlər, həm də idarə olunanlar bu sabitlik və rifahın əbədi olacağına inanarlar. Dövlət qurucularının gücü və uğurlarına görə bu mərhələ çox uzun müddət davam edə bilər. Ancaq bu mərhələdə hiss olunmadan geriləmə, dağılma başlayır və dövlət sonuncu mərhələ olan "eyş-işrət və israf" mərhələsinə keçir.

Sonuncu mərhələ eyş-işrət və israf mərhələsidir. Bu mərhələdə hökmdarların iqtisadi və toplum hadisələrini şəxsi arzuları ilə idarə etməyə çalışması ilə dövlətdə sağalması mümkün olmayan xəstəliklər meydana çıxır.

Hökmdar sahib olduğu lüks həyatı, ordunu və bürokratları saxlamaq üçün vergiləri artırmağa məcbur olur. Artan vergi iqtisadi fəaliyyətlərin azalmasına səbəb olur və hökmdarın məqsədinin əksinə olaraq, dövlətin gəlirləri azalır. Dövlətin gözləmələri zəifləyər və ümidsizlik yayılar. İqtisadi fəaliyyətlər dayanar və insanlar uzun müddətli planlara girişməzlər. Doğum həddi aşağı düşər, əhalisi çox olan şəhərlərdə sıxlıq və ekoloji problemlər ortaya çıxar. Dövlət dağılmağa başlayar. Mərkəzdən uzaqda yerləşən valilər, generallar, şahzadələr, ya da başqa dövlətlər dövlətdən torpaq parçaları əldə etməyə başlayarlar. Paytaxtda da ordu və bürokratlar hökmdarın nüfuzunu ələ keçirməyə, hökmdarı sadəcə "oyuncağa" çevirməyə başlayarlar. Nəticədə xaricdən gələn və əsəbiyyəsi güclü gənc

və sağlam bir topluluq dövləti zəbt edər və çürümüş quruluşu yox edib yenisini qurarlar.

Hər dövlət bu mərhələləri yaşayar və bunlar dövri olaraq həmişə təkrarlanar. Göründüyü kimi, bir mərhələdən digərinə keçiş ictimai quruluşdakı təbii güclərlə izah olunur. İbn Xəlduna görə bu proses bir ictimai qanundur və şəxslərin iradəsinə tabe olmaz ...





## DÖVLƏT QURULUŞU BU CÜR OLSA RÜŞVƏT ALMAQ MÜMKÜN OLMAZ

Bu gün dünya ölkələrinin böyük əksəriyyətində insanlar korrupsiya bataqlığında boğulmaqdadırlar. Millətlərin içərisində olan az sayda ağıl sahibləri bu bataqlıqdan xilas yollarını düşünməkdədirlər. Bunu nəzərə alıb, elmi-lədun yolu ilə bizə öyrədilmiş dövət quruluşu sistemini təqdim edirik ki, xalqlar gələcəkdə bu sistemi öz ölkələrində tətbiq etməklə, elə dövlət qursunlar ki, o quruluşda məmurlar istəsələr belə korrupsiyaya qurşanmaları mümkün olmasın.

Öncə qeyd edək ki, ən qədim dövrlərdən başlayaraq, korrupsiya dövlətlərin idarəetmə sisteminin kökünü zədələmiş, mütəşəkkil cinayətkarlığa yol açmış, cinayətkar qruplaşmaların yaranmasına səbəb olmuş və bu qrupların əsas strategiyasına və taktikasına çevrilmişdir. Məmur özbaşınalığı, vəzifə saxtakarlığı, vəzifədən sui-istifadə etmə halları, rüşvətxorluq, dövlət əmlakının talan edilməsi, maliyyə fırıldaqları və bu kimi başqa cinayət əməllərinin kökündə məhz korrupsiya dayanır.

Korrupsiya hüquqi aktların və dövlətin inkarı deməkdir. Korrupsiya zülmü, zorakılığı, özbaşınalığı və s. bu kimi alçaq və rəzil xüsusiyyətləri özündə ehtiva edən çox zərərli bir əməldir. Korrupsiya fahişəlik qədər

qədim bir əməldir. Hüquqi aktların işləməməsi korrupsiyanın əsas səbəblərindən biri kimi göstərilməlidir. Korrupsiyanın qarşısını almaq üçün məmurun maaşı artırılmalı və göstərdiyi xidmətə uyğun bonus əlavə edilməlidir.

Məhkəmə hakimiyyətində korrupsiyanın olmasının əsas səbəbləri bunlardır:

- hakimlərə ciddi cəza nəzərdə tutulmaması;
- hüquqi aktlardakı qeyri-müəyyən nitq hissələrindən istifadənin çox olması (hüquqi aktlarda boşluqların yaranmasına səbəb olur);
- ictimai nəzarətin olmaması;
- nəzarətedici orqanın olmaması;
- cəzasızlıq sindromu;
- sahibkarların azad olmaması;
- hüquqi aktların işləməməsi;
- hakimlərin şəffaf seçilməməsi və s.

Korrupsiyanın əcdadı mənəvi pozğunluqdur. Rüşvət alan məmura ilk öncə xəbərdarlıq edilməli və onun iş yeri dəyişilməlidir. Əgər o ikinci dəfə bu hərəkəti edərsə, o zaman onun bütün əmlakı dövlət tərəfindən alınmalı, hərracda satılmalı və ehtiyacı olanlara əvəzsiz verilməlidir.

Yaradan insana var-dövləti ona görə verir ki, insan onu xoş niyyətlər üçün istifadə etsin və ehtiyacı olana yardım etsin.

İnsanın insana qarşı törətdiyi cinayətin kökündə şübhəsiz, varlanmaq ehtirası dayanır. Varlı olmaq və





ya yaxşı yaşamaq hamının istəyi olsa da, başqasının hesabına varlanmaq hər adamın arzusu deyil. Hər bir insan öz zəhməti hesabına varlanmalı, yalnız haqqı olan maddi nemətlərlə kifayətlənməlidir.

İnsanlar bilməlidirlər ki, var dövlət toplamaq insanın ən böyük missiyası olsaydı, təbii ki, bunu peyğəmbərlər, alimlər, filosoflar hamıya bəyan edərdilər. İnsanın ən böyük missiyası xeyir əməl sahibi olmaq və elmlənməkdir. Şübhəsiz, insanın ən böyük amalı bəşəriyyəti maarifləndirmək, əhəmiyyətli ideyalar irəli sürmək və həyatı dərk etməkdir.

Ey rəhbərlər! İşçilərnizə inanın; amma, daima onları yoxlayın. Hər şeyə şübhə ilə yanaşmaq olar, amma hər şeyə inamsızlıq göstərmək olmaz.

Yuxarıda qeyd etdiyimiz kimi, insan övladı bu gün korrupsiyalaşmış dövlət qurumlarının yarıtmaz fəaliyyəti nəticəsində əzab çəkməkdədirlər. Bunu nəzərə alaraq, Yaradanın bizə öyrətdiyi dövlət quruluşu modelini sizlərə təqdim edirik. Əgər öz ölkələrinizdə bu modeli tətbiq edərsinizsə, məmurlar istəsələr belə, rüşvət ala bilməyəcəklər.

Əl idarəçiliyin simvoludur; məgər insanlar bunu bilmirlərmi? Əldə beş barmaq olduğu kimi, dövlətin idarəçiliyi də beş yerə bölünməlidir:

1) Baş barmaq - məhkəmə hakimiyyətini;
2) İşarə barmağı - nəzarətedici hakimiyyəti;
3) Orta barmaq - imtahanları təşkil edən hakimiyyətin bir qolunu;

4) Üzük barmağı - qanunverici hakimiyyəti;

5) Kiçik barmaq isə, icraedici hakimiyyəti bildirir.

Quracağınız dövlətdə hakimiyyətin bu qolları qarşılıqlı fəaliyyət göstərməli və öz səlahiyyətləri daxilində müstəqil olmalıdırlar.

Məhkəmə hakimiyyətinin müstəqilliyini təmin etmək üçün, hakimliyə namizədlər ilk olaraq imtahan versinlər (imtahanları vahid qurum təşkil etməlidir.) Sonra isə, hakimlər yüksək bal toplayan namizədlər arasından xalq tərəfindən seçki yolu ilə seçilsinlər.

Məhkəmələr Cinayət, Mülki, İnzibati, İqtisadi, Apellyasiya və Ali məhkəmələrə bölünsünlər. Ölkədəki bütün təhqiqat və istintaqları Məhkəmə hakimiyyəti yanında İstintaq və Təhqiqat Komitəsi aparsın.

## *Senzorluq*

Məhkəmə qərarlarının icrasına Nəzarətedici orqan nəzarət etsin. Nəzarətedici orqanı ***“Baş Senzorluq”*** adlandırın. Senzorun rəhbəri *“Baş senzor”* adlansın. Senzorluq ölkədə bütün hüquqi aktaların icrasına nəzarət etsin. Senzorun işçiləri Ali hüquq təhsilli olmalı və işə imtahan verərək seçilməlidirlər.

Baş Senzor senzorlar arasından stajı, biliyi və təcrübəsi nəzərə alınmaqla, püşk atma yolu ilə 7 il müddətinə seçilsin və bir daha bu vəzifəni tuta bilməsin.

Baş Senzor seçilmiş şəxs, səlahiyyət müddəti bitdikdə birbaşa *Dövlət Şurasının* üzvü sayılsın.





Dövlət Şurasının üzvləri, insan hüquq və azadlıqlarına ziyan verəcək hər bir qərara veto qoymaq hüququna malik olsunlar və onlar toxunulmaz sayılsınlar.

**İmtahan Şurası** ən savadlı, bilikli elm adamlarından ibarət tərkibdə yaradılsın və şuranın əsas məqsədi dövləti savadlı kadrlarla təmin etmək olsun.

**Qanunverici hakimiyyət** isə, Hüquqi aktların ekspertiza şurasıdır. Şura bütün hüquqi aktlar qəbul edilməmişdən əvvəl onun ekspertizasını həyata keçirsin və şuranın işçiləri ən savadlı hüquqşunas, iqtisadçı və digər peşə sahiblərindən ibarət olsun. Şurada qanunvericilik təşəbbüsünü hər bir vətəndaş elektron və yazılı formada bildirə bilər. Şurada millət vəkilləri olmasın. Şurada ancaq ekspert və mütəxəssislər təkliflər hazırlasınlar. Təkliflər ümumi bəşəri dəyərlərə zidd olmamalıdır. Şurada hazırlanmış qanunlar (və onlara vaxtaşırı edilən dəyişikliklər) ümumxalq referendumu ilə qəbul edilsin.

## *Strateq*

İcraedici hakimiyyətinizin başçısını **Strateq** adlandırın. Strateq öz icra səlahiyyətlərini həyata keçirmək üçün ixtisaslaşmış qurumlara rəhbərləri Baş senzorluq və İmtahan şurası ilə razılaşdırmaqla təyin etsin. Strateq 7 il müddətinə seçilsin. Strateq seçilmiş şəxs bir daha yenidən strateq seçilə bilməz. Əvvəllər strateq seçil-

miş şəxs səlahiyyət müddəti bitdikdən sonra birbaşa Dövlət Şurasının üzvü olsun.

Strateq ölkəni aşağıdakı xalq tribunları vasitəsi ilə idarə etsin:

**Hərbi işlər üzrə xalq tribunu** – bütün silahlı qüvvələrə, hərbi sənayeyə və hərbi xidmətə çağırışa nəzarət etsin.

**Maliyyə işləri üzrə xalq tribunu** – dövlətdə işləyən işçiləri və işləməyən vətəndaşları sosial müavinət və pensiya alan şəxsləri hər ay vaxtlı-vaxtında pulla təmin etsin.

**Daxili işlər üzrə xalq tribunu** (bu vəzifə həm də vitse-strateq sayılsın) – ölkənin miqrasiya, vergi, gömrük siyasətinə, fövqəladə hallara və türmələrə nəzarəti həyata keçirsin. Bu quruma rəhbərlik edən şəxs dövlətin bütün qubernatorlarının başçısı sayılsın.

**Qubernatorlar** İmtahan şurasının təşkil etdiyi imtahanları müvəffəqiyyətlə verən şəxslərdən ən çox bal toplamış şəxs seçilsin. Əgər iki və daha artıq ən çox bal toplamış şəxs olarsa, onda qubernatoru onlar arasından püşkatma yolu ilə seçin.

Qubernatorlar öz ərazilərində qeydiyyat idarələrinə, təhsilə, səhiyyəyə, ekologiya idarələrinə və s tam nəzarət etsinlər.

**Mədəniyyət işləri üzrə xalq tribunu** – turizmə, idmana, tikinti və bərpa işlərinə nəzarət etsin və tikintilərə icazə versin.

**Yüksək texnologiyalar və Nəqliyyat işləri üzrə**





**xalq tribunu** – su, quru, dəmir yolu, hava, kosmosdakı işlərə nəzarəti və aidiyyatı yerlərdəki təmir bərpa işlərinə nəzarəti həyata keçirsin.

**Xarici işlər üzrə xalq tribunu** – ölkənizin xarici siyasətini müəyyən etsin.

**İnsan və Dövlətin mühafizəsinin təşkili üzrə xalq tribunu** – dövlətinizin və vətəndaşlarınızın təhlükəsizliyini təmin etsin.

**İqtisadi inkişaf üzrə xalq tribunu** – kənd təsərrüfatı və digər dövlət inkişafı üçün müxtəlif proqramları hazırlasın və onları icra etsin.

Bütün **Banklar** dövlətin müstəsna mülkiyyətində olsun. Sələmi haram elan edin. Bank işçiləri maaşlarını dövlətdən alsınlar.

Xalq tribunları və qubernatorlarınızın səlahiyyət müddəti beş il olsun və bir şəxs yalnız bir dəfə həmin vəzifələri tuta bilsin.

Bu gün dünyada olan xalqların böyük əksəriyyəti korrupsiyalaşmış dövlət qurumlarının əsarətində qalıblar və çıxış yolu axtarırlar. Yuxarıda göstərdiyimiz dövlət quruluşu sistemi bəşəriyyətə bir model olaraq təklif edilir. Əgər sizlər həqiqətən də korrupsiya ilə mübarizə aparıb, onun kökünü kəsmək istəyirsinizsə, onda öz ölkələrinizdə bu modeli tətbiq etməyiniz təklif olunur.

# Mündəricat

Uğurun sirri ........................................................................ 5
Elmi-lədun nədir? .................................................................. 8

**Fizikanin sirləri**
İnsanda paralel aləmə çixiş nöqtələri var, onları birləşdirəndə barmaqlar «www» formasını alır ........................ 11
Kainat fizikanın qanunları ilə idarə olunur ............................. 15
Tester cihazındakı funksiyalar insanda da var ......................... 19
Sirat körpüsü "praqlatka" funksiyasını yerinə yetirir ........................................................................ 23

**Azərbaycan – sirli məkan**
Qız qalasının sirləri ................................................................ 26

**Astronomiyanın sirləri**
Dövrümüzün Varaqa bin Nofəli kimdir? ................................. 33
Bəşəriyyəti kim xilas edəcək? .................................................. 39
Astronomik hadisələr niyə 858 gündən bir təkrarlanır? ......................................................................... 50
2020-ci ilin Günəş tutulmaları bəşəriyyətə hansı mesajları ötürür? ........................................................................ 54
2020-ci ilin Ay tutulmaları bəşəriyyətə bu mesajları verir ......................................................................... 60
Astronomik hadisələrin təyyarə qəzalarına təsiri .................... 66





Dünyada baş verən enerji qəzalarının astronomik hadisələrlə əlaqəsi ................................................................... 73
Astronomik hadisələr və daşqınlar ........................................... 80

**Kimyanin sirləri**
Elementlərin dövrü sistemdəki düzülüşü ilə surələrin düzülüşü eyni prinsipə malikdir ............................... 84
16-cı element və 16-cı surə məhəbbət rəmzidir ........................ 87
24-cü element nur rəmzidir ...................................................... 90
Mendeleyevin ölümündən sonra dövri sistem niyə saxtalaşdırıldı? ........................................................................ 91

**Biologiya elminin sirləri**
İçkini niyə tərgitdim? ............................................................... 99
İnsani keyfiyyətlər uşağa ana südü ilə keçir ........................... 102
Ləl-cəvahirat ilbizdən yaranır ................................................. 108
İnsanda məhəbbət hissi belə yaranır ....................................... 110
Çərşənbələrin mahiyyəti insanın yaradılış ünsürlərinə bağlanır ............................................................. 113
Meyvəni yuxarıdan dərin ......................................................... 116
İnsana sevinc və kədər limiti ayrılıb ....................................... 117
Barmaq izləri belə danışır ....................................................... 120
Gül becərməyin insan xarakterinə təsiri ................................. 122
Sənətkara öz yerində qiymət verilməz .................................... 124
Dağ ancaq uzaqdan əzəmətli görünər ...................................... 125
Cəmiyyətin çürüməsi ilə narin çürüməsi bənzər prosesdir ...................................................................... 126

Cahil insan kal əncir kimidir – diyirlənib kökündən uzaqlaşar ................ 132
Bar verən ağac əkin ................ 138

**Quranın bağlı ayələrinin sirləri**

"Quran"in bağli ayələrini dərk etmək mümkündür ................ 142
Qədr gecəsindəki riyazi qanunauyğunluq ................ 149
Belə etsəniz, vəhy qəbul edərsiniz ................ 152

**Təbabətin sirləri**

Yaqub peyğəmbər oğlanlarını bəd nəzərdən belə qorudu ................ 157
Neqativ enerji insanı depressiyaya salır və intihara sövq edir. ................ 161
Autizmli, şikəst doğulanların sayının artmasının sirləri ................ 168
Eyni ailədə uşaqların niyə biri yaraşıqlı, digəri çirkin olur? ................ 170
Bu əlamətləri olan qızlar ailə qurmağa meyilli olmurlar ................ 171

**Ufologiya elminin sirləri**

Cinlər insanların səhhətinə və fikirlərinə təsir edə bilirlər ................ 177
2020-ci ildə bəşəriyyət tilsimdən xilas olacaq ................ 181
Babil əhalisinin dili bir gecədə niyə dəyişildi? ................ 186
Övliyalar arasında iş bölgüsü ................ 190





Fironlarin zülmündən qurtulmaq üçün inək qurbanı kəsilməlidir ................ 194

**İdarəçiliyin sirləri**

Dövlət də insan kimi canlıdır – doğular, böyüyər, yaşlanar və ölər ................ 199
Dövlət quruluşu bu cür olsa rüşvət almaq mümkün olmaz ................ 204

**Müəlliflə əlaqə:**

Tel: (+994 50) 375 30 97
Youtube: Pasha Yaqub
Facebook.com paşa.yaqub

**Paşa Yaqub**

# Gizli elmlər

**Mətbəənin direktoru:** *Elman Qasımov*
**Dizayner:** *Mətanət Əliqızı*
**Korrektor:** *Pünhan Şükür*

Çapa imzalanmışdır: 08.01.2020. Formatı 60x84 1/16.
Həcmi 13,5 ç.v. Sifariş № 04. Tiraj 2000

"Zərdabi Nəşr" MMC Nəşriyyat Poliqrafiya müəssisəsi
Tel.: (012) 514 73 73, (050; 055; 070) 344 76 01
e-mail: zerdabi_em@mail.ru